RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 65 (9520) 30 mart 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycandan Avropaya "yaşıl xətt" də uzanacaq




## Bunun üçün dənizin dibi ilə 1100 kilometr kabel çəkiləcək

Bir sözlə, Azərbaycan bərpaolunan enerji istehsalını getdikcə artıracaq və bu enerjinin böyük hissəsini ixrac etməyi planlaşdırır. Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu saziş Avropanı "yaşıl enerji" ilə təmin edən əsas kanal kimi Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsini nəzərdə tutur. Yəni Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü salmağı hədəfləyib. Görülən işlər, keçirilən tədbirlər də ölkəmizin inamlı addımlarla bu məqsədə doğru irəlilədiyini göstərir.

"Yaşıl enerji" məsələsi Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Çinin "Phoenix" telekanalına müsahibəsində də geniş yer alıb. Qeyd olunub ki, Çinlə də Azərbaycan arasında enerji sahəsində sıx əməkdaşlıq mövcuddur. Çin şirkətləri ölkəmizin neft və təbii qaz layihələrində iştirak edirlər. "Yaşıl keçid" Azərbaycan üçün prioritet sahəyə çevrildiyinə görə Çin şirkətləri ölkəmizin iqtisadiyyatının şaxələndirilməsində yaxşı tərəfdaşdırlar. Biz COP29 və ondan sonrakı mərhələdə çinli dostlarımızla fəal işləməyi səbirsizliklə gözləyirik.

→ 4

## Rumen Radev İlham Əliyevə zəng edib

Martın 29-da Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Rumen Radev Bakıya nəzərdə tutulan səfərinin ölkəsindəki daxili siyasi öhdəliklər səbəbindən gözlənilmədən təxirə salınmasından təəssüfləndiyini bildirib.

Dövlət başçıları qarşılıqlı maraq kəsb edən sahələrdə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi perspektivlərini müzakirə ediblər. İki ölkə arasında enerji, sərmayələr, nəqliyyat bağlılığı, habelə biznes təmaslarının təşviqi sahələrində tərəfdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğu vurğulanıb. Həmçinin müqavilə-hüquq bazasının genişləndirilməsi üçün ikitərəfli sənədlərin işçi qaydada razılaşdırılma prosesində olduğu qeyd edilib. Telefon danışığı əsnasında prezidentlər diplomatik kanallar vasitəsilə səfərin yeni tarixlərinin razılaşdırılacağını bildiriblər.



*Prezidentin Mətbuat Xidməti*

## Parlamentin beynəlxalq əməkdaşlığı genişlənir

**Martın 29-da Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasın əvvəlində Milli Məclisin Sədri Sahibə Qafarova başçılıq etdiyi nümayəndə heyətinin martın 22-dən 26-dək İsveçrənin Cenevrə şəhərinə işgüzar səfəri barədə qısa məlumat verib.**

Milli Məclisin Sədri bildirib ki, səfərdə məqsəd Parlamentlərarası İttifaqın 148-ci Assambleyasında, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Üçüncü Konfransında və Asiya Parlament Assambleyasının koordinasiya iclasında iştirak etmək idi. Parlamentlərarası İttifaqın 148-ci Assambleyasında "Parlament diplomatiyası: sülh və qarşılıqlı anlaşma üçün körpülərin salınması" mövzusunda müzakirələr aparılıb və o, öz çıxışında beynəlxalq qaydalara əməl olunmaması, ikili standartların və müəyyən dövlətlərin maraqlarının üstünlük təşkil etməsi nəticəsində dünyanın daha parçalanmış və təhlükəli hala gəldiyini qeyd edib. Həmin iclasda o, parlament diplomatiyasının artan əhəmiyyətindən danışıb, sülh və qarşılıqlı anlaşma yaradılmasında parlamentlərin rolu barədə fikirlərini bölüşüb.

→ 2

## Təbiətin intiqamı amansız olur

### Onun qarşısının alınması yolları bu dəfə Bakıda müzakirə ediləcək

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması da "yaşıl iqtisadiyyat"ın yolunu genişləndirmək üçün atılan mühüm addımdır. Bu addımın Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransı Tərəflər Konvensiyasının 29-cu sessiyası (COP29) kimi mötəbər bir tədbirin Bakıda keçirilməsi ilə eyni ildə olması onun mühüm əhəmiyyət kəsb etməsinə dəlalət edir. Bu mənada bir neçə gün əvvəl "Qlobal Təkrar Emal Günü"ndə "Təmiz Şəhər" ASC-nin təsərrüfat sahələrinə təşkil edilən məlumat turunu COP29 çərçivəsində görülən əməli fəaliyyət kimi dəyərləndirmək olar. İctimai şəxslərin, bloqçu və media nümayəndələrinin iştirak etdikləri məlumat turunda "Təmiz Şəhər" ASC-nin fəaliyyəti, Bakıda bərk məişət tullantılarının idarə edilməsi və təkrar emal prosesi ilə bağlı ətraflı məlumat verilib. Bildirilib ki, müasir texnoloji yeniliklər tətbiq edilməklə dayanıqlı inkişaf prinsiplərinə və ətraf mühitin mühafizəsi standartlarına uyğun fəaliyyət göstərən Balaxanı Sənaye Parkına sahibkarlar tərəfindən ümumilikdə 52 milyon manat investisiya qoyulub. Parkın fəaliyyəti dövründə 229 milyon manat dəyərində istehsal edilən məhsulun 23 milyon manatlığı xarici ölkələrə ixrac edilib. 25 rezidentin qeydiyyatdan keçdiyi Balaxanı Sənaye Parkında 1126 yeni iş yeri yaradılıb.

→ 4

## Rusiya Ermənistana diplomatik müharibə elan edib

### Bəs İran niyə susur?!

Fakt budur ki, ABŞ-Aİ-Ermənistan 5 apreldə keçiriləcək görüşdə Hayastan silahlı qüvvələrinə silah tədarük olunması, eləcə də Avropa İttifaqının Ermənistandakı missiyasının NATO missiyasına çevrilməsi məsələləri müzakirə ediləcək. Bu isə o deməkdir ki, Avropa İttifaqının missiyasını konkret olaraq ABŞ hərbi qüvvələri əvəzləyə bilər.

Belə bir addım birbaşa Azərbaycana deyil, həm də Rusiyaya qarşı yönəlmiş təxribatdır. Təbii ki, ABŞ hərbçilərinin regiona yerləşdirilməsi qonşu İranı da ciddi narahat etməlidir. Çünki bu durum İrana da təsirsiz ötüşməyə bilər.

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun "İzvestiya" informasiya portalına müsahibəsində səsləndirdiyi fikirlər də təsdiq edir ki, Aİ-nin Ermənistandakı missiyası NATO missiyasına çevrilir. "İndi, üstəlik, Norveç, Kanada və ABŞ-dən olan hərbçilər oraya göndərilir və Avropa İttifaqının missiyası getdikcə Şimali Atlantika Alyansının missiyasına çevrilir", - deyən nazir vurğulayıb ki, Ermənistandakı vəziyyət nikbinlik yaratmır. Ölkə rəhbərliyi uydurma bəhanələrlə işi Rusiya ilə münasibətlərin pozulmasına aparır. "Ermənistan rəhbərliyi, açıq desək, uydurma bəhanələrlə, son üç ilin üç il yarımlıq tarixini təhrif edərək işi bilərəkdən Rusiya ilə münasibətlərin pozulmasına, 102-ci hərbi bazada xidmət edən hərbçilərimizin, sərhədçilərimizin fəaliyyətinin gözdən salınmasına, bütövlükdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının gözdən salınmasına aparır", - deyə Lavrov bildirib.

→ 5

## Fransanın Cənubi Qafqaz xəyalları gerçəkləşən deyil

Ermənistanın baş naziri parlamentdəki çıxışı zamanı və yerli sakinlərlə görüşdə Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin təslim edilməsinin zəruri olduğunu bildirərək deyib: "Ya kəndləri təslim edəcəyik, ya razılıq verməyəcəyik, ya da Azərbaycanla müharibə edəcəyik". O, bu dəfə guya Türkiyənin də Azərbaycan tərəfindən müharibəyə qoşulacağını vurğulamaqla sakinləri qorxutmağa çalışıb. Paşinyan, həmçinin sərhəddə Azərbaycanın əsas mövqeləri nəzarətə götürdüyünü açıqlayıb.

İstər Ermənistanın baş naziri Nikol Paşinyanın, istərsə də hakimiyyətdə təmsil olunan siyasilərin ritorikanı dəyişib "sülh" istəməsi, öz vətəndaşlarını müharibə ilə təhdid etməsi heç də səbəbsiz deyil.

Məsələ burasındadır ki, Qarabağ münaqişəsi başlanan gündən indiyədək özünü beynəlxalq müstəvidə Ermənistanın "müdafiəçisi", "vəkili", "himayədarı" rolunda göstərmək istəyən Fransa bu savaşda Azərbaycana məğlub olduğunu etiraf etməkdədir.

→ 6

## Rasmussen Ermənistandan rüşvət alıb

Budur, yenə NATO-nun keçmiş baş katibi rüşvət qoxusu gələn eyni çirkin ssenarini davam etdirərək Azərbaycana qarşı qərəzli hesabat hazırlayıb. Bu hesabatın ictimaiyyətə açıqlandığı zamanın özü də xüsusi diqqət çəkir. Hansı ki hazırda Azərbaycan ilə Ermənistan arasında normallaşma üçün tarixi fürsət yaranıb. Digər tərəfdən isə qərəzli Qərb təsisatları təşkilatlanaraq Azərbaycana qarşı qarayaxma, təzyiq kampaniyasına start veriblər ki, bütün bunlar birbaşa regionda sülhə zərbə vurmaq məqsədi güdür. Eyni zamanda da başda Fransa olmaqla bəzi Qərb ölkələrinin Ermənistanı silahlandırması, ona hərbi dəstək verməsi bölgədə barışa yox, müharibənin alovlanmasına xidmət edir. Belə bir həssas dönəmdə Rasmussenin rəhbərliyi altında qərəzli hesabatın hazırlanması və açıqlanması təsadüfi deyil. Bunlar Azərbaycana qarşı ABŞ, Fransa, Aİ, AŞPA, AP kimi ölkə və qurumlar tərəfindən həyata keçirilən eyni çirkin planın tərkib hissələridir.

→ 5

## Makronun siyasi fəaliyyəti uğursuzluq hekayəsidir

Əslində, 2020-ci ildən başlayaraq bu günə qədər davam edən Paris-Bakı münasibətləri Makronun məğlubiyyət silsiləsidir. Elə "Le Fiqaro" qəzeti də yayımladığı məqalə ilə bunu etiraf edir. Qəzet də təsdiqləyir ki, bu günə qədər Fransanın Cənubi Qafqazla bağlı təşəbbüslərinin heç biri baş tutmayıb. Həmçinin Makronun Avropada öz ətrafına tərəfdarlar toplamaq və digər beynəlxalq aktorları Azərbaycana qarşı yönəltmək cəhdləri uğursuzluğa düçar olub. Bir sözlə, Makronun siyasi fəaliyyəti başdan-ayağa uğursuzluq hekayəsidir. Bu baxımdan, "Le Fiqaro" qəzetində dərc olunmuş məqaləni Fransa prezidentinin boşa çıxmış cəhdlərinin hesabatı adlandırmaq olar.

→ 6

## Brüssel konfransı Ermənistana baha başa gələ bilər

Digər dövlətləri regiona gətirmək yalnız gərginliyi artıra, yeni münaqişə ocağı yarada bilər. Konfransa gəlincə isə, Azərbaycanın iştirakı olmadan regional bir məsələ ilə bağlı bir araya toplanıb nə isə etmək qətiyyən mümkün deyil. Çünki Azərbaycan regionun aparıcı dövlətidir, Avropa ilə kifayət qədər ciddi siyasi-iqtisadi əlaqələri mövcuddur. Üstəlik, Avropa İttifaqının riyakar davranışlarına baxmayaraq, Azərbaycan Avropanın əksər ölkələrinin marağındadır. Ona görə həmin konfransda Azərbaycanın da iştirakı vacibdir.

→ 5

## Sərmayə varsa, inkişaf da var

### Cari ilin iki ayında əsas kapitala 2,6 milyard manatdan çox investisiya qoyulub



Hazırda qlobal iqtisadiyyatda baş verən geriləmənin əsas səbəbi siyasi çəkişmə nəticəsində kapital qoyuluşunun aşağı düşməsidir. Məlumdur ki, kapitallaşma iqtisadiyyatın qan damarıdır və onun kəsilməsi iqtisadi böhrana təkan verən əsas amillərdən biridir. Bu üzdən ölkəmizdə iqtisadi və sosial sahələrin investisiyalaşmasının dövlət tərəfindən həyata keçirilməsi uğurla davam edir.

Prezident İlham Əliyev iqtisadiyyatı çətin durumdan qurtarmağa xüsusi önəm verən dövlət başçılarındandır. Biz buna koronavirus pandemiyası zamanı şahid olduq. Azərbaycan iqtisadiyyatını qorumaq üçün dövlət və özəl sektorlara ciddi maliyyə dəstəyi verildi ki, istehsal dayanmasın, müəssisələr fəaliyyətlərini davam etdirsin. Belə də oldu. Azərbaycan iqtisadiyyatı koronavirus pandemiyasından minimum itki ilə çıxdı.

İndi də Prezidentin birbaşa təşəbbüsü ilə dünyada baş verən ciddi geosiyasi mübarizədən qaynaqlanan çətinliklərin aradan qaldırılmasına dövlət dəstəyi davam edir. Təkcə 2023-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 20 milyard 296,6 milyon manat və ya 2022-ci illə müqayisədə 9,8 faiz çox vəsait yönləndirilmişdir.

→ 8

## Milli Məclisin iclasında

# Parlamentin beynəlxalq əməkdaşlığı genişlənir

*Əvvəli 1-ci səh.*



Bildirib ki, xalqın nümayəndələri olaraq parlamentlər etimad, təhlükəsizlik və sülh şəraitində dinc birgəyaşayış məsələlərinin həllinə mühüm töhfələr verə bilərlər.

Sahibə Qafarova diqqətə çatdırıb ki, hazırda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə və Asiya Parlament Assambleyasına Azərbaycan Milli Məclisinin Sədri rəhbərlik edir. Cenevrədə onun sədrliyi ilə bu iki təşkilatın irimiqyaslı tədbirləri keçirilib.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Üçüncü Konfransında üzv parlamentlərin, habelə beynəlxalq təşkilatların 56 nümayəndə heyəti iştirak edib.

Toplantıda söylədiyi giriş nitqində Milli Məclisin Sədri Qoşulmama Hərəkatına ölkəmizin sədrliyi dövründə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının və Qadınlar Platformasının yaradılması istiqamətində atılan addımların hərəkatın institusional inkişafı üçün əhəmiyyətini qeyd edib. Eyni zamanda o, hərəkatın Parlament Şəbəkəsinin fəaliyyətinin gücləndirilməsi və institusional potensialının artırılması, digər parlamentlərarası təşkilatlar ilə dialoq və əməkdaşlığın inkişafı üçün görülən işlər barədə də məlumat verib.

Konfransda "İqlim dəyişikliyi ilə mübarizədə parlament fəaliyyətinin canlandırılması" mövzusu ətrafında müzakirələr aparılıb. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yanında beynəlxalq təşkilatlara müşahidəçi statusunun verilməsi haqqında qərarlar qəbul olunub, tədbirin yekunlarına dair Cenevrə Bəyannaməsi qəbul edilib. Həmçinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq arasında anlaşma memorandumu da imzalanıb.

Sonra Milli Məclisin Sədri bildirib ki, Asiya Parlament Assambleyasının koordinasiya iclası Parlamentlərarası İttifaq çərçivəsində Azərbaycanın sədrliyi ilə keçirilən assambleyanın ilk koordinasiya iclası olub. Spiker oradakı çıxışında bildirib ki, parlamentlərarası təşkilatların fəaliyyətinin genişlənməsinə yönələn qlobal tendensiyalar, parlamentlərin ikitərəfli və çoxtərəfli əməkdaşlığını tənzimləyən normativ hüquqi bazanın inkişafı, qlobal qərarların qəbulu proseslərində parlamentlərin daim artan iştirakı parlamentlərarası əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini göstərir.

Bu baxımdan o, Asiya Parlament Assambleyasının rolunu diqqətə çatdırıb. Qeyd edib ki, təşkilat Asiyada və dünyada əməkdaşlığın, sülh və sabitliyin möhkəmlənməsinə nail olmaq üçün cari məsələlərin və çağırışların həlli üçün ümumi səyləri birləşdirən parlament diplomatiyasının mühüm platformasıdır. Spiker oradakı çıxışında Asiya Parlament Assambleyası ilə Parlamentlərarası İttifaqın ümumi məqsədlər naminə fəaliyyətini və səylərini əlaqələndirməyin zəruriliyini də vurğulayıb.

Spiker qeyd edib ki, o, hər üç toplantıda bu ilin noyabrında Bakı şəhərində keçiriləcək COP29 konfransına hazırlıq işlərindən danışıb. Bildirib ki, ölkəmizdə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" kimi qeyd olunur. Azərbaycanın çox ciddi "yaşıl enerji"yə keçid gündəliyi mövcuddur və ölkəmizdə bərpaolunan enerjinin həm istehsalına, həm də ixracına böyük investisiyalar qoyulur. O, iqlim dəyişikliyinə qarşı mübarizə tədbirlərini təşviq etmək və hədəflərimizə çatmaq üçün bütün tərəflərin iştirakının vacibliyini bildirib.

Spiker Sahibə Qafarova bildirib ki, Cenevrədə bir sıra ikitərəfli görüşlər də keçirilib. ICESCO-nun baş direktoru, Serbiya, Əlcəzair, Qayana, Syerra-Leone, Qazaxıstan, Özbəkistan, Kot-Divuar parlamentlərinin sədrləri ilə görüşlərdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif aspektləri nəzərdən keçirilib. Qarşılıqlı maraq doğuran bir sıra məsələlər barəsində fikir mübadiləsi aparılıb.

Parlamentlərarası İttifaqın təşəbbüsü və vasitəçiliyi ilə Azərbaycan və Ermənistan parlament sədrlərinin ikitərəfli görüşü də baş tutub. Aparılmış müzakirələr zamanı Azərbaycan ilə Ermənistan arasında davam edən sülh danışıqları şəraitində iki ölkə parlamentinin sülh prosesinə hansı formada dəstək göstərə biləcəyi ilə bağlı məsələlər nəzərdən keçirilib.

Spiker Cenevrə şəhərinə işgüzar səfərin uğurlu keçdiyini deyib və bununla əlaqədar Milli Məclisin nümayəndə heyətinin hər bir üzvünə minnətdarlığını bildirib.

Sonra Milli Məclisin Sədri diqqətə çatdırıb ki, qarşıdan Azərbaycanlıların soyqırımı günü gəlir. Xalqımız erməni şovinistlərinin vəhşiliyinin qurbanı olmuş on minlərcə günahsız insanın xatirəsini daim ehtiramla yad edir.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində və antiterror tədbirlərində əldə etdiyi tarixi qələbələr, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi sayəsində son iki yüz ilə yaxın dövrdə məruz qaldığımız torpaq itkiləri, etnik təmizləmələr və soyqırımları silsiləsinə son qoyulub. Azərbaycan xalqına çoxsaylı milli fəlakətlər gətirən erməni şovinizminə və ekspansionizminə sarsıdıcı zərbə endirilib. Bütün bunlar xalqımıza qarşı yeni soyqırımı cinayətlərinin baş verməməsinə ən yaxşı təminatdır.

Sonra iclasın gündəliyi təsdiqlənib və gündəlikdəki məsələlərin müzakirəsinə başlanıb. Spiker Sahibə Qafarova bildirib ki, gündəliyə 21 məsələ daxil edilib. O, ilk iki məsələnin cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu deyib. Birinci məsələ "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə konstitusiya qanununun layihəsidir, ikinci məsələ isə "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihələri ikinci oxunuşda müzakirəyə çıxarılır.

Qanun layihələrini təqdim edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli hər iki məsələ ilə əlaqədar birinci oxunuşda geniş məlumat verildiyini, təklif edilən dəyişikliklərin "Media haqqında" qanunun icrası ilə bağlı olduğunu bildirib.

Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, Mədəniyyət komitəsinin sədri Fazil Mustafa, Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli bu komitələrin ikinci məsələyə dair rəylərini diqqətə çatdırıblar. Deputatlar Etibar Əliyev və Aydın Mirzəzadə məsələ ilə bağlı fikir və qeydlərini diqqətə çatdırdıqdan sonra, qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova növbəti 7 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu deyib. Müzakirələrdən sonra Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında, "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu deyib. Bildirib ki, 9-cu məsələ Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsidir, 10-cu məsələ "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Spiker Milli Məclisin fevralın 23-də keçirilmiş iclasında gündəliyin 10-cu məsələsi olan qanun layihəsinin bir oxunuşda qəbul ediləcəyini və onun müzakirəsinin 9-cu məsələdə olan qanun layihəsinin üçüncü oxunuşu ilə eyni gündə keçiriləcəyini bildirdiyini xatırladıb və hər iki sənədin bu gün birlikdə müzakirəyə təqdim olunduğunu qeyd edib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov bu qanun layihələri barədə məlumat verib. O, bu sənədlər barədə əvvəlki oxunuşlarda geniş məlumat verildiyini, hər hansı əlavə bir dəyişikliyin edilmədiyini deyib və olduğu kimi səsə qoyulmasını xahiş edib.

Parlamentin İctimai birliklər və dini qurumlar, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Təbii ehtiyatlar, energetika və ekologiya, Aqrar siyasət, İnsan hüquqları komitələrinin rəyləri diqqətə çatdırılıb.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Parlamentin spikeri Sahibə Qafarova gündəliyin digər üç məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu, növbəti iki məsələnin cənab Prezidentin bir məktubu ilə Milli Məclisə təqdim edildiyini və mahiyyətcə bir-birinə yaxın olduğunu söyləyib. O, həmin iki məsələnin "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri olduğunu diqqətə çatdırıb.

Sonra Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bu iki sənədi təqdim edib. "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Qanunda nəzərdə tutulan dəyişikliklərlə əlaqədar bildirilib ki, sənəddə əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin digər bələdiyyələrlə birləşdirilməsi nəzərdə tutulur. Birləşmə və ya ayrılma nəticəsində əhalisinin sayı 3000 nəfərdən və ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələrin yaradılmasına onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla yol verilir. Layihəyə əsasən, birləşən hər bir bələdiyyə birləşmə ilə bağlı rəyini baxılmaq üçün Milli Məclisə təqdim edir. Milli Məclis həmin bələdiyyənin digər bələdiyyə ilə birləşdirilməsi ilə bağlı qanunvericiliyə müvafiq surətdə qərar qəbul edir.

"Bələdiyyələrin statusu haqqında" Qanunda nəzərdə tutulan dəyişikliklərin uyğunlaşdırma xarakteri daşıdığı qeyd olunub.

Komitə sədri Fazil Mustafa və deputat Qüdrət Həsənquliyev məsələ ilə bağlı bəzi qeyd və təkliflərini söyləyiblər. Siyavuş Novruzov səsləndirilən fikirlərə münasibət bildirib.

Müzakirələrin sonunda qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O bildirib ki, təklif edilən dəyişiklikdə geostasionar orbitlərdəki peyk rabitəsi vasitələrinin özəlləşdirilməsi qadağan edilən dövlət əmlakının sırasından çıxarılması nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin qalan 8 məsələsi birinci oxunuşda olan qanun layihələridir. O, növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu, məzmun və mahiyyətcə bir-birinə yaxın olduğunu söyləyib. Spikerin təklifi ilə layihələrin təqdimatları və müzakirəsi birlikdə keçirilib. Layihələr haqqında məlumatı Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev təqdim edib.

Bəxtiyar Əliyev bildirib ki, müzakirəyə çıxarılan "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində (birinci oxunuş) təklif edilən dəyişikliklər sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin təhsil müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə hazırlanıb və qanunun yeni redaktədə təqdim olunan 14.8-1-ci maddəsində bu şəxslərin tam dairəsi müəyyən edilib.

Komitə sədri bildirib ki, 15-ci məsələdə - "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Peşə təhsili haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsində (birinci oxunuş) isə sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin ödənişli əsaslarla təhsil aldıqları müddətdə onların təhsil haqlarının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsinin digər qanunlarda da təsbit olunması təklif edilib.

Bəxtiyar Əliyev layihələrin komitədə müzakirəsi zamanı deputatların səsləndirdikləri təklifləri də diqqətə çatdırıb. Komitə sədri, həmçinin şəhid ailələri üzvlərinin, müharibə əlili olan gənclərin, qazilərin ali təhsil almaları üçün qanunvericilikdə nəzərdə tutulan ali təhsil müəssisələrinə hazırlıq kurslarına cəlb olunmaları ilə bağlı fikirlərini bölüşüb.

Ailə, qadın və uşaq məsələləri, İnsan hüquqları və Əmək və sosial siyasət komitələrinin layihələrlə bağlı müsbət rəylərini səsləndirəndən sonra sənədlərin müzakirəsi aparılıb.

Qanun layihələri ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Gündəliyin 16-cı məsələsi olan Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov təklif edilən dəyişiklikləri bir neçə istiqamət üzrə qruplaşdırıb. Bildirib ki, birinci qrupa vergi orqanına xidmətə qəbul olan şəxslərin staj və sınaq müddətinin müəyyən edilməsi, onun xidmət illərinə daxil edilməsi, eyni zamanda staj və sınağın keçmə qaydalarının əsasının müəyyən edilməsi məsələləri aiddir.

İkinci qrup uyğunlaşdırmalara xüsusi rütbələrin verilməsi və dövlət qulluğunun digər xüsusi növü olan rütbələrlə uyğunlaşdırılması məsələsi daxildir. Rütbələrin verilməsində sui-istifadə hallarının qarşısının alınması məqsədi ilə digər sahəvi qurumların təcrübəsinə uyğun olaraq növbədənkənar rütbənin verilməsi, digər rütbəyə keçirilməsi, onların dövlət qulluğu və onun xüsusi növündə olan rütbələrlə qarşılıqlı uyğunlaşdırılması ilə bağlı bəzi müddəaların təkmilləşdirilməsi təklif edilir.

Üçüncü qrup təsnifata həvəsləndirmə və intizam tədbirlərini aid etmək olar. Vergi orqanlarının vəzifəli şəxslərinin həvəsləndirmə qaydasının təkmilləşdirilməsi, habelə bu çərçivədə onlara "fəxri vergi orqanı işçisi" adının verilməsi, həmçinin vergi orqanı işçilərinin məsuliyyətinin gücləndirilməsi məqsədilə intizam tənbehi tədbirinin tətbiqi ilə bağlı tənzimləmələrin təkmilləşdirilməsi təklif edilib.

Dördüncü qrup təsnifata isə sosial müdafiə və maddi təminatla bağlı müddəalar daxildir. Misal üçün elmi dərəcələrə görə eyni əlavənin verilməsi təklif edilir. Eyni zamanda vergi orqanlarının vəzifəli şəxslərinə xüsusi rütbələrə görə verilən maaşların "Dövlət qulluğu haqqında" Qanunda müəyyən edilmiş məbləğlərə identik uyğunlaşdırılması təklif edilir.

Kamal Cəfərov bildirib ki, təklif edilən dəyişikliklər vergi xidmətinin keyfiyyətini daha da artıracaq, qurum daxilində rəqabət mühitinin daha da təkmilləşməsi üçün yeni imkanlar yaradacaq və bu sahədə kadr siyasətinin sabitliyinə mühüm töhfələr verəcək.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili və Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev sənədlə bağlı təmsil etdikləri komitələrin müsbət rəylərini səsləndirəndən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) nəzərə çatdırıb. Sənəddə qanunun uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ olan şəxslərlə bağlı 8-ci maddəsi yeni redaksiyada təqdim olunur. Dəyişikliyə əsasən, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş səkkiz yaşınadək övladlığa və ya qəyyumluğa götürülmüş uşaqlar da daxil olmaqla, beş və daha çox uşağı olan və ya əlilliyi müəyyən edilmiş uşağı olan qadınların və kişilərin, uşaqların səkkiz yaşınadək sağ olması şərtilə, bu Qanunun 7-ci maddəsi ilə müəyyən edilmiş şərtlər daxilində yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır. Bununla yanaşı, bu hüquq kişilərə münasibətdə qadın vəfat etdiyi (məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildiyi), habelə məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən valideynlik hüququndan məhrum edildiyi və ya nikaha xitam verildiyi üçün uşağın (uşaqların) kişinin himayəsinə verildiyi hallarda tətbiq edilir.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova təklif edilən dəyişiklikdə əmək pensiyalarının tətbiqində gender bərabərliyinin təmin olunmasını vətəndaşların konstitusion hüquqlarının müdafiəsi kimi dəyərləndirib. O, məsələnin komitədə müzakirə olunduğunu və müsbət rəy verildiyini diqqətə çatdırıb.

Məsələ ilə bağlı müzakirələrdə deputatlar bəzi qeydlərini səsləndiriblər. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, layihə inzibati icraat zamanı həyata keçirilən tədbirlərə kənar şəxslərin (hal şahidlərinin) cəlb edilməsinin aradan qaldırılmasını nəzərdə tutur. Qeyd olunub ki, İnzibati Xətalar Məcəlləsinə görə şəxsi axtarış və fiziki şəxsdə olan əşyaları yoxlama, nəqliyyat vasitəsinə baxış və bir sıra digər tədbirlər hal şahidlərinin iştirakı ilə həyata keçirilir. Layihədə hal şahidlərinin iştirakı aradan qaldırılaraq, həmin hallarda fasiləsiz videoçəkiliş aparılmaqla icraatın həyata keçirilməsi təklif edilir. Digər dəyişikliyə əsasən, barəsində inzibati icraat aparılan şəxsin və zərər çəkmiş şəxsin razılığı olmadan inzibati xəta haqqında iş üzrə icraat zamanı foto və ya video çəkilişin, yaxud səsyazma materiallarının media subyektinə təqdim olunması inzibati məsuliyyətə səbəb olacaq.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, "Reklam haqqında" qanunun 26.8-ci maddəsi reklam qurğuları hesab edilməyən və bu səbəbdən də yerləşdirilməsinə icazə tələb olunmayan məlumat lövhələri, plakatlar və elanların dairəsini müəyyən edir. Hazırda birbaşa aid olduğu xidmət, ticarət və ya digər obyektlərin giriş hissəsində, fasadında yerləşdirilən və həmin obyektlərin adını, mənsubiyyətini, fəaliyyət növünü, ünvanını və iş rejimini istehlakçıya çatdıran sayı 1-dən, ümumi ölçüsü 1 kvadratmetrdən artıq olmayan lövhələr, həmçinin dövlət orqanlarına aid olan lövhələr bu sıraya aid edilmişdir. Təklif olunan dəyişikliyə əsasən, sənaye parklarına, sənaye məhəllələrinə və aqroparklara münasibətdə bu tələb 20 kvadratmetrədək müəyyən ediləcəkdir. Qeyd olunub ki, sənəddə texniki və dəqiqləşdirici xarakterli bir sıra dəyişikliklər də nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, dəyişikliklərdə ipotekaya xitam verilməsinin əsasları sırasına yeni bir halın - ipoteka saxlayanın tələbi və ya ipotekadan imtina etməsi halının daxil edilməsi təklif olunur. Bu müddəa xüsusilə ipoteka qoyan şəxslə borclunun ayrı-ayrı şəxs olduğu hallarda meydana çıxan məsələlərin daha operativ tənzimlənməsinə imkan yaradacaq. Eyni zamanda Mülki Məcəllənin 316-cı maddəsində müvafiq dəqiqləşdirici düzəlişin edilməsi həyata keçirilir.

Qeyd olunub ki, Mülki Məcəlləyə əsasən, zaminlik müqaviləsi üzrə zaminin borclu ilə birgə məsuliyyəti, eyni zamanda zaminin subsidiar məsuliyyəti mövcud ola bilər. Zaminlik müqaviləsi ilə təmin edilmiş öhdəlik üzrə zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmuşdursa və müqavilə qüvvədə olduğu müddətdə borclu şəxs vəfat edirsə, bu halda zaminin məsuliyyətinin tənzimlənməsi zərurəti yaranırdı. Təklif olunan dəyişikliyə əsasən, bu halda borclunun öldüyü gündən mirasın qəbul edildiyi günədək müddətdə zaminin məsuliyyəti dayandırılacaq.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan "Media haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim edən spiker Sahibə Qafarova bildirib ki, layihə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olub. O, məsələyə dair məlumat vermək üçün İnsan hüquqları komitəsinin sədri Zahid Oruca söz verib.

Komitə sədri diqqətə çatdırıb ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun 59.2-ci maddəsinə əsasən çap mediası subyekti ola bilən dövlət orqanlarının (qurumlarının) dairəsi dəqiq müəyyən edilib. Təklif olunan dəyişiklik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Şərq qapısı" qəzetinin təsisçisi statusunun hüquqi əsaslarının qanunvericilikdə təsbit edilməsini nəzərdə tutur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 132-ci kitabı çapdan çıxıb

**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 132-ci kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin noyabr-dekabr aylarını əhatə edir.**




Bu kitabda Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunmuş Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfərinə, eləcə də Dubayda BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşünə dair materiallar toplanıb. Dövlətimizin başçısının Serbiya Respublikasına işgüzar səfəri haqqında informasiya, Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində çıxışının mətni, Bolqarıstan Prezidenti Rumen Radev və Serbiya Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşləri barədə məlumatlar da bu kitaba daxil edilib.

Yeni kitabda Azərbaycan Prezidentinin İslam Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüşünə dair material, bu təşkilata üzv dövlətlərin əmək nazirlərinin V konfransının iştirakçılarına müraciətinin mətni də yer alıb.

Xatırladaq ki, ötən ilin noyabrında Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü keçirilib. Oxucu bu kitabda Azərbaycan Prezidentinin Zirvə görüşündə çıxışının mətni, eləcə də bu tədbirdə iştirak etmək üçün ölkəmizə gəlmiş dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndələri ilə görüşlərinə dair materiallarla tanış ola bilər.

Ötən ilin mühüm hadisələrindən biri də dekabr ayında ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumu olub. Azərbaycan Prezidenti Forumda çıxış edib və iştirakçıların çoxsaylı suallarını cavablandırıb. Dövlətimizin başçısı, həmçinin bu cavablarında Qarabağın yenidən qurulması ilə bağlı məsələlərə diqqət çəkib.

**Sitat:** *Qarabağın yenidən qurulmasına gəldikdə, təbii ki, əsas maneə zaman və minalardır. Bizim rəqibimiz zamandır, çünki biz bu işləri ən qısa müddətdə həyata keçirmək niyyətindəyik. Bundan əlavə, Qarabağın yenidən qurulması üçün maliyyə vəsaiti toplamışıq və bu, investisiya proqramımızın əsas hissəsini təşkil edəcək. Müqayisə üçün deyim ki, Qarabağın yenidən qurulmasına daha çox vəsait xərcləyəcəyik, - mən dövlət investisiyalarını nəzərdə tuturam, - ölkənin qalan hissəsinə nisbətən daha çox. Bu, ölkənin qalan hissəsini diqqətdən kənar qoyduğumuz anlamına gəlmir. Uzun illər ərzində ölkənin qalan hissəsinə artıq milyardlarla manat investisiya yatırmış və əksər infrastruktur layihələrini başa çatdırmışıq. Lakin hazırda Qarabağ bizim əsas prioritetimizdir. Bölgənin özü və ən əhəmiyyətlisi, evlərinə dönməyi gözləyən insanlardır.*

Forumda dövlətimizin başçısının verilən suallara geniş məzmunlu cavabları ilə 132-ci kitabda tanış olmaq mümkündür.

Kitabda Prezident İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsinin mətni də verilib.

2023-cü il dekabrın 15-də Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasının - COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirə olub. Dövlətimizin başçısının müşavirədə çıxışının mətni də yeni kitaba daxil edilib.

Çoxcildliyin bu cildində Prezident İlham Əliyevin Qarabağa səfərinə, Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ", Bakının MOİK komandalarının oyununa baxmasına, Xankəndi stadionunda çıxışına, oyunun fasiləsində 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşünə dair materiallar da yer alıb.

"Azərnəşr" tərəfindən buraxılan 132-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Sülh prosesinin irəlilədilməsi istiqamətində yeni çağırışlar yaradan bir sıra addımlar prosesə maneə törədir

**Martın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiya Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Pavel Knyazev ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyindən irəli gələn məsələlər, habelə regionda cari vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud münasibətlərin regional və beynəlxalq platformalarda əməkdaşlığın genişləndirilməsinə müsbət təsir göstərdiyini diqqətə çatdırıb. Həmçinin bir sıra beynəlxalq platformalarda əməkdaşlığın perspektivləri ətrafında müzakirə aparılıb. Qarşı tərəf cari ildə Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi çərçivəsində ölkəmiz tərəfindən aparılan danışıqlar prosesi, habelə görülən hazırlıq işləri barədə məlumatlandırılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyətdən, Azərbaycanın regionda sülh və quruculuq səylərindən bəhs edən nazir Ceyhun Bayramov sülh prosesinin irəlilədilməsi istiqamətində yeni çağırışlar yaradan bir sıra addımların, o cümlədən regiondan uzaq yerləşən dövlətlərin öz birtərəfli mövqelərini bölgəyə proyeksiya etmək cəhdlərinin prosesə maneə törətdiyini bildirib.

Bu istiqamətdə aprelin 5-də keçiriləcək Aİ-Ermənistan-ABŞ müştərək konfransının bu cür qeyri-şəffaf və inklüziv olmayan mühitdə təşkili ilə bağlı ölkəmizin mövqeyinin, habelə bu kimi təşəbbüslərin revanşist əhvali-ruhiyyənin hökm sürdüyü Ermənistanı yeni təxribatlara təşviq edə biləcəyi ilə bağlı narahatlıqlarımızın aydın şəkildə ifadə olunduğu vurğulanıb.

Mövcud çətinlik və çağırışlara baxmayaraq, ölkəmizin regional sülh və sabitliyin təmini istiqamətində fəaliyyətini davam etdirmək əzmində olduğu diqqətə çatdırılıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# BMT-nin İnkişaf Proqramı çərçivəsində COP29-la bağlı potensial tərəfdaşlıq müzakirə olunub

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) rezident nümayəndəsinin səlahiyyətlərini icra edən Alessandra Rokkasalvo ilə görüşüb.**



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə iqtisadiyyat naziri ölkəmizin BMT və onun təşkilatları ilə əməkdaşlığa önəm verdiyini vurğulayıb. Azərbaycan iqtisadiyyatının inkişaf tendensiyası və əldə edilən nəticələr, Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə bağlı görülən işlər, işğaldan azad olunmuş ərazilərimizin reinteqrasiyası istiqamətində həyata keçirilən tədbirlərlə bağlı məlumat verilib.

Alessandra Rokkasalvo təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlıq çərçivəsindən məmnunluğunu ifadə edib, müxtəlif sektorlar üzrə inkişaf tədbirlərini nəzərdə tutan layihələrin, həmçinin DİM-lərə investisiyaların cəlb olunmasının əhəmiyyətini qeyd edib, COP29-la bağlı dəstəyə hazır olduqlarını bildirib.

Görüşdə əməkdaşlığın gündəliyində olan məsələlər, o cümlədən dayanıqlı inkişaf üçün maliyyələşmə mexanizmlərinin tətbiqi, işğaldan azad olunmuş ərazilərə qayıdış, enerji səmərəliliyinə investisiyaların artırılması istiqamətində layihələrin perspektivləri, COP29-la bağlı potensial tərəfdaşlıq müzakirə olunub.

# Pakistanın Milli Günü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib



**Pakistan İslam Respublikasının Milli Gününün 84-cü ildönümü münasibətilə martın 29-da Bakıda rəsmi qəbul təşkil edilib. AZƏRTAC xəbər verir ki, tədbir hər iki ölkənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.**

Pakistanın ölkəmizdəki səfiri Bilal Haye Azərbaycan ilə Pakistan arasındakı çoxşaxəli münasibətlərdən, sıx dostluq əlaqələrindən danışıb. Diplomat bildirib ki, iki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi-ticari, müdafiə, təhlükəsizlik, mədəniyyət, təhsil və digər sahələrdə uğurla davam etdirilir.

Ölkəsinin müstəqillik tarixindən danışan diplomat Pakistanın bundan sonra da davamlı inkişaf edərək güclənəcəyinə əminliyini bildirib. "Biz inanırıq ki, Azərbaycan Qarabağ problemini uğurla həll etdiyi kimi, Pakistan da Kəşmir məsələsini həll edəcək. Ölkələrimiz hər zaman bir-birini dəstəkləyib və bu dəstək bundan sonra da davam etdiriləcək", - deyə Bilal Haye vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev Pakistanın milli bayramı münasibətilə Prezident İlham Əliyevin təbriklərini çatdırıb. Qeyd edib ki, Azərbaycan ilə Pakistan arasında mövcud olan iqtisadi, siyasi və mədəni əlaqələr dostluq prinsiplərinə əsaslanır. Pakistanın Azərbaycan üçün çox mühüm bir ölkə olduğunu deyən nazir əlavə edib ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra onu tanıyan ilk dövlətlərdən biri də Pakistan olub. Bununla yanaşı, Pakistan Qarabağ məsələsi ilə bağlı Azərbaycanı beynəlxalq platformalarda hər zaman dəstəkləyir.

Nazirin sözlərinə görə, bu gün hər iki ölkəni möhkəm siyasi tellər bağlayır. Ölkələrimiz arasında əlaqələr hazırda strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Azərbaycan və Pakistan arasında əlaqələrin möhkəm əsasının Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə qurulduğunu diqqətə çatdıran V.Mustafayev iki ölkə arasında münasibətlərin hazırda yüksək səviyyədə uğurla davam etdirildiyini deyib.

O bildirib ki, Azərbaycan və Pakistan arasında ticarət dövriyyəsi ildən-ilə artır. Ölkələrimizin müxtəlif sahələrdə uğurlu əməkdaşlığından, xeyli sayda sənədlərin imzalandığından danışan nazir vurğulayıb: "Azərbaycan xalqı Pakistan dövlətinin və xalqının dəstəyini yüksək qiymətləndirir. Əminik ki, dostluğumuz, əlaqələrimiz bundan sonra daha da dərinləşəcək və möhkəmlənəcək".

# Ombudsman 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanat yayıb

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar bəyanat yayıb.**



AZƏRTAC-ın xəbərinə görə, bəyanatda bildirilir ki, tarix boyu soydaşlarımız Ermənistan tərəfindən dəfələrlə məqsədyönlü şəkildə etnik təmizləməyə, soyqırımına və deportasiyalara məruz qalıblar. Bəyanat sənədində daha sonra deyilir:

"Xalqımıza qarşı həyata keçirilmiş ən dəhşətli soyqırımı hadisələrindən biri 1918-ci ilin mart-aprel aylarında törədilmiş və bu qanlı hadisə Azərbaycan tarixinə 31 Mart soyqırımı kimi yazılıb.

Soyqırımı hadisələrində Şamaxı qəzasının 110 kəndi, Qarabağın 150-dən çox kəndi, Zəngəzur qəzasının 115 kəndi, Qars vilayətinin 98 kəndi, Quba qəzasının 167 kəndi yandırılaraq talan edilib, əhalisi amansızlıqla qətlə yetirilib. Bu kəndlərdən 35-i yer üzündən silinib. Qədim Azərbaycan torpağı olan İrəvan şəhərində və onun ətrafında 199 kənd dağıdılıb, 132 min azərbaycanlı öldürülüb.

Təkcə Quba qəzasında 16 min nəfərə yaxın insan öldürülüb. 2007-ci ildə Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı aşkar edilmiş kütləvi məzarlıqdakı insan qalıqlarında onların fiziki zorakılığa məruz qalmaları ilə bağlı çoxsaylı faktların olması ermənilər tərəfindən 1918-ci ildə xalqımıza qarşı törədilmiş soyqırımı faktını və qeyri-insani əməlləri əyani şəkildə təsdiqləyir.

Qeyd etmək lazımdır ki, 31 Mart soyqırımı da daxil olmaqla, tarixin müxtəlif dövrlərində azərbaycanlılara qarşı törədilmiş soyqırımı cinayətləri zaman keçdikcə faktlarla sübuta yetirilir. Bir müddət əvvəl Xocavənd rayonunun Edilli kəndində, Ağdam və Şuşa şəhərlərində, həmçinin Xocalıda və işğaldan azad olunmuş digər torpaqlarımızda kütləvi məzarlıqlarda müxtəlif formada işgəncələrə məruz qalaraq qətlə yetirilmiş insanların qalıqlarının aşkarlanması da buna nümunə olaraq göstərilə bilər.

Soyqırımı cinayətlərinin əsasında azərbaycanlılara qarşı əsrlər boyu davam edən kəskin nifrət siyasəti və əsassız ərazi iddiaları dayanırdı. Bu iddialar ötən əsrin sonlarında daha da kəskinləşmiş, nəticədə yüz minlərlə soydaşımız indiki Ermənistan ərazilərindən deportasiyaya məruz qalıb, həmçinin beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpaqlarının iyirmi faizi bu ölkə tərəfindən işğal olunub.

2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi, həmçinin 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Ermənistanın otuz ilə yaxın müddətdə işğal altında saxladığı Azərbaycan torpaqları azad olunaraq ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib, tarixi ədalət bərqərar olub.

Ötən əsrin əvvəllərində erməni millətçilərin azərbaycanlılara qarşı törətdikləri amansız soyqırımı hadisələri barədə həqiqətlərin dünyaya çatdırılması və bu məsələyə siyasi-hüquqi qiymətin verilməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün olub.

Ulu Öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmiş, soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi məqsədilə müvafiq tədqiqatların aparılmasına, həqiqətlərin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verilib.

Təəssüf ki, tarix boyu etnik zəmində soydaşlarımıza qarşı xüsusi qəddarlıqla törədilmiş soyqırımı hadisələrinə beynəlxalq miqyasda hələ də ədalətli mövqe bildirilməyib.

Dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar 1918-ci ildə azərbaycanlılara qarşı törədilmiş bu dəhşətli cinayəti beynəlxalq səviyyədə soyqırımı aktı kimi tanımalı, gələcəkdə bu kimi hadisələrin təkrarlanmaması məqsədilə tarix boyu soydaşlarımıza qarşı həyata keçirilmiş cinayətlərə biganə qalmamalıdır".

Bəyanat BMT-nin Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Türk Dövlətlərinin Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına, həmçinin müxtəlif dini icma və konfessiyalara göndərilib.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Neftçala rayonunda Neftçala və Salyan rayonlarının sakinlərini qəbul edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, qəbul zamanı vətəndaşlar məşğulluq, mənzil təminatı, əlillik, reabilitasiya vasitələri ilə təminat, ünvanlı sosial yardım və s. məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlər sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb.

Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun izahatlar verilib. Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyata alınıblar.

* * *

Energetika naziri Pərviz Şahbazov Qazax rayon Heydər Əliyev Mərkəzində vətəndaşların müraciətlərini dinləyib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbul zamanı vətəndaşların elektrik enerjisi təchizatı, transformatorun yerinin dəyişdirilməsi, qaz təchizatı, qaz xətlərinin bərpası, təbii qaz və elektrik enerjisi sərfiyyatına görə yaranmış borc və cərimələr, işlə təminat və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

* * *

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova martın 29-da Masallı Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Masallı, Lənkəran, Göygöl, Yardımlı və Biləsuvar rayonlarından olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, qəbulda vətəndaşların müraciətləri əsasən dövlət dəstəyi tədbirləri, texnikalarla təminolunma, aqrotexniki tədbirlər və digər məsələlərlə bağlı olub.

Nazir müavini İlhamə Qədimova hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaş qəbulu başa çatdıqdan sonra İlhamə Qədimova İsmayıllı Dövlət Aqrar İnkişaf Mərkəzinin kollektivi ilə görüşüb, iş prosesinin təşkili ilə maraqlanıb.

Daha sonra nazir müavini Köhnə Alvadı kəndində fermer Əbdül İsmayılov və Cəsarət Əzizovun çiyələk təsərrüfatlarında aqrotexniki tədbirlərlə tanış olub. Həmçinin rayonda soyuducu kameralara baş çəkib, fermerlərlə üzləşdikləri çətinliklərlə bağlı müzakirələr aparılıb.






# Azərbaycandan Avropaya "yaşıl xətt" də uzanacaq

## Bunun üçün dənizin dibi ilə 1100 kilometr kabel çəkiləcək

**Dünyada neft-qaz diyarı kimi tanınan Azərbaycan zəngin alternativ enerji resurslarına da malikdir. Bu səbəbdən də ölkəmizin enerji siyasətinin növbəti reallığı "yaşıl enerji"nin inkişafı ilə bağlıdır.**

Bərpaolunan enerji istehsalı siyasətinin strateji əsasını dövlət tərəfindən müəyyənləşdirilən və 2021-ci ilin fevralında qəbul olunan "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" təşkil edir. Beş milli prioritetdən biri - təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioriteti qarşıya yeni hədəflər qoyur. Bundan başqa, "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"nda elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2026-cı ilədək 24 faiz, 2030-cu ilədək isə 30 faizə çatdırılması nəzərdə tutulur.

İndi bu hədəflərə doğru inamla irəliləyirik. Keçən il oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyasının müvəffəqiyyətlə istismara daxil olması sözügedən istiqamətdə uğurlu start götürüldüyünə bariz misaldır. "Qaradağ" Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənayemiqyaslı ilk günəş-elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyada 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək.

Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti ilə birgə tikilməkdə olan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası da xüsusi əhəmiyyət daşıyır. Stansiyanın təməli 2022-ci il yanvarın 13-də Xızı rayonunun ərazisində qoyulub. Bu, ölkəmizdə xarici sərmayə cəlb edilməklə həyata keçirilən ilk sənaye həcmli bərpaolunan enerji layihəsidir. Eyni zamanda stansiya Azərbaycanda ən böyük külək enerji stansiyası olacaq. "Xızı-Abşeron" stansiyasında ildə 1 milyard kilovat/saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır ki, bu da təxminən 300 min evin elektrik enerjisi ilə təmin edilməsi deməkdir.

Növbədə Cəbrayıl rayonunda BP ilə tikiləcək "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməlinin qoyulmasıdır. Bu enerji obyektinin bir önəmi də ondan ibarətdir ki, işğaldan azad olunmuş ərazilərimizdə tikiləcək. Məlumdur ki, Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsindəki Zəfərdən az sonra bu əraziləri - 10 min kvadratkilometr sahəni "yaşıl enerji" zonası elan edib. Odur ki, "Şəfəq"in tikintisi həm bu məqsədin gerçəkləşməsində əhəmiyyətli rol oynayacaq, həm də ümumən Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm quruculuğun bir hissəsinə çevriləcək.

Xatırladaq ki, Qarabağ və Şərqi Zəngəzur 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində daha çox müşahidə olunur. Hər iki bölgənin ərazisi ilə axan Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas və digər kiçik çayların böyük hidroenerji potensialı var.

Bir neçə ay əvvəl Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurasının iclasında təsis edilməsinə qərar verilən "SOCAR Green" MMC şirkətinin yaxın gələcəkdə bir sıra önəmli layihələr həyata keçirməsi gözlənilir. Belə ki, "SOCAR Green"in "Masdar" şirkəti ilə birgə "Meqa" layihəsinin ilkin mərhələsində quruda 1 QVt gücündə külək və günəş enerjisi layihələrinin icrası nəzərdə tutulur. "SOCAR Green" həmçinin "ACWA Power", "Masdar" və "Energy China" şirkətləri ilə birgə Naxçıvan Muxtar Respublikasında günəş və külək enerjisi layihələri gerçəkləşdirəcək. Vurğulayaq ki, sözügedən sahədəki zəngin ehtiyatlarına görə Naxçıvan da "yaşıl enerji" zonası elan olunub.

Bir sözlə, Azərbaycan bərpaolunan enerji istehsalını getdikcə artıracaq və bu enerjinin böyük hissəsini ixrac etməyi planlaşdırır. Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu saziş Avropanı "yaşıl enerji" ilə təmin edən əsas kanal kimi Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsini nəzərdə tutur. Yəni Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü salmağı hədəfləyib. Görülən işlər, keçirilən tədbirlər də ölkəmizin inamlı addımlarla bu məqsədə doğru irəlilədiyini göstərir.

"Yaşıl enerji" məsələsi Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Çinin "Phoenix" telekanalına müsahibəsində də geniş yer alıb. Qeyd olunub ki, Çinlə də Azərbaycan arasında enerji sahəsində sıx əməkdaşlıq mövcuddur. Çin şirkətləri ölkəmizin neft və təbii qaz layihələrində iştirak edirlər. "Yaşıl keçid" Azərbaycan üçün prioritet sahəyə çevrildiyinə görə Çin şirkətləri ölkəmizin iqtisadiyyatının şaxələndirilməsində yaxşı tərəfdaşdırlar. Biz COP29 və ondan sonrakı mərhələdə çinli dostlarımızla fəal işləməyi səbirsizliklə gözləyirik.

Prezident İlham Əliyev cari il martın 1-də "Gülüstan" sarayında keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 10-cu, "Yaşıl Enerji" Məşvərət Şurasının 2-ci iclaslarında çıxış edərkən deyib: "Bizim bərpaolunan enerji ehtiyatları baxımından nəhəng potensialımız var, istər Xəzər dənizində, istərsə də qurudakı potensial olsun. Bildiyimiz kimi, biz "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya "yaşıl enerji"nin önəmli ixracatçılarından biri olmağı nəzərdə tuturuq. Artıq qərara alınıb ki, bu layihə inteqrasiya edilmiş layihə olmaqla Xəzər dənizindəki külək dəyirmanlarından yeni ötürücü xətlərlə Qara dənizin dibi ilə Avropaya gedəcək. Beləliklə, bunlar bizim planlardır. Əlbəttə ki, bərpaolunan enerji mənbələrimiz nə qədər çox olsa, indi elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qaza daha çox qənaət etmiş olacağıq".

"Yaşıl dünya naminə həmrəylik ili", eləcə də Azərbaycanın evsahibliyi edəcəyi COP29 ölkəmizi bu sahədə qarşıya qoyduğu hədəflərə çatmağa daha da yaxınlaşdırır. Beləliklə, planlar geniş, hədəflər böyük, işlər çoxşaxəlidir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Təbiətin intiqamı amansız olur

## Onun qarşısının alınması yolları bu dəfə Bakıda müzakirə ediləcək

**Bu gün dünya ətraf mühitin çirklənməsi və iqlim dəyişikliyinin fəsadlarından dolayı yaranan problemlərlə üz-üzədir. Yaranan fəlakətdən xilas olmağın yolu isə ilk növbədə "yaşıl iqtisadiyyat"ı inkişaf etdirməkdən keçir.**

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün "yaşıl iqtisadiyyat"ın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl texnologiya"ların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub.

Qeyd edək ki, Azərbaycanda qurulmuş təkrar emal prosesi "yaşıl iqtisadiyyat"ın inkişafına, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edir. Müasir iqtisadiyyatda "təkrar emal" vacib məsələ sayılır. İstehlak prosesindən sonra tullantıların bir qismini yenidən istifadəyə yararlı hala gətirmək, mümkün olan materialları dövri olaraq istehlak prosesinə daxil etmək təbii sərvətlərin israfının və ekoloji çirklənmənin qarşısını almağın, əlavə xammal bazası yaratmağın qısa və əlverişli yoludur. Təkrar emal həm də ilkin istehsaldan fərqli olaraq, asan və tez başa gəlir ki, bu da enerji qənaətinə imkan verir.




Balaxanı Sənaye Parkı bu sahədə, demək olar ki, sahibkarlara geniş meydan açıb.

Balaxanı Sənaye Parkı 2011-ci ildə yaradılıb və "Təmiz Şəhər" ASC parkın idarəedici təşkilatı təyin edilib. İlkin mərhələdə 7 hektar ərazini əhatə edən sənaye parkına marağın artması nəzərə alınaraq sahəsi 10,15 hektara çatdırılıb. 2017-ci ildə açılışı olan parkın yaradılması ölkədə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun, o cümlədən "yaşıl iqtisadiyyat"ın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması, Bakı və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədinə xidmət edir. Təkrar emal biznesini qurmaq, innovativ texnologiyaları tətbiq edərək "yaşıl istehsal"la məşğul olmaq istəyənlər üçün Balaxanı Sənaye Parkı əlverişli məkandır. Sənaye Parkında 23 rezident qeydiyyatdan keçib və buradakı müəssisələrdə tullantılar təkrar emala cəlb olunub, "yaşıl məhsul" istehsalının artırılması istiqamətində fəaliyyət genişləndirilib.

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması da "yaşıl iqtisadiyyat"ın yolunu genişləndirmək üçün atılan mühüm addımdır. Bu addımın Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransı Tərəflər Konvensiyasının 29-cu sessiyası (COP29) kimi mötəbər bir tədbirin Bakıda keçirilməsi ilə eyni ildə olması onun mühüm əhəmiyyət kəsb etməsinə dəlalət edir. Bu mənada bir neçə gün əvvəl "Qlobal Təkrar Emal Günü"ndə "Təmiz Şəhər" ASC-nin təsərrüfat sahələrinə təşkil edilən məlumat turunu COP29 çərçivəsində görülən əməli fəaliyyət kimi dəyərləndirmək olar. İctimai şəxslərin, bloqçu və media nümayəndələrinin iştirak etdikləri məlumat turunda "Təmiz Şəhər" ASC-nin fəaliyyəti, Bakıda bərk məişət tullantılarının idarə edilməsi və təkrar emal prosesi ilə bağlı ətraflı məlumat verilib. Bildirilib ki, müasir texnoloji yeniliklər tətbiq edilməklə dayanıqlı inkişaf prinsiplərinə və ətraf mühitin mühafizəsi standartlarına uyğun fəaliyyət göstərən Balaxanı Sənaye Parkına sahibkarlar tərəfindən ümumilikdə 52 milyon manat investisiya qoyulub. Parkın fəaliyyəti dövründə 229 milyon manat dəyərində istehsal edilən məhsulun 23 milyon manatlığı xarici ölkələrə ixrac edilib. 25 rezidentin qeydiyyatdan keçdiyi Balaxanı Sənaye Parkında 1126 yeni iş yeri yaradılıb.

COP29 öncəsi bu və bənzər tədbirlərin keçirilməsi ətraf mühitin mühafizəsi ilə bağlı maarifləndirmə işinə bir dəstəkdir. Məlumdur ki, COP29-da müzakirə ediləcək əsas məsələlər dünyada iqlim dəyişikliyinin və ətraf mühitin qorunması olacaq. Azərbaycan neft-qaz diyarı olsa da, ətraf mühitin qorunmasına töhfə verən ölkələrdəndir. Biz hazırda özümüzü ənənəvi enerji ilə təmin etsək də, ətraf mühitə ziyan vurmayan "yaşıl enerji" istehsalı üçün də əməli addımlar atırıq. Prezident İlham Əliyevin təşəbbüsü ilə işğaldan azad olunan ərazilərdə su, günəş və külək-elektrik stansiyaları tikilir və gələcəkdə bu sahədə görüləcək işlərin miqyasının daha da artacağı nəzərdə tutulur. Ona görə də paytaxtda və regionlarda yeni "yaşıl enerji" stansiyalarının tikilməsi istiqamətində elmi-tədqiqat və layihələndirilmə işləri sürətləndirilir. Elə COP29-un Bakıda keçirilməsinə qərar verilməsinin bir səbəbi də budur.

Xatırladaq ki, BMT-nin ilk İqlim Dəyişikliyi Konfransı 1995-ci ildə Almaniyanın paytaxtı Berlində keçirilib. Maraqlıdır ki, 1999, 2001, 2017 və 2019-cu illərdə də Almaniya COP-a evsahibliyi edib. İsveçrə, Yaponiya, Argentina, Niderland, Mərakeş, Hindistan, İtaliya, Argentina, Kanada, Keniya, İndoneziya, Polşa (iki dəfə), Danimarka, Meksika, Cənubi Sudan, Qətər, Polşa, Peru, Fransa, Mərakeş, İspaniya, Birləşmiş Krallıq, Misir və Birləşmiş Ərəb Əmirlikləri ardıcıl olaraq BMT-nin tədbirinə qapı açıblar. Növbəti il Braziliya COP30-a evsahibliyi edəcək.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## ABŞ-Aİ-Ermənistan görüşü heç bir fayda verməyəcək

**"ABŞ-Aİ-Ermənistan arasında aprelin 5-də keçiriləcək görüş beynəlxalq normalara ziddir. Bu görüşdə yalnız Cənubi Qafqazda sülhün, əmin-amanlığın təmin olunması gündəmdə olmalıdır".**



Bu sözləri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan" qəzetinə açıqlamasında deyib. O bildirib ki, həmin görüşdə Azərbaycanın, Gürcüstanın iştirak etməməsi onun legitim olmadığına əsas verir. Bu gün Qərb Cənubi Qafqazda yerləşmək, regionda mövqeyini gücləndirmək niyyətindədir. Bu məqsədə çatmaq üçün isə Ermənistandan istifadə edirlər. Sözsüz ki, belə görüşlərin heç bir əhəmiyyəti yoxdur.

Tahir Rzayev qeyd edib ki, son dövrlər Azərbaycan əleyhinə şantaj xarakterli bəyanatlar səsləndirilir: "Ona görə də Prezident İlham Əliyev belə görüşlərin səmərəsiz olduğunu bilir. Bu görüşlər Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin olunmasına deyil, münaqişənin qızışdırılmasına, Ermənistanın silahlandırılmasına, yeni müharibə ocaqlarının meydana gəlməsinə hesablanıb. Bu reallıqları Azərbaycan yaxşı bilir".

Komitə sədri vurğulayıb ki, bu görüşlər Cənubi Qafqazda yerləşən dövlətlərin milli maraqlarının əleyhinədir. Ermənistanın baş nazirinin tutduğu mövqe nəinki Azərbaycanın əleyhinədir, eləcə də qonşu dövlətlərin də təhlükəsizliyinə təhdiddir və onlar bu görüşlərdən narahatdırlar. Hazırda Fransa başda olmaqla, bəzi Avropa ölkələri Ermənistanı silahlandırmaq yolu tutublar. Fransa hərbi yardımı, mənəvi və maddi dəstəyi ilə daha çox fərqlənir. Avropa İttifaqı, demək olar ki, bütün beynəlxalq normalar üzərindən xətt çəkərək birtərəfli olaraq Ermənistanın maraqlarına xidmət edən bəyanatlar yayır. Qərb bu regionda münaqişənin qızışması üçün əlindən gələni əsirgəmir. Bunun da səbəbi aydındır. Çünki Qərb ölkələri bu gün Rusiyaya qarşı düşmən mövqeyindədirlər.

Komitə sədri qeyd edib ki, Qərb Türkiyənin, Azərbaycanın inkişaf etməsini, dünyada söz sahibi olmalarını qəbul edə bilmir, ölkəmizin haqlı qələbəsini həzm etmək istəmirlər: "Ona görə də bu gün özlərinin avantürist, təcavüzkar siyasətlərini həyata keçirmək yolu tutublar. ABŞ, Avropa İttifaqı, Ermənistan səhv yolda olduqlarını dərk edirlər, ancaq öz maraqları onlara daha əhəmiyyətli gəlir. Fransa, ABŞ, Ermənistan tarixən insanlığa qarşı təcavüzkar mövqeyində olub, müstəmləkəçilik siyasəti yeridiblər. Xalqları təsir altına salmaqla özlərinin çirkin məqsədlərini həyata keçiriblər". Deputatın sözlərinə görə, bu gün həmin ölkələrin özündə böhranlı vəziyyət olmasına baxmayaraq, onlar Ermənistanı silahlandırmaq, Azərbaycana qarşı yenidən müharibəyə cəlb etmək fikrindədirlər: "Bu niyyət həyata keçirilə bilməz, çünki Prezident İlham Əliyevin dediyi kimi, heç bir ölkə bizimlə diktə yolu ilə danışa bilməz. Buna yol verilməyəcək. Azərbaycan Ordusu güclüdür, xalqı isə yumruq kimi birləşib. Dövlətimizin rəhbəri beynəlxalq normaları əldə rəhbər tutaraq bütün platformalarda sülh çağırışları ilə çıxış edir. Ermənistanı sülhə, əmin-amanlığa dəvət edir. Əslində, belə görüşlər Ermənistanın ziyanınadır. Bu görüşlər İrəvan və havadarları üçün heç bir fayda verə bilməz, əksinə, bu, Ermənistanın gələcək faciəsi üçün zəmin yaradır".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Rusiya Ermənistana diplomatik müharibə elan edib

### Bəs İran niyə susur?!

**Cənubi Qafqazda yaşanan siyasi reallıqlarla barışmayan qüvvələr yeni planlar hazırlayırlar. ABŞ və bəzi Avropa ölkələri regionda yeni münaqişə ocağının yaranması üçün əllərindən gələni edirlər. Aprelin 5-də keçiriləcəyi gözlənilən ABŞ-Aİ-Ermənistan görüşü də Hayastana açıq dəstəyi nümayiş etdirmək və Cənubi Qafqazla bağlı planların müzakirə olunması məqsədi daşıyır.**



Əgər əvvəllər Azərbaycan və Ermənistan arasında sülhü dəstəklədiklərini, münasibətlərin normallaşmasının tərəfdarı olduqlarını dilə gətirərək gözdən pərdə asmağa çalışırdılarsa, artıq işğalçı və təcavüzkarı müdafiə etdiklərini açıq şəkildə nümayiş etdirirlər. Təbii ki, burada əsas məqsəd Ermənistanın arzusunu yerinə yetirmək deyil, öz maraqlarını qorumaq üçün bu ölkədən vasitə kimi istifadə etməkdir.

ABŞ və Avropa İttifaqı Azərbaycanla Ermənistan arasında sülhü dəstəklədiklərini bəyan etsələr də, əslində, Cənubi Qafqaz regionunda yeni münaqişə ocağı yaratmağa cəhd göstərirlər. Qərbin Ermənistanı silahlandırması da bu məqsədə xidmət edir.

Fakt budur ki, ABŞ-Aİ-Ermənistan 5 apreldə keçiriləcək görüşdə Hayastan silahlı qüvvələrinə silah tədarük olunması, eləcə də Avropa İttifaqının Ermənistandakı missiyasının NATO missiyasına çevrilməsi məsələləri müzakirə ediləcək. Bu isə o deməkdir ki, Avropa İttifaqının missiyasını konkret olaraq ABŞ hərbi qüvvələri əvəzləyə bilər.

Belə bir addım birbaşa Azərbaycana deyil, həm də Rusiyaya qarşı yönəlmiş təxribatdır. Təbii ki, ABŞ hərbçilərinin regiona yerləşdirilməsi qonşu İranı da ciddi narahat etməlidir. Çünki bu durum İrana da təsirsiz ötüşməyə bilər.

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun "İzvestiya" informasiya portalına müsahibəsində səsləndirdiyi fikirlər də təsdiq edir ki, Aİ-nin Ermənistandakı missiyası NATO missiyasına çevrilir. "İndi, üstəlik, Norveç, Kanada və ABŞ-dən olan hərbçilər oraya göndərilir və Avropa İttifaqının missiyası getdikcə Şimali Atlantika Alyansının missiyasına çevrilir", - deyən nazir vurğulayıb ki, Ermənistandakı vəziyyət nikbinlik yaratmır. Ölkə rəhbərliyi uydurma bəhanələrlə işi Rusiya ilə münasibətlərin pozulmasına aparır. "Ermənistan rəhbərliyi, açıq desək, uydurma bəhanələrlə, son üç ilin üç il yarımlıq tarixini təhrif edərək işi bilərəkdən Rusiya ilə münasibətlərin pozulmasına, 102-ci hərbi bazada xidmət edən hərbçilərimizin, sərhədçilərimizin fəaliyyətinin gözdən salınmasına, bütövlükdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının gözdən salınmasına aparır", - deyə Lavrov bildirib. Rusiyanın xarici işlər naziri əlavə edib ki, məhz KTMT çətin vəziyyətlərdə Ermənistanın maraqlarını dəfələrlə müdafiə edib və 2021-ci ildə Azərbaycanla münasibətlərindəki gərginliyi azaltmaq üçün bu ölkəyə öz sülhməramlı missiyasını göndərməyə hazır olub. O xatırladıb ki, bu missiyanın mandatı 2021-ci ilin payızında İrəvanda keçirilən nazirlərin görüşündə tam razılaşdırılıb, bundan sonra Ermənistanın baş naziri Nikol Paşinyan konsensusun olmadığını bəyan edib.

Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova isə özünün teleqram kanalında qeyd edib ki, Ermənistan bütün dünyanın gözü qarşısında kollektiv Qərbin erməni xalqının köklü maraqlarına tamamilə zidd olan son dərəcə təhlükəli planlarının həyata keçirilməsi üçün alətə çevrilir: "Vaşinqtonda, Brüsseldə və İrəvanda özlərini elə göstərirlər ki, aprelin 5-də gözlənilən yüksəksəviyyəli Ermənistan-Aİ-ABŞ görüşünün niyə bir çoxlarında "narahatlığa" səbəb olmasına təəccüb edirlər. İddia edirlər ki, sanki o, heç bir üçüncü tərəfə qarşı yönəlməyib".

Mariya Zaxarovanın sözlərinə görə, belə hadisələr Rusiyada narahatlıq doğurur, çünki ABŞ və Aİ nümayəndələri Rusiyanın tərəfdaşlarına açıq şəkildə deyirlər ki, onların əsas istiqaməti yalnız Rusiyaya qarşıdır. "Belə görüşlər regionun əksər ölkələrində narahatlıq doğurur, çünki onlar Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsinə deyil, Qərbi özünün son dərəcə dağıdıcı yanaşmaları ilə Cənubi Qafqaza daha çox müdaxilə etmək, orada yeni bölücü xətlər yaratmaq, ölkələri regionun anti-Rusiya gündəmini izləməyə məcbur etmək, onların Moskva ilə çoxəsrlik əlaqələrini pozmaq, mövcud regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq mexanizmlərini zəiflətmək məqsədi daşıyır", - deyə Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi bildirir.

M.Zaxarovanın fikrincə, rəsmi İrəvanın nədən söhbət getdiyini başa düşmədiyini iddia etməsi böyük sual doğurur. Axı bütün dünyanın gözü qarşısında Ermənistanın kollektiv Qərbin erməni xalqının köklü maraqlarına tamamilə zidd olan son dərəcə təhlükəli planlarının həyata keçirilməsi üçün alətə çevrildiyini hər kəs görür...

Bütün bunlar onu deməyə əsas verir ki, faktiki olaraq Rusiya Ermənistana diplomatik müharibə elan edib. Hadisələrin gedişatı göstərir ki, Rusiya mövqelərini qoruyub saxlamaq üçün digər vasitələrdən də istifadə edə, hücum planı həyata keçirə bilər.

Bəs bu prosesə İranın cavabı nə olacaq görəsən?

Əlbəttə ki, ABŞ hərbçilərinin regiona yerləşdirilməsi ilk növbədə İranı narahat etməlidir. Çünki İran heç bir zaman regiona hər hansı xarici dövlətin müdaxiləsini istəməyib. İndi İran rəsmilərinin bütün bunları bilə-bilə susqunluq nümayiş etdirməsi maraq doğurur. Yəqin ki, bu ölkənin səsi aprelin 5-də veriləcək qərardan sonra çıxacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Brüssel konfransı Ermənistana baha başa gələ bilər

**"Aprelin 5-də Brüsseldə keçirilməsi planlaşdırılan ABŞ-Aİ-Ermənistan birgə konfransında yaradılacaq hərbi pakt regionda vəziyyəti gərginləşdirməyə hesablanıb. Bu, Ermənistan üçün çox ağır nəticələnə bilər. Çünki Rusiya və İran bunu İrəvana əsla bağışlamaz. Hətta Rusiyanın mövqelərini qorumaq üçün hərbi yola əl atacağı da istisna edilmir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vahid Əhmədov deyib. Deputat bildirib ki, Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsini region dövlətləri diqqət mərkəzində saxlamalı, məsələ daxildən həll edilməlidir: "Digər dövlətləri regiona gətirmək yalnız gərginliyi artıra, yeni münaqişə ocağı yarada bilər. Konfransa gəlincə isə, Azərbaycanın iştirakı olmadan regional bir məsələ ilə bağlı bir araya toplanıb nə isə etmək qətiyyən mümkün deyil. Çünki Azərbaycan regionun aparıcı dövlətidir, Avropa ilə kifayət qədər ciddi siyasi-iqtisadi əlaqələri mövcuddur. Üstəlik, Avropa İttifaqının riyakar davranışlarına baxmayaraq, Azərbaycan Avropanın əksər ölkələrinin marağındadır. Ona görə həmin konfransda Azərbaycanın da iştirakı vacibdir".

Deputat vurğulayıb ki, Ermənistan ABŞ və Avropa İttifaqını təhlükəsizliyin zəmanətçisi hesab etməkdə yanılır: "İrəvan nəzərə almalıdır ki, onun təhlükəsizliyinə daha çox region dövlətləri və həmin dövlətlərlə yüksək əlaqələri təminat verə bilər. Görəsən, Ermənistan siyasiləri hansı ağılla bu addımı atıb, ABŞ və Avropa İttifaqı ilə birgə hərbi pakt yaratmağa qərar veriblər?!

"Ermənistanın son vaxtlar Qərbə meyillənməsi Rusiya ilə münasibətlərini gərginləşdirib. İrəvan hava limanından rus əsgərlərinin çıxarılmasına dair ultimatum verib, o cümlədən Rusiyanın daxil olduğu bir sıra böyük təşkilatlarda iştirak etməkdən imtina edib. Açıq-aşkar ortadadır ki, Ermənistanın yürütdüyü siyasət tamamilə Qərbə söykənir. Əlbəttə, burada Fransanın çox böyük rolu var. Zənnimcə, Fransanın Ermənistanı uçuruma apardığını tarix sübuta yetirəcək", - deyə müsahibimiz qeyd edib.

Vahid Əhmədov söyləyib ki, ABŞ-Aİ-Ermənistan üçlüyü hərbi paktı imzalamaqla Azərbaycana təzyiq göstərmək niyyətindədirlər: "Bu, onların dövlətimizin daxili işlərinə müdaxilə planlarının tərkib hissəsidir. Lakin Ermənistanı revanşa hazırlaşdıranların belə təxribatçı cəhdləri heç bir nəticə verməyəcək. Qafqazda ikinci cəbhənin açılması Ermənistana baha başa gəlməklə, bu ölkənin Ukraynanın taleyini yaşamasına səbəb ola bilər. Ona görə də İrəvan rəhbərliyi ağlını başına yığmalı, qonşu dövlətlərlə münasibətlərini isti tutmalı və təmaslar qurmalıdır".

Deputat yekunda ABŞ və Avropanın Ermənistanın əli ilə regionda münaqişə ocağı yaratmaq istəyinin ənənəvi xarakter aldığını qeyd edib. Bildirib ki, dövlətimiz əleyhimizə atılan addımlardan yaxşı xəbərdardır. Regionda sülhün və sabitliyin bərqərar olmasına qarşı yönəlmiş bütün cəhdlərin qarşısı vaxtında alınacaq.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Rasmussen Ermənistandan rüşvət alıb

**Danimarkanın keçmiş baş naziri, NATO-nun keçmiş baş katibi korrupsioner Anders Foq Rasmussen növbəti dəfə daimi müştərisi Ermənistandan külli miqdarda rüşvət alıb və bunun müqabilində Azərbaycana qarşı qərəzli hesabat hazırlayıb.**

Belə ki, rüşvətxor Rasmussenin rəhbərlik etdiyi "Ermənistanın Dostları Şəbəkəsi" adlı qrup tərəfindən hazırlanmış 21 mart 2024-cü il tarixli "Aİ-Ermənistan münasibətlərinin dərinləşməsi: Ermənistanda daha çox Avropa, Avropada daha çox Ermənistan" adlı hesabatda Azərbaycan əleyhinə əsassız iddialar yer alıb.

Pulgir Rasmussenin rəhbərliyi altında hazırlanan və bütün faktların təhrif olunduğu, böhtan xarakterli müddəalardan ibarət qərəzli hesabatın Azərbaycan əleyhinə aparılan qarayaxma kampaniyasının tərkib hissəsi olduğu ilk baxışdan görünür. Sözügedən çirkin hesabatın aprelin 5-də Ermənistanın baş naziri, ABŞ dövlət katibi və Avropa Komissiyasının prezidenti arasında Ermənistan üçün təhlükəsizlik zəmanətinə dair sənədin imzalanmasının da planlaşdırıldığı Aİ-Ermənistan-ABŞ müştərək konfransının keçirilməsinin nəzərdə tutulduğu vaxt ərəfəsində açıqlanması isə bir başqa sual doğuran məqamdır və bu, işin içində başqa mətləblərin olduğundan xəbər verir.

### Pullar danışır

İkinci Qarabağ müharibəsinə qədər pərdə arxasından Azərbaycana qarşı qərəzli siyasət yürüdən Qərb siyasi dairələri suverenliyimizin bərpasından sonra maskalarını çıxararaq ölkəmizə qarşı açıq hücuma keçiblər. Müxtəlif siyasi platformalar vasitəsilə ölkəmizə təzyiq göstərməyə çalışan ABŞ və Avropanın hazırda qarşısına qoyduğu vəzifə Azərbaycan ilə Ermənistan arasında normallaşmaya mane olmaq, Cənubi Qafqazda yenidən müharibə ocağı yaratmaqdır. Aprelin 5-də Brüsseldə keçirilməsi planlaşdırılan Aİ-Ermənistan-ABŞ müştərək konfransı da bu məkrli məqsədə xidmət edir.

2020-ci ildə kapitulyasiya aktını imzalayan Ermənistana Qərb təsisatları tərəfindən siyasi hərbi dəstək göstərilməsi İrəvanı sülhdən yayınmağa və müharibəyə qızışdırır. Buna görə də Qərbin maşası Ermənistan fürsətdən istifadə edərək vəziyyəti xeyrinə dəyişmək üçün hər zaman olduğu kimi, hazırda da



Qərb korrupsionerlərinin ciblərini doldurmaqla məşğuldur ki, bunların da başında rüşvətxor Rasmussen dayanır. Hər kəsə məlum olduğu kimi, NATO-nun keçmiş baş katibinin gəlir deklarasiyasına əsasən, onun müştəriləri arasında Ermənistan da var.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev NATO-nun sabiq baş katibi ilə bağlı "X"də etdiyi paylaşımında da məhz bu məqama toxunub: "NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussenin və onun ətrafının Ermənistan hökuməti və erməni lobbisi tərəfindən sifariş edilmiş və ödənişli qondarma hesabat və ya "möhürlü" təbliğat materialı mənə 4 sentyabr 2023-cü il tarixli Ermənistan Respublikasının ödəniş sənədinin də paylaşıldığı yer haqqında postumu yenidən dərc etməyimi xatırlatdı. Anders Foq Rasmussen hesabatına ödənişi əlavə etməyi unudub. Pullar danışır!"

### Bahalı və mənasız böhtan kampaniyaları

Anders Foq Rasmussenin ölkəmizə qarşı qərəzli fəaliyyətinə bundan əvvəl də şahidlik etmişik. Danimarkanın sabiq baş naziri 2023-cü ilin martında Ermənistana səfər etmiş, Azərbaycana qarşı yalan və əsassız iddialar səsləndirmiş, Avropa İttifaqının ölkəmizə qarşı sanksiyalar tətbiq etməsinin vacibliyindən dəm vurmuşdu. Amma çox keçmədən məlum oldu ki, Rasmussenin Ermənistana sözügedən səfəri də İrəvanın verdiyi pul müqabilində baş tutub.

Budur, yenə NATO-nun keçmiş baş katibi rüşvət qoxusu gələn eyni çirkin ssenarini davam etdirərək Azərbaycana qarşı qərəzli hesabat hazırlayıb. Bu hesabatın ictimaiyyətə açıqlandığı zamanın özü də xüsusi diqqət çəkir. Hansı ki hazırda Azərbaycan ilə Ermənistan arasında normallaşma üçün tarixi fürsət yaranıb. Digər tərəfdən isə qərəzli Qərb təsisatları təşkilatlanaraq Azərbaycana qarşı qarayaxma, təzyiq kampaniyasına start veriblər ki, bütün bunlar birbaşa regionda sülhə zərbə vurmaq məqsədi güdür. Eyni zamanda da başda Fransa olmaqla bəzi Qərb ölkələrinin Ermənistanı silahlandırması, ona hərbi dəstək verməsi bölgədə barışa yox, müharibənin alovlanmasına xidmət edir. Belə bir həssas dönəmdə Rasmussenin rəhbərliyi altında qərəzli hesabatın hazırlanması və açıqlanması təsadüfi deyil. Bunlar Azərbaycana qarşı ABŞ, Fransa, Aİ, AŞPA, AP kimi ölkə və qurumlar tərəfindən həyata keçirilən eyni çirkin planın tərkib hissələridir.

Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən adıçəkilən hesabatla bağlı şərhdə də vurğulanır ki, Ermənistan hökumətinin maliyyələşdirdiyi təbliğat kampaniyaları bir daha bu ölkənin regional sülh gündəmi ilə bağlı səmimi olmadığını nümayiş etdirir: "Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi Avropa təsisatları da daxil olmaqla, müəyyən dar düşüncəli siyasətçilər vasitəsilə bahalı və mənasız böhtan kampaniyalarının aparılması regional sabitliyə və sülh quruculuğu səylərinə xidmət etmir. Bunun əvəzinə, Ermənistan hökuməti və erməni lobbi qrupları regionda əsl sülh gündəminin təşviqinə diqqət yetirməlidirlər".

Göründüyü kimi, qərəzli Qərb təsisatlarının qızışdırması ilə Ermənistan sülhdən yayınır və müharibəyə hazırlaşır. Lakin nə adıçəkilən riyakar ölkə və qurumların hərtərəfli dəstəyi, eləcə də rüşvətxor rasmussenlərin qərəzli hesabatları Bakını haqlı və qəti mövqeyindən bir addım belə geri çəkindirə bilməz. Azərbaycan sülh gündəliyinə sadiqdir və bunun əksini istəyənlərin də layiqli dərsini verməyə hər an hazırdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Makronun siyasi fəaliyyəti uğursuzluq hekayəsidir

**"Fransa prezidentinin neokolonialist iddiaları və erməni sevgisi onu dünyada baş verən real siyasi proseslərdən uzaqlaşdırır. Bu gün Makron siyasi illüziya ilə məşğuldur, özünü deyəsən Napoleon hesab edir. Lakin onun Azərbaycanla bağlı radikal mövqeyi də daxil olmaqla, atdığı hər bir addım uğursuzluğa düçar olur. Əslində, "Le Fiqaro" qəzetində dərc olunan məqalə də bunu sübuta yetirir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Hikmət Məmmədov deyib. Deputat söyləyib ki, Makronun Azərbaycana və ümumilikdə Cənubi Qafqaza münasibətdə sərgilədiyi bütün cəhdlərinin nəticəsiz qalmasının fərqində olması onda daxili aqressiya yaradır: "Əslində, 2020-ci ildən başlayaraq bu günə qədər davam edən Paris-Bakı münasibətləri Makronun məğlubiyyət silsiləsidir. Elə "Le Fiqaro" qəzeti də yayımladığı məqalə ilə bunu etiraf edir. Qəzet də təsdiqləyir ki, bu günə qədər Fransanın Cənubi Qafqazla bağlı təşəbbüslərinin heç biri baş tutmayıb. Həmçinin Makronun Avropada öz ətrafına tərəfdarlar toplamaq və digər beynəlxalq aktorları Azərbaycana qarşı yönəltmək cəhdləri uğursuzluğa düçar olub. Bir sözlə, Makronun siyasi fəaliyyəti başdan-ayağa uğursuzluq hekayəsidir. Bu baxımdan, "Le Fiqaro" qəzetində dərc olunmuş məqaləni Fransa prezidentinin boşa çıxmış cəhdlərinin hesabatı adlandırmaq olar".

Deputat vurğulayıb ki, tarixin indiki mərhələsində və beynəlxalq münasibətlər sisteminin məntiqi və paradiqması kontekstində hər bir ölkə digərinə hörmət etməyi bacarmalıdır: "Dövlətlər davranışlarını beynəlxalq hüququn norma və prinsiplərinə uyğunlaşdırmalıdırlar. Qarşısındakı rəqibinə və yaxud tərəfdaşına hörmət etməyi öyrənməlidirlər. Əks təqdirdə, nəticə etibarilə dünya siyasətində Makron Fransasının vəziyyətinə düşmək qaçılmazdır".

Hikmət Məmmədovun sözlərinə görə, həm intellektual, həm siyasi təcrübə, həm də siyasi qətiyyət baxımından Makronun bütün uğursuzluqları onun Azərbaycan Prezidentinə uduzması kimi də başa düşülə bilər: "Azərbaycan rasional davranaraq, Fransanın 2020-ci ildən başlayan sərt ritorikasına qarşı özünün əməkdaşlıq əlini uzatdı. Hətta 2022-ci ildə Azərbaycanla Fransa şirkətləri arasında yeni qaz müqaviləsi imzalandı. Lakin Fransa bu reallıqları nəzərə ala bilmədi və yenidən ənənəvi ampluasında ölkəmizə qarşı koalisiya formalaşdırmağa cəhd etdi. Və yenə də uduzdu. Emmanuel Makronun bundan sonrakı cəhdləri də uğursuzluğa məhkumdur".

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

## Fransanın Cənubi Qafqaz xəyalları gerçəkləşən deyil

Uduzurlar...

Həm də bərk qorxurlar.

Əllərini hara uzadırlarsa, boşa çıxır. Nəyə ümid edirlərsə, arzuları gözlərində qalır. Bütün cəhdləri uğursuzluqla nəticələnir...

Güclərinin çatmadığını, hərtərəfli məğlub olduqlarını, aciz duruma düşdüklərini artıq özləri də dərk edirlər. Bir zamanlar tanklarını Bakıya sürəcəkləri ilə bizi təhdid edənlər indi öz vətəndaşlarını müharibə ola biləcəyi ilə qorxudurlar. Qorxduqlarını, gücsüz olduqlarını, hərtərəfli məğlubiyyətlərini etiraf edirlər...




Ermənistanın baş naziri parlamentdəki çıxışı zamanı və yerli sakinlərlə görüşdə Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin təslim edilməsinin zəruri olduğunu bildirərək deyib: "Ya kəndləri təslim edəcəyik, ya razılıq verməyəcəyik, ya da Azərbaycanla müharibə edəcəyik". O, bu dəfə guya Türkiyənin də Azərbaycan tərəfindən müharibəyə qoşulacağını vurğulamaqla sakinləri qorxutmağa çalışıb. Paşinyan, həmçinin sərhəddə Azərbaycanın əsas mövqeləri nəzarətə götürdüyünü açıqlayıb.

İstər Ermənistanın baş naziri Nikol Paşinyanın, istərsə də hakimiyyətdə təmsil olunan siyasilərin ritorikanı dəyişib "sülh" istəməsi, öz vətəndaşlarını müharibə ilə təhdid etməsi heç də səbəbsiz deyil.

Məsələ burasındadır ki, Qarabağ münaqişəsi başlanan gündən indiyədək özünü beynəlxalq müstəvidə Ermənistanın "müdafiəçisi", "vəkili", "himayədarı" rolunda göstərmək istəyən Fransa bu savaşda Azərbaycana məğlub olduğunu etiraf etməkdədir.

Yelisey sarayının tezisləri ilə işləyən "Le Fiqaro" qəzeti yazır ki, Makron ermənilərin taleyinə səmimi olaraq biganə yanaşmayan yeganə liderdir, amma Fransanın təşəbbüsləri nəticə vermir. Məsələn, ötən illər Qarabağa dair Fransanın təşkil etmək istədiyi konfrans ABŞ-nin etirazı səbəbindən baş tutmamışdı. Məqalədən məlum olur ki, 2022-ci ilin oktyabrında Makron "erməni məsələsi"ni Roma Papası ilə də müzakirə etmək istəyib və Roma Papasını ziyarət edərkən özü ilə ermənipərəst yazıçı Sylvain Tessonu da aparmışdı ki, o, Ermənistanla bağlı məsələni qaldırsın. Qəzetin yazdığından belə məlum olur ki, Emmanuel Makron Vatikandan Azərbaycana qarşı təzyiq etmək arzusunu gerçəkləşdirə bilməyib.

Baş nazir Nikol Paşinyan da bir müddət əvvəl aprel ayında Ermənistanın gələcək taleyinin təminat altına alınması məqsədilə Qərbdə önəmli qərarların qəbul ediləcəyini bildirmişdi. Sirr deyil ki, aprelin 5-də keçirilməsi planlaşdırılan ABŞ-Avropa Birliyi-Ermənistan konfransının əsas təşkilatçısı da indiyə kimi İrəvanın başına gələn bütün pisliklərin səbəbkarı olan Fransadır. 2020-ci ildə Vətən müharibəsində ağır məğlubiyyətə uğrayan Ermənistanın beynəlxalq müstəvidə himayədarı olan rəsmi Paris mövqeyindən və imkanından asılı olmayaraq siyasi meydanda ardıcıl olaraq Azərbaycana uduzub.

Ermənistanın hərbi-siyasi rəhbərliyinin tutduğu mövqe, müşahidə olunan narahatlıqlar deməyə əsas verir ki, indiyə kimi Fransanın toruna düşən Ermənistanda da anlayıblar ki, aprelin 5-də keçirilməsi nəzərdə tutulan "sülh konfransı" bu ölkənin təhlükəsizliyindən çox başlarına gələcək növbəti faciələrə səbəb olacaq.

Cənubi Qafqaza girməyə çalışan Fransa Ermənistanı üzvü olduğu KTMT-dən çıxmağa məcbur etməklə indiyə kimi müttəfiq olan iki dövlət arasında münasibətləri maksimum dərəcədə gərginləşdirməyə nail olub. Şübhəsiz ki, Ermənistana "təhlükəsizlik" təminatı verən ölkələrin növbəti addımları Ermənistana öz hərbi kontingentini yerləşdirmək olacaq. Bu isə Rusiyanın Ermənistanda da Qərb dövlətləri ilə silahlı qarşıdurması anlamına gəlir.

Göründüyü kimi, Ermənistanın "təhlükəsizliyi" yolunda "fədakarlıq" edən Fransa faktiki olaraq "müttəfiqini" sürətlə ölümə doğru sürükləyir.

Beləliklə, Ermənistanda Rusiya tətəfdarları ilə qərbpərəstlər arasında ciddi qarşıdurmanın olacağı gözlənilir. Gərginlik hətta silahlı münaqişə, vətəndaş müharibəsi həddinə də yüksələ bilər. Nəzərə alsaq ki, bu gün Rusiyada elə Ermənistanda olduğu qədər də erməniəsilli Rusiya vətəndaşı yaşayır, onda şimal qonşumuzun vəziyyəti öz xeyrinə həll etmək üçün ərazisində yaşayan erməniləri də öz vətənlərinə göndərəcəyi heç də şübhə yaratmır...

Hadisələrin gedişi onu deməyə əsas verir ki, indiyə kimi Ermənistan ərazisindən torpaqlarımıza binoklla baxan fransalı hərbçilər yaxın zamanlarda Cənubi Qafqazı yalnız xəritədə görə biləcəklər.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

## Makron qlobal arenada özünü biabır edir

### Fransa Prezidentinin Azərbaycan əleyhinə apardığı siyasət də fiaskoya uğrayır



**Azərbaycanın haqlı qələbəsini həzm edə bilməyənlər arasında təbii ki, ölkəmizə qarşı aparılan kampaniyaların baş müəllifi olan Fransa ön sıradadır. Ən çox ermənipərəstliyi ilə seçilən bu ölkə hər addımda Azərbaycanla bağlı hansısa qərəzli, ədalətsiz sənədin qəbuluna çalışır, qarayaxma kampaniyaları aparır, bununla Azərbaycanı nüfuzdan salmağa çalışır.**

Vətən müharibəsindən sonra belə kampaniyalarla fəallıq nümayiş etdirən Fransanın məqsədinə çata bilməməsi isə onu daha da qəzəbləndirir və yeni yollar axtarışına çıxır. Bununla belə, Makron hakimiyyəti öz çirkin, qərəzli siyasətindən əl çəkə bilmir. Hətta Fransa cəmiyyətinin özü belə Makronun siyasətindən narazılıq edərək onun səylərinin uğursuz olduğunu bildirir.

Son olaraq "Le Fiqaro" qəzetində yayımlanan məqalədə Makronun ermənilərin taleyinə səmimi olaraq biganə yanaşmayan yeganə lider olması, amma Fransanın təşəbbüslərinin nəticə verməməsi ilə bağlı fikirlər də əksini tapıb.

Milli Məclisin deputatı Vüqar İsgəndərov mövzu ilə əlaqədar "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycanın Vətən müharibəsindəki qələbəsi və suverenliyini tam bərpa etməsi Ermənistanla bərabər onun böyük bacısı olan Fransanı da narahat edir.

Onun sözlərinə görə, ermənidən çox erməni olmağa çalışan prezident Emmanuel Makron bu millitarist və qeyri-hüquqi siyasəti ilə yalnız Azərbaycanda və Qafqazda deyil, qlobal arenada da özünü biabır edir. "Azərbaycan qarşısında Fransanın aciz qalması, məqsədlərini həyata keçirə bilməməsi, həmçinin ölkəmizin direniş göstərməsi və beynəlxalq aləmdə Fransanın kolonialist siyasətini, qeyri-insani rəftarını, oradakı problemləri dilə gətirməsi, soyqırımı törətdiyi xalqlardan üzr istəməsini deməsi Fransanı daha çətin duruma salıb".

Vüqar İsgəndərov qeyd edib ki, Makron, əslində, erməni sevdalı olmasını zaman-zaman göstərməyə çalışır. Bunun arxasında isə ermənilərə olan sevgi deyil, daxili auditoriyaya hesablanan siyasət dayanır. Belə ki, Makronun seçicilərinin içində ermənilər çoxdur və onlarla münasibətlərini yaxşı saxlamaq, qayğılı davranmaq gələcəkdə arzularını reallaşdırmaq üçündür.

E.Makronun Azərbaycan əleyhinə siyasətinin fiaskoya uğradığını deyən deputat bildirib ki, bu, Prezident İlham Əliyevin qətiyyəti, onun dünya siyasətini incəliklərinə qədər bilməsinin hesabınadır. "Makron artıq anlayır ki, Azərbaycan milli maraqlarına söykənən siyasət həyata keçirir və onu bu yoldan heç kim, heç nə çəkindirə bilməz. Ermənistanla sülh danışıqlarında ən böyük əngəllərdən olan Fransa və prezidentinin bu siyasəti heç bir fayda verməyəcək. Makron min kilometrlərlə uzaqda yerləşən Qafqaza soxulmaq cəhdləri, Ermənistanı silahlandırmaq əvəzinə, yaxşı olar ki, Fransanın daxili siyasətindəki boşluqları görsün, böyük ölkəsinin problemlərinin həlli üçün çalışsın", - deyə deputat əlavə edib. Vüqar İsgəndərov vurğulayıb ki, Fransa prezidenti, hakimiyyəti bunu vaxtında anlayaraq bu siyasətdən əl çəkməlidir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## "Hoa Lo" həbsxanası - Fransanın Vyetnamdakı cinayətlərinin şahidi









**Müstəmləkəçilik, işğal, əsarət, istila dünya xalqlarının bir çoxunun həyatında qara səhifələr açıb. Tarixi faktlardan məlumdur ki, işğalçılar tutduqları ölkələrdə əhaliyə xüsusi işgəncələr verib, kütləvi qırğınlar, soyqırımları, insanlıq əleyhinə cinayətlər törədiblər.**



Bu cür əzablı hadisələr bir çox xalqın yaddaşında əbədi həkk olunub. Elə Vyetnam xalqı da müxtəlif dövrlərdə işğalçılardan az çəkməyib.

1859-cu ildə Hoşimin (keçmiş Sayqon) şəhərinin işğalı ilə başlayan Fransa müstəmləkəçilik dövrü Vyetnam xalqının yaddaşında acı izlər buraxıb. Ötən əsrin 50-ci illərinə qədər davam etmiş müstəmləkə dövründə fransızlar vyetnamlılara qarşı qəddarlıq nümayiş etdirib, amansız cəza metodları tətbiq ediblər. Fransa müstəmləkəçiliyi dövründə Vyetnamın başda düyü və kauçuk olmaqla, bütün sərvəti talanıb, xalq ucuz işçi qüvvəsi kimi istifadə olunub. İşğalçıların zülmü, qarəti ilə barışmaq istəməyən Vyetnam xalqı 1930-cu illərdən başlayaraq ölkənin azadlığı üçün təşkilatlanmağa başlayıb. Təbii ki, azadlıq uğrunda ayağa qalxanları müstəmləkəçilər hər yerdə təqib edir, həbs olunanların əsas hissəsini isə məhz Hanoydakı məşhur "Hoa Lo" həbsxanasına salırdılar.

AZƏRTAC-ın xüsusi müxbiri vyetnamlı azadlıqsevərlərin saxlanıldığı və onlara işgəncələrin verildiyi "Hoa Lo" həbsxanasına gedib, Fransanın Vyetnamdakı acı izləri ilə yerində tanış olub.

İlk vaxtlar həbsxanada ən çox 450 nəfər saxlamaq mümkün idi, lakin onun ərazisi genişləndirildikdən sonra bu rəqəm 600-ə çatıb. 1956-cı ildə həbsxananın bir hissəsində muzey yaradılıb. Vaxtilə vyetnamlı vətənpərvərlərin, habelə qadınların, uşaqların və qocaların saxlanıldığı təcrid otaqları, buraya salınmış şəxslərin maketləri onların əzablarını göz önündə canlandırmağa imkan verir. Fransız müstəmləkəçilər həbsxanada saxlanılanlara işgəncə və əzab vermək üçün həm "ənənəvi", həm də öz dövrünün "qabaqcıl" texnologiya və metodlarından istifadə ediblər. Onlar arasında Vyetnamın vətənpərvər oğullarının başını kəsmək üçün istifadə olunan gilyotin də var. Dünyaya mədəniyyət, demokratiya dərsi verməyə çalışan Fransanın Vyetnamdakı müstəmləkə izlərini, o cümlədən insanlıq əleyhinə və müharibə cinayətlərinin dəlillərini görəndən sonra həmin "mədəniyyət" və "demokratiya", "insan hüquqları" haqqında aydın təsəvvür yaranır.

Hər gecənin gündüzü olduğu kimi, hər işğalın da bir sonu var. Vyetnam xalqının əzmkar mübarizəsi nəticəsində Fransa məğlub olaraq bu ölkədən geri çəkilməyə məcbur oldu. "Hoa Lo" muzeyi isə Fransa müstəmləkəçiliyini, işğal dövründəki cinayətləri əks etdirən məkan olaraq hazırkı və gələcək nəsilləri məlumatlandırmaq missiyasını həyata keçirir.

Vyetnam müharibəsi dövründə isə bu həbsxanada əsir götürülmüş təxminən 2 min ABŞ hərbçisi saxlanılıb. Vyetnam xalqının onlara münasibəti o qədər mülayim olub ki, amerikalılar yarızarafatla onu "Hanoy Hilton" adlandırırdılar. Bu həbsxanada saxlanılanlar arasında amerikalı pilot, sonralar senator və ABŞ prezidentliyinə namizəd olmuş Con Makkeyn də olub.

Muzeyin ABŞ hərbi əsirlərinin saxlanıldığı dövrü əks etdirən hissəsində əsirlərin maketləri, onların şəxsi əşyaları, şəkilləri, sorğu otaqları, ABŞ ordusu tərəfindən dağıdılmış evlərin fotoları var. Muzey Hanoya gələn əcnəbi turistlərin ən çox ziyarət etdiyi məkanlardan biridir.

## Fransa dövləti və Daxili Təhlükəsizlik Baş İdarəsi məhbusu necə manipulyasiya edib?

**Fransa dövləti sonda qovulduğu bütün müstəmləkələrdə olduğu kimi, Korsikada da həmişə çirkin hiylələrə, iyrənc hərəkətlərə, eləcə də hüquqları kimi, varlığını da inkar etdiyi xalqın tələbləri qarşısında dövlət adından qurulan daimi yalanın xidmət etdiyi çoxşaxəli repressiyalara üstünlük verib.**




Beləliklə, institusional yalanlar öz azadlıqlarını bərpa etmək üçün mübarizə aparan xalqların müqaviməti ilə üzləşən bütün dövlətlərin üstünlük verdiyi silahdır.

Korsikalılar yaxşı bilirlər ki, onlar həqiqəti axtarmaq üçün uzun, çətin mübarizə aparmalı olacaqlar və həqiqəti yalnız öz axtarışları sayəsində əldə edəcəklər.

1998-ci ildə prefekt Klod Erinyakın öldürülməsinə görə ömürlük həbs cəzasına məhkum edilmiş korsikalı çoban İvan Kolonanı 2022-ci il martın 21-də Arles həbsxanasında qətlə yetirmiş Frank Elonq Abenin şübhəli versiya dəyişikliyi Korsikanı yenidən silkələyib. F.Elonq Abe bildirib ki, o, Daxili Təhlükəsizlik Baş İdarəsinin (DGSİ) agentləri tərəfindən verilən sifarişi yerinə yetirmək üçün İvan Kolonanı öldürüb. F.Elonq Abe istintaq hakiminə göndərdiyi məktubda bunu bir daha təsdiqləyib. F.Elonq Abe 2015-ci ilin noyabrından "böyük təhlükə", "qeyri-sabit" və "davamlı zorakı" davranışına görə xüsusi ciddi məhbus (DPS) kimi təsnif edilib.

Elonq Abe istintaq hakiminə göndərdiyi 4 səhifəlik məktubunda manipulyasiyanın qurbanı olduğunu deyir və külli miqdarda pul vədinə (həbsdə qalacağı hər ilə 100 min avro) uyaraq hərəkət etdiyini bildirib. "France 3" və "Corse matin" portalları bu məlumatı təsdiqləyiblər. Məktubunda o, həmin şəxslərin adını açıqlamır, ancaq DGSİ-nin strateqlərinin, yəni Daxili Təhlükəsizlik Baş İdarəsinin və Fransa dövlətinin onu manipulyasiya etdiklərini göstərir.

Korsika mətbuatının apardığı təhlillər nəticəsində məlum olub ki, əslində, hələ istintaqın əvvəlində F.Elonq Abe dinləmələrdə bunu aydın şəkildə deyib. İstintaq dinləmələrində o, İ.Kolonaya qarşı heç bir şəxsi qərəzinin olmadığını bildirib. Qeyd edib ki, İ.Kolonaya bir gün əl qaldıracağına heç vaxt inanmazdı.

Daxili İşlər Nazirliyinin sözçüsü E.Abenin etiraflarının yalan və əsassız olduğunu bildirsə də, istintaqa rəhbərlik edən müstəntiq bu məktubun istintaq işinə əlavə olunmasına qərar verib. İvan Kolonanın ailəsinin vəkili də bu məktubun mövcudluğunu öyrənən kimi dərhal reaksiya verib və "ehtiyatla qəbul edilməli olsa belə, bu məktubun istintaq işinə əlavə olunmasının vacibliyini, yeni elementlə bağlı əlavə araşdırmaların aparılacağına əminliyini vurğulayıb. İstintaqa rəhbərlik edən müstəntiq və ailə vəkili E.Abenin motivasiyasını dəqiq başa düşmək və hər şeyi aydın görmək üçün bu məktubun vacibliyini bildiriblər. Beləliklə, indiyədək aparılan istintaq terror aktı ehtimalını üzə çıxarıb və Milli Terrorla Mübarizə Prokurorluğu prosesə qoşulub.

İvan Kolonanın ölümünü araşdıran parlament komissiyası da hesabatında F.Elonq Abenin təhlükəli olmasının qiymətləndirilməsində ciddi uğursuzluqların mövcudluğunu və ona tətbiq edilən həbsxana rəftarının sərtliyini, penitensiar müəssisədəki ümumi disfunksiyanı qeyd edib.

Xatırladaq ki, hələ 2022-ci ildə İ.Kolona qətlə yetirilən zaman Fransa dövlətinin intiqam aldığı ehtimal olunurdu.

## Böyük qayıdış proqramı sürətlə icra olunur

# Füzuli şəhərində artıq 666 ailə məskunlaşıb









**Dünən Füzuli şəhəri daha bir qayıdış karvanını qarşılayıb. Martın 29-da ölkənin müxtəlif ərazilərində müvəqqəti məskunlaşmış 35 ailədən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə 138 keçmiş məcburi köçkün yurduna qovuşub.**

Ən çox qayıdış köçünün həyata keçirildiyi ərazimiz olan Füzuli şəhərində artıq 666 ailənin, 2517 nəfərin daimi məskunlaşması təmin edilib.

Baş plana əsasən, 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və yüksək həyat şəraitinin təmin edilməsi üçün müasir infrastruktur qurulur, o cümlədən orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa edilir, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri yaradılır.

Vətən müharibəsindən sonrakı müddətdə işğaldan azad edilmiş bütün ərazilər kimi, Füzuli şəhərində də genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Yurdlarına qovuşan ailələrin işlə təminatı da diqqət mərkəzindədir. Bununla bağlı müvafiq qurumlar tərəfindən lazımi addımlar atılır. Keçmiş məcburi köçkünlər üçün treninqlər keçirilir, yeni istehsal sahələri, sənaye müəssisələri yaradılır. Bu da işğaldan azad olunmuş ərazilərimizin gələcək inkişafından xəbər verir.

Azadlığa qovuşmuş ərazilərin əzəli sahibləri bu il də Böyük qayıdış çərçivəsində öz yurdlarına dönməyə davam edəcək, daha beş şəhərə - Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi və Xocalıya qayıdış baş tutacaq. 2025-ci ildə isə Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə keçmiş məcburi köçkünlərin qayıtması nəzərdə tutulub. Laçın rayonunun Sus kəndinin, Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpası planlaşdırılıb. 2026-cı ilədək Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin məskunlaşması qərarlaşdırılıb.

Bu günədək işğaldan azad olunmuş üç kəndə və iki şəhərə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib. Ümumilikdə 1523 ailə - 5991 nəfər olmaqla, 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 451 ailə (1705 nəfər) Laçın şəhərinə, 666 ailə (2517 nəfər) Füzuli şəhərinə, 211 ailə (808 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb.

Görülən işlərin miqyasından da söyləmək olar ki, Böyük qayıdış proqramı gözlənildiyindən də tez icra olunacaq. Düşməndən azad etdiyimiz ərazilərimizin tam məskunlaşmasına az vaxt qalıb. 2026-cı ilin sonunda Böyük qayıdışın birinci mərhələsi bitəcək.

Bir sözlə, otuz ildir yurdlarından didərgin salınan, Vətən nisgili çəkən, əsarət altında qalmış torpaqlarımızın azad olunması arzusu ilə yaşayan yüz minlərlə vətəndaşımız tezliklə əzəli torpaqlarına qovuşacaqlar.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Füzulidə daha 35 ailəyə mənzillərinin açarları təqdim olunub











**Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub.**

AZƏRTAC xəbər verir ki, 35 ailə olmaqla, 138 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Yeni köçən ailələrə ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman müvafiq qurumlara xəbər vermələri tövsiyə olunub. Açarların təqdim edilməsi mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşı Tural Qasımov və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq yeni evlərində məskunlaşıblar.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

## *Füzuli sakini:* "Gözəl günlərimiz bundan sonra daha çox olacaq"

**"Doğma yurduma çatmaq üçün səbirsizlənirəm. Ümid edirəm ki, gözəl günlərimiz bundan sonra daha çox olacaq".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Bakıdan Füzuli şəhərinə yola düşən keçmiş məcburi köçkün Elmira Hacıyeva söyləyib.

"Dövlətimiz bizim üçün Bakıda hər cür şərait yaratsa da, doğma torpaq məni çəkir. Doğma el-obama - Füzuli rayonuna qayıdıram. Bizə bu günləri yaşadan Ali Baş Komandan İlham Əliyevə öz minnətdarlığımı bildirirəm. Qəhrəman şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm", - deyə Füzuli sakini əlavə edib.

## *Keçmiş məcburi köçkün:* "Düşünürəm ki, artıq bütün şəhidlərimizin ruhu şaddır"

**"Çox sevinirik ki, ümidlərimiz doğruldu. Otuzillik arzumuz gerçəkləşdi. Rayonu tərk edəndə 10 yaşım var idi. Orada uşaqlığımla bağlı xatirələrim var. Onlara doğru gedirəm. Belə bir hadisəyə sevinməmək necə ola bilər?! Məncə, əsl xoşbəxtlik elə budur".**



AZƏRTAC xəbər verir ki, bu sözləri dünən Füzuli rayonuna yola düşən keçmiş məcburi köçkün Gülnarə Talıbova deyib.

"Mən bir şəhid bacısıyam, qardaşım I Qarabağ müharibəsində şəhid olub. Düşünürəm ki, artıq qardaşımın və bütün şəhidlərimizin ruhları şaddır, onların qanı yerdə qalmadı".

Keçmiş məcburi köçkün ona bu hissləri yaşadan Ali Baş Komandana, ordumuza təşəkkürünü bildirib, şəhidlərə rəhmət, ailələrinə səbir diləyib.

# "2026-cı ilə qədər 6000 keçmiş məcburi köçkünün peşə təliminə cəlb olunması nəzərdə tutulub"

**Böyük qayıdış proqramı çərçivəsində Qarabağa qayıdacaq əhalinin peşə təlimi və təhsilə cəlb edilməsi ilə bağlı böyük hədəflər müəyyənləşdirilib. 2026-cı ilə qədər 6000 vətəndaşın, yəni keçmiş məcburi köçkünün peşə təliminə cəlb olunması nəzərdə tutulub. Bunu AZƏRTAC-a müsahibəsində Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov deyib.**



"Bizim yanaşmamız ondan ibarətdir ki, vətəndaşlar doğma yurdlarına qayıtmamışdan əvvəl biz onlara maraqlarına uyğun ixtisaslar üzrə təlim keçək. Biz artıq bu fəaliyyətə başlamışıq. Gəncədə, Mingəçevirdə, Qəbələdə məskunlaşan keçmiş məcburi köçkünlər artıq 20-yə yaxın istiqamətdə təlimlərə cəlb olunmaq üzrədir. Bu il ərzində biz ölkənin demək olar ki, bütün regionlarında yaşayan keçmiş məcburi köçkünlərin ehtiyaclarını müəyyənləşdirib onları 2026-cı ilə qədər mərhələli şəkildə təlimlərə cəlb edəcəyik", - deyə C.Kərəmov bildirib.

# Naxçıvandan olan şəhid ailələrinin üzvləri Şuşaya səyahət ediblər







**Qarabağ bölgəsinə səfər edən Naxçıvandan gəlmiş şəhid ailələrinin üzvləri Şuşa şəhərində olublar.**

AZƏRTAC xəbər verir ki, şəhid ailələrinin üzvləri Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın zəngin tarixi, mədəni irsi, şəhərdə aparılan quruculuq və bərpa işləri ilə tanış olub, Cıdır düzünə gediblər. Həmçinin Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini, Şuşanın tarixi-mədəni abidələrini, Yuxarı Gövhər ağa məscidini, Şuşa qalasını ziyarət ediblər.



Şəhid ailələri Xocavənd rayonuna da səfər edəcək. Səfər Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi tərəfindən təşkil olunub.

# Cəmiyyətin Ermənistan işğalı altında olan kəndlərin azad ediləcəyi ilə bağlı gözləntisi yüksəkdir

**Sosial Tədqiqatlar Mərkəzi Azərbaycan ilə Ermənistan arasında sərhədlərin dəqiqləşməsi prosesi çərçivəsində hazırda Ermənistan işğalı altında olan Qazax rayonunun 7 kəndinin və Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndinin təhvil verilməsi məsələsinin aktuallığını nəzərə alaraq, vətəndaşların bu barədə gözləntilərinin öyrənilməsi məqsədilə sorğular keçirib.**

Respondentlərə "Ermənistanın işğalı altındakı kəndlərin yaxın gələcəkdə azad ediləcəyinə inanırsınızmı" sualı ünvanlanıb.

Sosial Tədqiqatlar Mərkəzindən AZƏRTAC-a bildirilib ki, sorğu nəticələrinə əsasən, cəmiyyətin Ermənistanın işğalı altında olan kəndlərin azad ediləcəyi ilə bağlı gözləntisi yüksəkdir. Belə ki, respondentlərin mütləq əksəriyyəti - 95,8 faizi Ermənistanın işğalı altındakı kəndlərin yaxın gələcəkdə azad ediləcəyinə inandığını, 3,6 faizi inanmadığını bildirib, 0,6 faizi bu barədə fikir bildirməkdə çətinlik çəkib.

Qeyd edək ki, Azərbaycanın Qazax rayonunun Sofulu, Bərxudarlı, Bağanis Ayrım, Qızıl Hacılı, Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrimli kəndləri və Naxçıvan MR Sədərək rayonunun Kərki kəndi Ermənistan tərəfindən 1990-1992-ci illərdə işğal edilib. İşğal altında olan bu 8 kəndin 4-ü Azərbaycanın eksklav əraziləridir.

Sorğular martın 15-18-də 18 yaşdan yuxarı 390 respondent arasında kompüter dəstəkli telefonla müsahibə üsulundan (CATI) istifadə olunmaqla keçirilib. Seçmə ehtimallı üsulla ölkə üzrə əhalinin paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. 12 iqtisadi rayon seçmə çərçivəsində əhatə olunub. Təsadüfiliyi təmin etmək məqsədilə sözügedən iqtisadi rayonlar üzrə inzibati rayon və şəhərlərə aid telefon nömrələri müvafiq məlumat bazasından xüsusi proqram vasitəsilə sistemli üsulla seçilərək zənglər olunub.

Sorğularda anonimlik təmin olunub. Respondentlərə sorğunun könüllü iştirak əsasında aparıldığı və nəticələrin yalnız ümumiləşdirilmiş formada istifadə olunacağı barədə zəruri məlumatlar çatdırılıb. Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı 95 faiz əminlik intervalında 5 faiz təşkil edir.

# "N" hərbi hissəsində komanda-qərargah təlimi keçirilib

**Müdafiə nazirinin 2024-cü il üçün təsdiq etdiyi hazırlıq planına uyğun olaraq, "N" hərbi hissəsində komanda-qərargah təlimi keçirilib.**





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, həmin plana uyğun olaraq təlimə cəlb olunan bölmələr müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilib, ehtiyat və təyinat rayonlarına çıxarılaraq idarəetmə orqanlarının ərazidə açılması və maskalanması təmin edilib.

Təlimdə tapşırıqların icrası ilə bağlı fəaliyyətlər xəritə üzərində dəqiqləşdirilib, yaranmış taktiki şəraitə uyğun olaraq qəbul edilmiş qərarlara dair məruzələr dinlənilib.

Bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin idarəetmə qabiliyyətinin və çevik qərar qəbuletmə bacarıqlarının artırılması, eləcə də qərargahların fəaliyyətinin və bölmələr arasında qarşılıqlı əlaqənin daha da təkmilləşdirilməsi məqsədilə keçirilən komanda-qərargah təlimində qarşıya qoyulmuş tapşırıqlar uğurla yerinə yetirilib.

# İŞİMİZ, GÜZƏRANIMIZ




## Sərmayə varsa, inkişaf da var

### Cari ilin iki ayında əsas kapitala 2,6 milyard manatdan çox investisiya qoyulub

**Dünya iqtisadiyyatında vaxtaşırı qlobal böhranların baş verməsi məlum faktdır. Bir dövr iqtisadiyyatda durğunluq və geriləmə baş verir, məhsul istehsalı azalır, insanların sosial vəziyyəti pisləşir. Aradan bir müddət ötdükdən sonra isə yenidən sürətli inkişaf dövrü başlayır.**

Sovetlər birliyi dönəmində kommunist ideoloqları bunu iqtisadi tərəfdən yox, siyasi mövqedən izah edirdilər. Hər şeyin "mənfur kapitalizm"in liberal iqtisadiyyatı nəticəsində baş verdiyi deyilir, bu işdə birbaşa "kapitalist ölkələri" günahlandırılırdı. Əks cəbhədə olan iqtisadçılar isə bunun normal iqtisadi proses olduğunu bildirirdilər.

Artıq bir-biri ilə mübarizə aparan iki siyasi sistem yoxdur. Demək olar, bütün dünya sərbəst bazar iqtisadiyyatı modelinə keçib. Bir-birini dünya iqtisadi böhranına səbəb olmaqda suçlamanın siyasi-ideoloji əsası da aradan qalxıb. Ancaq iqtisadi böhranlar zaman-zaman davam edir.

Hazırda dünya iqtisadiyyatında özünü göstərən çətinliklərdə liberal iqtisadiyyatın günahı yoxdur. Əgər ötən əsrin əvvəllərindəki qlobal iqtisadi böhranlar iqtisadi qanunlara görə baş verirdisə, indi əksinədir. Bu gün dünya iqtisadiyyatına əsassız siyasi müdaxilələr nəticəsində bir durğunluq yaşanır və onun tam qlobal böhrana çevrilməsi an məsələsidir.

Məlumdur ki, dünya iqtisadiyyatının aparıcı qüvvəsi inkişaf etmiş ölkələrdir. Bu ölkələr yüksək texnologiyaların istehsalata tətbiqi sayəsində iqtisadiyyatda böyük uğurlar qazanırlar. Bununla belə, Asiyada da bir çox ölkələr Qərbin dəstəyi ilə öz iqtisadiyyatlarını inkişaf etdirə bilmişlər. Çin və "Asiya pələngləri" adlanan ölkələr buna misal ola bilər. İndi iş o yerə çatıb ki, həmin ölkələr ucuz işçi qüvvəsindən və xammaldan istifadə edib Qərbə meydan oxuyurlar. Son 10-20 il ərzində Çin iqtisadiyyatındakı yüksək inkişaf tempi ona gətirib çıxarıb ki, o, istehsal və iqtisadi gücünə görə tezliklə ABŞ-ni geridə qoyacaq. İndi baş verən Rusiya-Ukrayna müharibəsi və Çini cilovlamaq üçün ABŞ başda olmaqla Qərbin gördüyü əngəlləyici tədbirlər bunun qarşısını almağa hesablanıb. Bu rəqabətdən qalib çıxmaq üçün Qərb tərəfindən tətbiq edilən sanksiyaların nəticəsində dünya iqtisadiyyatındakı geriləmə qlobal böhranın başlamasına qədər gəlib çatıb.

Əsas məsələ odur ki, bu prosesin nə vaxt və necə bitəcəyi barədə heç bir fikir yoxdur. Hazırda bir çox dövlətlər belə vəziyyətdən fərdi qaydada çıxış yolu tapmağa çalışır. Azərbaycan da bu sıradadır. Çünki iqtisadiyyatımız dünyaya açıqdır və ətrafda baş verən hadisələr ölkəmizə də təsirsiz ötüşmür.

Hazırda qlobal iqtisadiyyatda baş verən geriləmənin əsas səbəbi siyasi çəkişmə nəticəsində kapital qoyuluşunun aşağı düşməsidir. Məlumdur ki, kapitallaşma iqtisadiyyatın qan damarıdır və onun kəsilməsi iqtisadi böhrana təkan verən əsas amillərdən biridir. Bu üzdən ölkəmizdə iqtisadi və sosial sahələrin investisiyalaşmasının dövlət tərəfindən həyata keçirilməsi uğurla davam edir.

Prezident İlham Əliyev iqtisadiyyatı çətin durumdan qurtarmağa xüsusi önəm verən dövlət başçılarındandır. Biz buna koronavirus pandemiyası zamanı şahid olduq. Azərbaycan iqtisadiyyatını qorumaq üçün dövlət və özəl sektorlara ciddi maliyyə dəstəyi verildi ki, istehsal dayanmasın, müəssisələr fəaliyyətlərini davam etdirsin. Belə də oldu. Azərbaycan iqtisadiyyatı koronavirus pandemiyasından minimum itki ilə çıxdı.

İndi də Prezidentin birbaşa təşəbbüsü ilə dünyada baş verən ciddi geosiyasi mübarizədən qaynaqlanan çətinliklərin aradan qaldırılmasına dövlət dəstəyi davam edir. Təkcə 2023-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 20 milyard 296,6 milyon manat və ya 2022-ci illə müqayisədə 9,8 faiz çox vəsait yönləndirilmişdir. Yatırılan ümumi sərmayənin 56,1 faizinin dövlətə məxsus olması o deməkdir ki, dövlət birbaşa iqtisadi və sosial sahələrin investisiyalaşmasını öz üzərinə götürmüşdür.

İqtisadi və sosial sahələrə kapital qoyuluşu cari ildə də davam edir. Bu ilin yanvar-fevral aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2 milyard 638,1 milyon manat və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,5 faiz çox investisiya qoyulmuşdur. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, hesabat dövründə yatırılan ümumi sərmayənin 60,5 faizi dövlət, 39,5 faizi qeyri-dövlət sektorları tərəfindən yatırılmışdır. Cari ilin ilk iki ayında iqtisadiyyata qoyulan kapitalın 80,4 faizi daxili mənbələr hesabına formalaşmışdır.

Ötən ayların statistik göstəricilərinə diqqət yetirdikdə görürük ki, dövlət bu il də ölkə iqtisadiyyatına ciddi investisiya qoyuluşuna hazırlaşır. Bu isə o deməkdir ki, ölkəmiz cari il də iqtisadiyyatın kapitallaşmasında xarici sərmayənin ümidinə qalmayacaq. Daxili mənbələr hesabına iqtisadiyyatın yüksək səviyyədə investisiyalaşdırılması ilin sonunda iqtisadi inkişafa nail olmağa imkan yaradacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Moskvada MDB İqtisadi Şurasının iclası keçirilib



**Dünən Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) İqtisadi Şurasının 101-ci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda ölkəmizi Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib.**

MDB İqtisadi Şurasının sədri, Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçukun sədrliyi ilə keçirilən iclasda nümayəndə heyətlərinin rəhbərləri iqtisadi əməkdaşlığın müxtəlif sahələrini əhatə edən məsələləri müzakirə ediblər. Gündəliyə kimya sənayesində əməkdaşlığın inkişafı, məhsul və xidmətlərin keyfiyyəti sahəsində nailiyyətlərə görə 2023-cü il MDB mükafatının verilməsi, qarşılıqlı ticarətdə maneələr, azad ticarət zonası və sair məsələlər üzrə danışıqların başlanmasının mümkünlüyü daxil edilib.

Tədbir iştirakçıları, həmçinin Regionlararası və Transsərhəd Əməkdaşlıq Şurasının fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparıblar.

İclasda MDB orqanlarının maliyyələşdirilməsi, o cümlədən Birliyin iştirakçısı olan dövlətlərdə sığorta xidmətləri bazarının inkişafı, Müstəqil Dövlətlər Birliyinin 2030-cu ilə qədər olan dövr üçün İqtisadi İnkişaf Strategiyasının yerinə yetirilməsinə dair bir sıra məsələlərə baxılıb.

İqtisadi Şuranın növbəti iclasının 2024-cü il iyunun 21-də Moskvada keçirilməsi planlaşdırılır.

## DOST TV fəaliyyətə başlayır

**Aprelin 2-dən Azərbaycanda ilk sosial televiziya nümunəsi olaraq DOST TV - internet televiziyası fəaliyyətə başlayacaq.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin internet resursu olan DOST TV yayım konsepsiyasında əsasən əmək, məşğulluq, sosial müdafiə və sosial təminat mövzuları əhatə olunacaq.

DOST TV izləyicilərinə sosial yeniliklər, islahatlar, yeni layihələr, qanunvericilik və sosial hüquqlar, dövlət sosial xidmətləri barədə dolğun məlumatları çatdıracaq.

Yeni TV izləyiciləri ilə birbaşa təmasda, canlı yayım rejimində çalışacaq. Profilinə uyğun informativ xarakterli verilişləri yayımlamaqla yanaşı, sosial şəbəkə istifadəçilərinin sosial məsələlərlə bağlı sualları da nazirlik rəsmilərinin iştirakı ilə birbaşa cavablandırılacaq.

Digər dövlət qurumları, vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlıqda fəaliyyət göstərəcək DOST TV həmin qurumların, QHT nümayəndələrinin, ekspertlərin iştirakı ilə sosial mövzularda təhlil və diskussiyalara, müzakirələrə də daim açıq olacaq.

## Yeni Texniki Komitə yaradılıb

**"Elektroenergetika və bərpaolunan enerji" standartlaşdırılması üzrə yeni Texniki Komitə (AZSTAND/TK 46) yaradılıb, əsasnaməsi və strukturu təsdiq edilib.**

Texniki Komitə elektrik enerjisi bazarında rəqabət mühitinin formalaşdırılması, elektroenergetika subyektlərinin səmərəli fəaliyyətinin təmin edilməsi, elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadənin stimullaşdırılması, enerji resurslarından səmərəli istifadə və enerji effektivliyinin təmin edilməsi kimi sahələrdə normativ sənədlər bazasının yaradılmasında maraqlı tərəflərin iştirakını təmin etmək məqsədi daşıyır.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən təsis edilmiş Texniki Komitəyə sədrlik və katibliyin fəaliyyətinin təşkili Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən həyata keçirilir.

## Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi üzrə komissiyanın iclası olub

**Energetika Nazirliyində "Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə yaradılmış komissiyanın növbəti iclası keçirilib.**

Komissiyanın sədri energetika naziri Pərviz Şahbazov çıxış edərək sərəncamın icrası ilə bağlı gündəlikdə duran məsələlərə diqqət çəkib, sonuncu iclasdan ötən dövr ərzində layihələrin gedişi haqqında danışıb və "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində dörd yeni bərpaolunan enerji stansiyasının təməlinin qoyulmasının planlaşdırıldığını vurğulayıb.

Sonra iclasın gündəliyinə uyğun olaraq komissiyanın son iclasından ötən dövr ərzində görülmüş işlərə dair katibliyin hesabatı dinlənilib. Dənizdə külək enerjisi layihələri üçün ayrılması nəzərdə tutulan su obyektlərinin bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi prosesi barədə məlumatlar təqdim edilib.

İclasda həmçinin "Masdar" şirkəti ilə həyata keçirilən layihələrlə əlaqədar görülən işlər, hidrogen istehsalı, eləcə də "Xəzər-Aİ yaşıl enerji dəhlizi" layihəsi ilə bağlı yerinə yetirilən tədbirlər və digər cari məsələlərə dair müzakirələr aparılıb.

İclasda Energetika, Ekologiya və Təbii Sərvətlər, İqtisadiyyat, Fövqəladə Hallar, Maliyyə, Ədliyyə, Kənd Təsərrüfatı, Rəqəmsal İnkişaf və Nəqliyyat, Müdafiə nazirliklərinin, SOCAR, "Azərenerji" ASC, "Azərişıq" ASC, Mərkəzi Bank, Dövlət Dəniz və Liman Agentliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, Geodeziya və Kartoqrafiya Agentliyi, Minatəmizləmə Agentliyi, "Azərbaycan Elmi-Tədqiqat və Layihə Axtarış Energetika İnstitutu" MMC-nin nümayəndələri iştirak ediblər.

## Azərbaycan BAF-ın konfransında təmsil edilib

**Azərbaycan Kosmik Agentliyi - "Azərkosmos" ASC-nin İdarə Heyətinin sədri Samədin Əsədovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Beynəlxalq Astronavtika Federasiyasının (BAF) "Yaz toplantıları" konfransında iştirak edib.**




Bu barədə AZƏRTAC-ın yaydığı məlumata görə, konfransda qeyd olunub ki, ötən il Bakıda keçirilmiş 74-cü Astronavtika Konqresi elm, sənaye, biznes, texnologiya və innovasiya fəaliyyətini birləşdirən ilk konseptual tədbirlərdən biri kimi yaddaşlarda qalıb. Bildirilib ki, dünyanın 130-dan çox ölkəsindən 5400-dən çox iştirakçı, o cümlədən 30-dan çox sponsor və 150-yə qədər sərgi iştirakçısı ilə baş tutan Bakı Konqresi qlobal kosmos oyunçuları üçün beynəlxalq əlaqələr baxımından əvəzsiz fürsət oldu.

Xatırladaq ki, Azərbaycan İtaliyanın Milan şəhərində keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə təqdim olunan elmi məqalələrin sayına görə top beşlikdə yer tutaraq rekord nəticə qazanıb. "Ümumilikdə isə Bakı Konqresinin yaratdığı yüksəksəviyyəli tədbir standartı sayəsində dünyada builki Astronavtika Konqresinə maraq artıb və bunun sayəsində 106 ölkədən ümumilikdə 7000-dən çox elmi məqalə təqdim edilib", - deyə məlumatda qeyd olunub.

## Suyu torpağın qanı da adlandırmaq olar

### Meliorasiya və su təsərrüfatında görülən işlər nikbin proqnozlara əsas verir



**Əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəməyin əsas yollarından biri də torpağın məhsuldarlığının artırılmasıdır. Bu isə bir sıra aqrotexniki tədbirlərlə yanaşı, suvarma işlərinin düzgün və vaxtında təşkil edilməsindən asılıdır. Su təsərrüfatı düzgün qurulmasa, ondan vaxtında və səmərəli istifadə edilməsə, meliorasiya və irriqasiya işləri gözlənilən nəticəni verməz.**

Azərbaycan qədim suvarma əkinçiliyi diyarıdır. Zaman-zaman əkinçiliyin inkişafı suya olan tələbatı artırıb. Belə olan halda suvarma suyunun düzgün bölüşdürülməsi və onun idarə edilməsi meydana çıxmağa başlayıb. Hazırda suvarmada ən müasir texnologiyalardan istifadə olunur, innovasiyalar tətbiq edilir.

Ölkə üzrə kənd təsərrüfatında istifadəyə yararlı olan 4 milyon 500 min hektar torpaq sahəsindən 3 milyon 200 min hektarı əkinçilik üçün suvarma tələb edən sahələr olduğu üçün Azərbaycanda böyük meliorasiya və su təsərrüfatı kompleksi yaradılıb. İri su anbarları, hidroqovşaqlar, suvarma və kollektor-drenaj sistemləri, nasos stansiyaları və digər obyektlər tikilib istifadəyə verilib, suvarılan torpaqların ümumi sahəsi 2,6 dəfədən çox artıb. Kənd təsərrüfatı məhsullarının istehsalı əsasən mühəndis-texniki meliorasiya və irriqasiya sistemləri ilə təchiz edilmiş minlərlə hektar suvarılan torpaqlarda cəmləşdirilib. İstehsal olunan məhsulun çox hissəsi suvarılan torpaqlardan götürülür.

Vaxtilə suvarılan sahələrin 128 min 800 hektarı işğal altında idi. Ermənilər 30 il ərzində 6426 kilometr suvarma və 330 kilometr kollektor-drenaj şəbəkəsini, 88 nasos stansiyasını, 1429 subartezian quyusunu, 2 hidroqovşağı yararsız hala salmışlar. Odur ki, bu gün Qarabağ və Şərqi Zəngəzurun meliorasiya və su təsərrüfatında ənənəvi suvarma üsullarını damcı və çiləmə kimi texnologiyalarla əvəzləmək üçün işlər aparılır.

Ümumilikdə ötən il Azərbaycanda suvarılan torpaqların deqradasiyasına (şorlaşma, şorakətləşmə, erroziya, bataqlaşma və s.) qarşı mübarizə məqsədilə suvarılan torpaqlarda şorlaşmanın, qrunt sularının səviyyəsinin və minerallaşma dərəcəsinin dəyişməsi üzərində nəzarət işləri aparılıb. Suvarılan torpaqların meliorativ vəziyyəti qiymətləndirilib, meliorativ tədbirlər tələb edən torpaqlar müəyyənləşdirilib, irriqasiya və meliorasiya sistemlərinin istismarı həyata keçirilib. Su anbarlarında 2020-ci ilə nisbətən 3,9 milyard, 2022-ci ilə nisbətən isə 2,2 milyard kubmetr artıq həcmdə su toplanıb ki, bu da su qıtlığı şəraitində əkin sahələrinin su təminatına öz müsbət təsirini göstərməklə yanaşı, cari ilin suvarma mövsümü üçün nikbin proqnozlar verir.

Suvarma və kollektor-drenaj şəbəkələrində 52,4 milyon kubmetr həcmində (39,2 milyon kubmetr suvarma, 13,2 milyon kubmetr kollektor-drenaj şəbəkəsi) lildən təmizləmə işləri aparılıb. Torpaq məcralı kanalların 58 kilometr hissəsi beton üzlüyə alınıb, 2,9 min hidrotexniki qurğu, 6,4 min subartezian quyusu, 291 nasos stansiyası əsaslı və cari təmir edilib. Cay məcralarında 10,4 milyon kubmetr həcmində məcratəmizləmə işləri görülüb. Bundan başqa, 946 kilometr şaxdaş və faşın, 1,1 min kubmetr qabion, 16,5 min kubmetr həcmində daş-beton bəndlərdə təmir işləri yerinə yetirilib.

2023-cü ildə suvarılan torpaq sahələri suvarma suyu ilə təmin edilib. Ölkə üzrə bütün kənd təsərrüfatı bitkiləri 1465,5 min hektar sahədə orta hesabla 3,4 dəfə suvarılıb. Dənli bitkilər 559,6 min hektarda 2,4 dəfə, pambıq 94,8 min hektarda 3,6 dəfə, tütün 2,7 min hektarda 4,5 dəfə, yem bitkiləri 422,9 min hektarda 3,5 dəfə, bostan-tərəvəz bitkiləri 67,7 min hektarda 6,2 dəfə və həyətyanı sahələr 146,3 min hektarda 5,4 dəfə suvarılıbdır. 2024-cü ilin məhsulu üçün taxıl sahələri arat və səpindən sonra suvarma suyu ilə təmin olunub. Həmin əkinlər 481,7 min hektarda 0,8 dəfə suvarılıb. Bütün suvarma mənbələrindən 9,85 milyard kubmetr su götürülüb, su istifadəçilərinə isə 7,23 milyard kubmetr su verilib.

Meliorasiya və irriqasiya sistemlərinin istismarı, bu istiqamətdə təmir-bərpa işlərinin görülməsi, eləcə də kənd təsərrüfatı bitkilərinin suvarma suyuna olan tələbatının təmin edilməsi, suvarılan torpaq sahələrinin meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə davam edir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 18 fevral (Çərşənbə axşamı günü) tarixli 116-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 17 cəmadiyələvvəl sənə 1337.
18 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir.

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## BAKI MÜSƏLMAN CƏMİYYƏTİ-XEYRİYYƏSİ TƏRƏFİNDƏN BAKI ƏHALİSİNƏ XİTAB

Möhtərəm əhali! Tarixi-bəşərdə misli görünməmiş və heç bir zihəyatın [canlının] ağıl və zehninə gəlməyən və beş ildən bəri bütün dəhşət və şiddəti ilə davam edən qanlı Avropa müharibəsinin aləmi-bəşəriyyətə vurduğu zərbələr, dağıtdığı xanimanlar, yıxdığı evlər, viran etdiyi vilayətlər hər bir kəsə məlum və aşkardır. Çünki hər kəs tam beş sənə bu cigərsuz [ciyər yandıran, qəmli] hadisələrin şahidi-güvahı [canlı şahidi] olmuş və bir nəfər tapılmaz ki, bu ümumi müsibətdən yaxasını qurtarıb, bu bəlaya giriftar olmasın. Müharibənin törətdiyi fənalıqlar və bu müharibənin nəticəsi olaraq bu günə kimi müşahidə etdiyimiz vaqeələr, əlbəttə, tarixi-aləmin ən qaranlıq səhifəsini işğal edəcəkdir. Bu müharibə və bu inqilabi-əzim [böyük inqilab] vətənimizin əhvalına təsirsiz qalmadı. Keçən il mart ayında şahid olduğumuz hadiseyi-əlimə [kədərli hadisə], neçə minlərlə müsəlmanların fəlakəti, bir çox evlərin dağılması, imarəti-Xeyriyyənin [Xeyriyyə binasının] yanması, bəzi şəhərlərin və bir çox kəndlərin atəşlə viran və xarabazar olması, bir çox əhali ailələrini arxasına alıb da diyari-qürbətə düşməsi xatirdədir. Minlərlə əhali soyuğun, aclığın və mərəzin dəhşətindən həlak oldular. Şimdi müharibə qurtarmış, lakin vətənimizdə topsuz, tüfəngsiz aclıq, qəhətlik və mərəz müharibəsi başlanmışdır. Bu qədər çəkmiş olduğumuz ümumi bəlalardan bir qədər nəfəs almaq istərkən yenə həman müharibənin nəticəsi olaraq aclıq və qəhətlik bəlasına da düçar olduq. Nə qədər insanlar yatalaq xəstəliyindən fövt [məhv] olur. Şübhə yoxdur ki, bu kimi mərəzlərin intişarına [yayılmasına] həman qəhətlik səbəbdir. İnanınız ki, şəhərimizdə, yəni bu neft mənbəyində bu qədər sahibi-sərvətlərin [varlıların] olduğu məkanda acından həlak olanlar vardır. Biliniz ki, naz və nemət içində bəslənmiş olan bir çox ailələr bu gün quru çörəyə belə möhtacdırlar. Şahid olunuz ki, həyasından əl açmağı özlərinə həqarət bilən insanlar aclıqdan həlak olurlar. Böylə zamanda, böylə ağır günlərdə millətin sərvətli qismi öz ac və fəlakətzədələrinə müavinət [kömək] etməlidirlər. Hərgah, millətin böylə düşkün və böylə pərişan zamanında səxavət əlləri onlara tərəf uzadılmasa, böyük müsibətlərə təkrarən düçar olmamız mümkündür. Böylə ümumi bəla intişar tapdığı bir vaxtda hər kəs öz iqtidarına görə həmiyyət edib də öz aclarının, öz düşkünlərinin halına qalmalıdırlar. İştə, mart hadiseyi-əliməsindən sonra fəaliyyətini tərkə məcbur olan Müsəlman Cəmiyyəti-Xeyriyyəsi yenidən işə başlayır. İqtidarı yetdiyi qədər füqəranın dərdinə qalacaqdır. Düşkünlərin siyahısını tutmaqdan ötrü lazımi tədbirlər ittixaz olunur [tədbirlər görülür]. Cəmiyyəti-Xeyriyyə işə başlarkən, əlbəttə sahibi-sərvətlərin, sahibi-xeyratların və camaatın həmiyyətinə güvənir. Camaat! Fəqirlər amangahı olan bu cəmiyyətə müavinət edilməsə, cəmiyyətin əlindən bir şey gəlməz. Ona görə də cəmiyyət işbu xitabnamə ilə möhtərəm əhaliyə müraciət edərək, düşkünlərə və acizlərə müavinət edən bu cəmiyyətə həmiyyət əlini uzatmalarını tövsiyə edir.

Haydi, vətəndaşlar, həmiyyət günüdür! Füqaraya, düşkünlərə, məsum tifillərə böylə ağır günlərdə müavinət ediniz.

*Sədri-məclis [Məclis sədri]: Qasım Qasımov.*
*Əza [üzvlər]: Müftüyi-Azərbaycan [Azərbaycan müftisü] Mustafa əfəndi [Əfəndizadə]; Şeyxülislam axund Molla Ağa Ağaalizadə; Bakı qazısı axund molla Əbdürrəhim Hadizadə; Axund Mirməhəmmədkərim Mircəfərzadə; İsmayıl bəy Səfərəliyev; Əsədulla Əhmədov; Mirzə Əsədullayev; Qəni Məhəmmədov; Musa bəy Əmircanov; Yusif Mehdiyev; Abbas Eyvazov.*
*Katib: Mehdi bəy Hacınski.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 10-uncu iclas

*(Keçən nömrədən məba'd)*

**Məlikaslanov [Xudadad bəy]** (Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri) - Ticarət və Sənaye naziri burada olmadığından bir məsələ haqqında mən bir qədər məlumat vermək istərəm. Qara bəy [Qarabəyli] yeni təşəkkül etmiş olan bürodan bəhs etdi. Onun sözündən belə çıxır ki, guya məzkur [adı keçən] büro heç bir işə lazım deyilmiş və onun mənfəəti yoxmuş. Fəqət, natiq bu məsələyə birtərəfli baxır. Amma mən ərz edirəm ki, büronun mənfəəti vardı. Vardır da; ancaq bu mənfəəti xalq hiss etməyir, görməyir. Məzkur büronu Neft Mədənçiləri Sovet Syezdi təşkil etmişdir və hökumət bunu bilir, özü də razı olmuşdur. Onun təşkilindən məqsəd budur ki, bütün neft bir yol ilə, bir qayda ilə, bir əldən satılsın. Çünki satış sərbəst olub neft ixracı üçün hamıya izin verilsə, o halda işlər düz getməz. Söz burasındadır ki, hal-hazırda Bakıda neft çox-çoxdur və mədənçilərin pula çox ehtiyacı var. Hətta o qədər ehtiyac var ki, bu saat hökumət onlara pul ilə kömək edir; etməsə heç biri mədəni işlədə bilməz, fəhləyə maaş verə bilməz. Bundan dolayıdır ki, əgər neft satışında sərbəstlik olsa görərsən bir mədənçinin pula ehtiyacı oldu, gətirdi neftin qiyməti 5-6 manat ikən o satdı üçdən bir qiymətə. Bu surətdə ucuz qiymətlə külli miqdarda neft satılsa, məmləkətin sərvəti hədər olar. Digər tərəfdən sizə bildirməliyəm ki, o neftin həpsi mədənçilərin deyil, üçdən bir hissəsi hökumətindir. Ona görə hökumət neftin dağılmasına heç vaxt razı ola bilməz. İştə böylə şeyləri mülahizə edərək hökumət büronun təşkilinə razı olmağa məcbur idi. Fəqət, bununla bərabər hökumətin fikri var, büronu bir qədər dəyişsin, qiymət və sairəyi islah etsin. Çünki neft işində bəzi qeyri-məmul [arzuedilməz] şeylər oldu.

**Rəsulzadə M. Əmin** - Bir məsələ üzərində çox mübahisələr edildi. Mən də istər-istəməz nitqimi o məsələyə qaytarmağa və cüzi də olsa ondan təkrar bəhs etməyə lüzum görürəm. Çünki arada bəzi sui-təfəhhüm [yanlış anlaşılma] vardır; onları izah etmək məcburiyyətindəyəm. Ağamalıoğlu türklər haqqındakı danışığında "Müsavat"ı da əlaqədar tutdu. Keçən nitqimdə mən, sosialistlər türklərin düşmənidir deməmişdim, mənim sözlərimdən böylə bir məna da çıxarılmazdı. Fəqət, möhtərəm Əhməd Pepinov cənabları kəndi nitqlərində uzun-uzadı bu xüsusdan bəhs edərək hətta alicənab türk şairi Məhməd Əmin bəy [Yurdaqul] cənablarının şeirindən tərcüməni olaraq ən dərin guşələrindən qopub gələn hissiyyatlarını misal gətirib, o möhtərəm şairin sərih [təmiz] vicdanına sığınaraq kəndilərini [özlərini] müdafiəyə qalxışdı. Fəqət, buna hacət belə yoxdu. Çünki sosialistlər xalq tərəfdarı olduqları üçün heç bir millətə düşmən olmadıqları kimi türklərə də düşmən olmazlar. Zatən böylə olmasaydı, sosialist də olmazdılar; bütün dünya beynəlmiləliyyatini müdafiə etməzdilər. İştə bu nöqteyi-nəzərdən əfkar və səmimiyyətlərinə bütün mövcudiyyətimlə qətiyyən inandığım sosialistləri bu fikirdə təsvir etməzdim. Fəqət, ortada bir yanlışlıq görülür ki, bu da türklərin dəvət edilməsi məsələsindədir.

Əvət, bir millət müşkül vəziyyətdə qaldıqda bir qonşusuna müraciət edər; yardım, imdad istər. O qüvvə, təbii o millətin fəhlə və əkinçiləri deyil, mütəşəkkil və müntəzəm əsgəri olacaqdır. Bu surətlə bir qüvvə tələb edilərsə, ərz etdiyim vəch üzrə o qüvvə türk millətinin əkinçi və yaxud başqa bir sinfi deyil, ancaq o millətin hökumət və müntəzəm qüvveyi-əsgəriyyəsini [ordusunu] çağırmaqdan bəhs edilir deməkdir. Əvvəla türk qüvvəsini buraya cəlb üçün hökumətə təhrirən [yazılı olaraq] müraciət olunduqda [ancaq] "Müsavat" deyil, sosialistlərdən Əhməd Cövdət də mənimlə bərabər həman kağızı imza etmişdir. Ağamalıoğlunun dili topuq çala-çala söylədiyi yanlış nitqinə görə deyil, "Hümmət" firqəsinin Tiflisdə nəşr olunan "Probujdeniye" qəzetəsində türklərin Azərbaycana çağırılmasını "Müsavat" tərəfindən bir xəyanət kimi tələqqi edərək [qiymətləndirərək] durmasından dolayı bu örtülü məsələnin birdəfəlik üstünü açmağa məcbur olduq. Çünki vaxt gəlmişdir, biz bu vaxtı qaçırmayaraq üzərində xəyal ilə oynanılan əfkarımızı və nöqteyi-nəzərimizi xalqa, Azərbaycan əhalisinə, hətta bütün dünyaya elam edəlim [bildirəlim] ki, əvət türkləri Azərbaycana biz çağırdıq, bu fikrimizlə də millətimizə fayda təmin etdik və bu çağırmaqlığımızdan qətiyyən peşman deyiliz. Hətta heç bəyənmədiyiniz "İttihad və Tərəqqi" hökuməti idarəsindəki qüvvəni çağırdıq. Lakin Türkiyəyə sultan hökumətimi, cümhuriyyətmi yaxud başqa bir tərzi-idarəmi lazımdır? Burası əsaslı bir məsələdir. Biz hələ iki yarım quberniyalıq Azərbaycanı idarə etməkdən aciz ikən böyük aləmşümul [ümumdünya miqyaslı] bir məsələdən bəhs etməyin nə məkanıdır, nə zamanı. Əhməd bəy cənablarının buyurduğu və şeirini sübut gətirdiyi Məhəmməd Əmin bəy cənabları düşkün [bədbəxt] türk millətinin kəndlərinin halına ağlamaqla bərabər, kəndisi də eyni zamanda Məclisi-Məbusan əzasından [üzvlərindən] biridir və lazım bilsəydim ərz edərdim ki, Əhməd bəyin oxuduğu şeirləri də şimdiki hökumətə deyil, Əbdülhəmid istibdadı əleyhinə yazmışdır və Əhməd bəyin bəyənmədiyi hökumətin icraatını təsvib edir [bəyənir].

Keçəlim sorğu məsələsinə: Əlaqədar bulunduğumuz məsələ bizə aydındır. Buraya gələn türk əsgərlərinin hərəkatı tənqid edilməz. Zira onlar əsgər halında gəlmişlərdir, idarə üçün deyil, dedilər. Əvət, bulunduğumuz Türkiyə mərkəzlərindən heç birində heç bir türk siyasisinin [siyasətçisinin] ağzından "Biz oraya idarə məqsədi ilə gəlmək istəyiriz" – deyə bir söz eşitmədik. Biz bunu əlbəttə bilirdik ki, türklər buranı idarə etmək və Bakını İstanbula qoşmaq istəməyirlərdi. Fəqət burada bizim öz bəylərimiz və paşalarımız vardı ki, nə surətlə olsa da türkləri böylə bir siyasi xətaya sövq edir, onları iğfal eyləyirlərdi [yoldan çıxarırdılar]. İştə bu cərəyana qarşı idi ki, "Müsavat" mübarizə edirdi. *(Alqış)*

Əvət, türklər vaxtında gəlmiş, bizi ümumi qırğından xilas etmişlərdir. Onların Azərbaycana nisbətən xidmətinə qarşı azərbaycanlıların ürəyində minnətdarlıq hissi o qədər ülvi, o qədər böyükdür ki, necə ki, Bolqariyaya hürriyyət verən, bolqarları xilas edən rus əsgərlərinə qarşı bolqarların hissi alidir. Biz onların bu xidmətini əbədilik xatirimizdə saxlamaq üçün məmləkətin çox yerində abidələr qoymalıyız. Fəqət, bu o demək deyildir ki, türklər hər bir xətadan mübərraddırlar [arıdırlar, təmizdirlər] və onları tənqid etmək olmaz. Böylə bir ehtiram üsulu əski zamanların bütpərəstlərinə məxsus bir ehtiramdır. Müasir bir iş deyildir. Türklərdən bəzilərinin işlədiyi xətaları tənqid etməsək, uğrumuzda canını fəda etmiş türk qəhrəmanlarına səmimi bir ehtiram bəslədiyimiz təsəvvür olunmasın. O fədailər böylə mürai [riyakar, ikiüzlü] ehtiramlara düşkün [aludə] deyildirlər. *(Alqış)*

Əvət, təbiidir ki, heç bir firqə böylə tənqidin əleyhinə olmaz. Fəqət, buna da heç kəs razı olmaz ki, imdad əlin[i] vaxtında bizə yetirmiş olan fədakar insanlar tənqid əvəzinə təhqir edilsinlər. Qara bəy əfəndi türklərin bu fədakarlığını hamıdan daha əvvəl bildiklərini söylədilər ki, hələ 11 il bundan əvvəl Tələt paşa, Ənvər paşa və sairləri mənim yanımda Qafqaziyaya gəlməyə and içmişlərdi. Bu ola bilər. Ehtimal ki, doktor Qara bəy xəbəri tezliklə yetirmək üçün dəxi yolunu yarımçıq kəsib tezliklə Qafqaziyaya qayıtdı. *(Alqış)*

Sonra natiqlər burada bizə bir şeyi isnad etdilər. O barədə də fikrinizi təshih etmək [düzəltmək] istərəm. Deyirlər ki, "Müsavat", hökuməti müdafiə edir. "Müsavat" hökumət firqəsidir. Bunu bilməlisiniz ki, bizim bütün qüvvəmizlə müdafiə edəcəyimiz, bəzən hətta bilaşərt və qeyd [qeydsiz-şərtsiz] tabe olacağımız hökumət, yalnız tamamilə müsavatçılardan təşəkkül edəcək hökumətdir. Zamani ki hökumət tamamilə müsavatçılardan deyil və bu saat koalisyondur (müştərək), böylə hökumətə biz bəzi şərtlərlə tabe olub, onu müdafiə ediriz. Siz bilirsiniz ki, "Müsavat" Parlamanda əksəriyyət təşkil edən bir mərkəz deyildir. Hökumət hamı firqələrdən təşəkkül etmişdir. Ona görə heç vaxt "Müsavat" firqəsi hökumət icraatının bütün məsuliyyətini yalnız öz öhdəsinə götürməz. Parlamentarizm və müştərəklik əsası ilə qurulmuş bir hökumətdə də "Müsavat" əksəriyyət təşkil etmir; nəinki əksəriyyət, hətta məsuliyyətini öhdəsinə götürəcək dərəcədə məsuliyyətli surətdə belə iştirak etməyir. Açıq söyləyəlim: hökumətin Baş vəzirini [nazirini] biz vermədik, hətta biz nazir verərkən o, ya bu Nəzarəti [Nazirliyi] istəyirik deyə israr etmədik. Əgər hal-hazırda hökumət daxilində bizim nazirlərimiz varsa, onlar da istər-istəməz qalmışlardır. Ona görə deyirəm ki, bizim müdafiə etdiyimiz hökumət deyil, hökumət fikri, məmləkətdarlıq fikridir. Müsavatçılar bilirlər ki, hökumət olmasa əhval pərişan, vəziyyət fəna olar, məmləkət dağılar. İştə bu mülahizələrlədir ki, müsavatçılar qabaqca ölçər, biçər, etimad edər və bir kərə etimad etdikdən sonra onu yarımçıq geri alıb hökuməti düşürərək məmləkəti başsız qoymaz. *(Alqış)*

Bizə burada dedilər ki, Quba qəzasında Dağıstana meyl olduğu müşahidə edilir. Mən bunu kamali-məmnuniyyətlə qeyd edirəm ki, bu xəbərləri tamamilə təkzib edərək qəzanın bu barədə nə qədər münfəil [təsirlənmiş, həyəcanlanmış] olduğunu Quba nümayəndəsi söylədi. Zaqatala nümayəndəsinin dəxi borcu idi bu kürsiyi-müəlladən [uca kürsüdən] Rəsulzadəni tənqid etmək əvəzinə bəyan edəydi ki, Zaqatalada qətiyyən Gürcüstana meyl edən bir firqə yoxdur. *(Alqış)*

O bunu unutdusa, mən cəsarətlə deyirəm ki, zaqatalalılar haqqında denilən bu söz qətiyyən yalandır və onlarda böylə təmayül olammaz.

Burada sosialist natiqlərdən Əbilov onlar ilə bizim aramızda olan fərqi isbata çalışaraq dedi ki, Rəsulzadə dünkü nitqində quldurlara qarşı tədbir görməkdən bəhs edərkən kəndlərdə firqə şöbələri açmağı təklif etdi, fəqət demədi ki, kəndlərdə zemstvo [yerli özünüidarə orqanı] qurmaq lazımdır; onlar isə zemstvo tələb edirlər. Natiq bununla isbat etmək istəyir ki, guya biz kafi dərəcə demokrat deyilmişiz. Çünki zemstvodan əvvəl firqə təşkilatı tələb etdik. Fəqət bilməlidir ki, zemstvolar, bələdiyyə idarələri və sair ümum camaat müəssisələri imanı kamil, etiqadı dürüst siyasi məslək xadimlərinin tərvic etdikləri [rəvac verdikləri] fikirlə əmələ gələ bilərlər. Əgər firqə təşkilatı, fədakar xadimlər və demokratik fikir mürəvvicləri [demokratik fikirlərə rəvac verənlər, onları yayanlar] köylərə getməmiş, xalq içinə varmamış, onları anlatmamışlarsa, demokratik müəssisələr təşkil edilsə belə həqiqi demokratik olmaz və böylə olan surətdə məqsəd ələ gəlməz. Demokratik firqələrin fikri bir mayadır. Maya vurmadan qatıq gözləməməlidir. Odur ki, xalq ruhuna bu mayanı vurmalı, sonra demokratik müəssisə təşkilini gözləməlidir.

Əhməd bəy türklükdən bəhslə deyir ki, biz də türküz, bu doğru. Amma türklüklə türkçülük arasında böyük fərq vardır. O fərq nədir? Türkiyəni bizə misal gətirirlər, deyirlər ki, orada demokratik firqə yoxmuş və o bəlalar onun üçün onların başına gəlirmiş. Lakin mən deyirəm, millətdə milli ruh, milli idrak, etirafi-milliyyə [milliyyətini dərk və qəbul etmə], şəxsiyyəti-milliyyə lazımdır. Biz millətə bunu verməyə çalışırız, sosialistlər ancaq proqram üzərinə danışırlar, iştə onlar ilə bizim fərqimiz budur! Əkinçiyə torpaq, fəhləyə iş vermək şüarı hamı demokratik firqələrin proqramında var. Fəqət sosialistlərlə bizim fərqimiz budur ki, onlar beynəlmiləliyyətçidirlər, biz isə demokratik-millətçi. Millətçi-demokratlığın nə qədər camaata faydalı, zamanın tələbinə müvafiq olduğunu Qarfqaziya təcrübəsi ilə göstərərək, isbat edərək göstərə bilərəm ki, məsələn, gürcü sosial-demokratiyası camaata nicat vermək üçün nasional-demokratlıq üsulundan başqa bir çarə tapmadı. O da artıq bu yola girdi. *(Soldan: Yalandır.)*

Əfəndilər! İştə bu dövləti nöqteyi-nəzərdən məmləkətin əhvalını [ölçüb]-biçərək, sorulan məsələləri ölçüyə vəz edərək [tərəziyə qoyaraq] tələb edərdik ki, bütün firqələr hökuməti tənqid edərkən zaman və məkan xaricində deyil, zamanın, məkanın daxilində olaraq tələbatlarını [tələblərini] verməlidirlər. Müəyyən bir sorğu varsa, əvvəldən bu sorğunu, mətləbdən uzaqlaşmayaraq məhdud bir vəziyyətdə müdafiə və müzakirə etməlidir. Məsələn, Nəzarətdən bəhs edərkən ümumi siyasətə keçmək və hər şeyə qulp qoymaq; yemək, içmək, yandırmaq şeylərindən bəhs edərkən Maarif Nəzarətini araya soxmaq səhih [doğru] olammaz. Necə ki, dün neftdən, bezdən bəhs olunarkən, gəlib qaradavoylarda durdular. Bizim söylədiyimiz də bu üsulu tənqiddir. Bu hallarla biz pək irəli gedə bilməriz.

Qara bəy bizi dünkü nitqində sindikat [həmkarlar ittifaqı] ilə də qorxutdu. Bu xüsusda nazir də bəyanat verdi. Ticarət və Sənaət [Sənaye] Nəzarətində üsulsuzluq daha çoxdur. Biz onların üstünü örtmək istəməyiriz. Biliriz ki, birisinə məsələn bir şərtlə, digərinə də ayrı bir şərtlə icazələr verilmişdir. Qüvvətli bir tacir asanlıqla, digər bir tacir isə pək güclüklə [çətinliklə] icazə almağa müvəffəq olur. Siz bu üsulu dəyişə bilərsiniz, əlinizdə ixtiyar vardır və mümkündür. Xüsusi bir komissiya intixab edərsiniz [seçərsiniz], hətta əmr edə bilərsiniz ki, şimdiyə qədər verilmiş olan icazələr həman bu dəqiqə dayandırılsınlar. Böylə ixtiyar və imkan varkən, hərçi bada bad [necə olursa-olsun] hökuməti düşürəlim, etimad etməyiriz, deməklə hökumət dəyişdirilərsə, hətta bu hökumət istefa versə – ki onlar arzu belə edirlər – gələcək hökumət daha yaxşımı olacaq? Və bunların yerində lazım olan bir hökumət bulundura biləcəkmisiniz, buna etiqadınız varmı [inanırsınızmı]? Madam ki, gələcək hökumətin bunlardan daha fəna olacağını özünüz də etiraf edirsiniz, o halda hökumətə ehtiram etməlidir. Biz etimadını ciblərində saxlayan "İttihad"ı söyləyiriz. Hərçənd onlar belə Zaqatala yolları haqqında formul verərkən və qəbul etdirərkən kəndiləri [özləri] bilmədən etimadlarını ciblərindən çıxarıb bir kərə hökumətə bəyani-etimad etmiş oldular. Fəqət, onlar etimadlarını ciblərində saxlaya bilərlər. Amma əvvəldən etimad etmiş olan firqələr o vaxt etimadlarını geri götürə bilərlər ki, ortada mühüm bir təbəddülat [dəyişiklik] olsun. Yəni deyə bilsinlər ki, etimad verərkən filan şey vardı, şimdi yoxdur, yaxud o vaxt yoxdu, şimdi var.

İştə, məsələyə böylə hökumət və dövlət nöqteyi-nəzərindən baxıb bizlər əvvəldən olduğu kimi şimdi də hökumətə etimadımızda baqi [dəyişməz] qalırız. Ticarət və Sənaye Nəzarətindəki bəzi yolsuzluqlar [qeyri-qanuni hallar] haqqında isə onların rəf'i [aradan qaldırılması] çarəsinə baxılmalı və bu xüsusda hökumətə yolu ilə [münasib bir şəkildə] ixtaratda bulunmalıdır [xəbərdarlıq edilməlidir].

Kürsüdən düşmədən əvvəl Aslan bəy Qardaşovun bir sözü haqqında bir neçə kəlmə danışmaq istəyirəm. Aslan bəy söylədi ki, nə üçün "Müsavat" "xəyanət" sözünü işlətməyir. "Müsavat" firqəsi namına [adına] söz söyləyənlər pək əla bilirlər ki, hangi sözü nə vaxt söyləmək olar və nə vaxt olmaz. "Müsavat" söz söylərkən, söylədiyi sözü əvvəla vəzn edərək ölçər, biçər, danışar. "Müsavat" xəyanət dedimi, sözünü həman isbata qalxar və isbat edər. "Müsavat" bilir ki, məbusluq sözü və kürsüsü mötəbərdir; məbus söylədiyi sözdən məsul deyildir, hər şeyi söyləyə bilər. Fəqət, maddətən məsul deyilsə, də mənəvi məsuliyyəti vardır. Bu etibarla xəyanət sözündən bəhs etdikdə onu havaya tullamayır, məsuliyyəti düşünərək sözlərimizi boşuna sərf etməyiz və bunu məbusana [məbuslara] dəxi tövsiyə etməyiz *(Mərkəzdən alqış).*

*(Mabədi var)*

## GENƏ O MƏSƏLƏ

İngilis qoşununun paytaxtımızda görünməsi, küçələrində dəstə-dəstə, silahlı-silahsız, ora-bura gəzməsi bizi cüzi də olsun rahatsız etməyir. Nədən ötrü? Əvvəla, ingilislərin paytaxtımıza gəlməsinə biz qabaqca razılıq vermişdik və saniyən [ikincisi] mədəni ingilislərin bizim istiqlalımız haqqında qeyri-məmul [arzuedilməz] hərəkətlər göstərməyəcəklərinə əmin idik və bu gün dəxi əminik və salisən [üçüncüsü] ingilislərlə bizim münasibatımız bu yoldadır ki, biz də və sair Qafqaz cümhuriyyətləri də ingilislərə bugünkü siyasi vəziyyətin pasibanı [qoruyucusu] və hamisi nəzəri ilə baxırıq və onları özümüz üçün şikayət yeri bilib, bir şey olarsa şikayət üçün onların üstünə yüyürürük. Buna görədir ki, paytaxtımız küçələrində ingilis saldatlarının görünüşü bizi nəinki xorlandırmayır [qorxutmur, çəkindirmir], biləks [əksinə] bu fövqəladə halda bir dərəcəyə qədər təskinülqəlb edir [qəlbimizə təskinlik verir].

Lakin rus əsgərlərinin və baxüsus [xüsusilə] erməni-rus əsgərlərinin şəhərimiz küçələrini "təzyin" etməsi ["bəzəməsi"] nəinki xoşumuza gəlməyir, bəlkə can və ruhumuzu belə incidir. Bu qoşunun paytaxtımızda görünməyi istiqlal heysiyyətimizə toxunmaq, dövləti şərəfimizi sındırmaq, şanımızı kəsr etməkdən [azaltmaqdan] hasil olan acılıqdan əlavə, bizi böyük bir təhlükə təşviş və əndişəsi ilə də müztəribülhal qılır [bizə iztirab verir].

Və necə də qılmasın ki, qəddar əlləri müsəlman qanı ilə boyanmış olan Amazasplar biz əsirlik düşkünü olan vaxtlarda Bakımızda bizə qarşı qoşunlar düzəltdiyi kimi, bu gün dəxi eyni asudəliklə paytaxtımızda əyləşib də qoşun düzəldir. Andraniklər gedir, Amazasplar gəlir. Biçeraxovlar gedir, Prjevalskilər gəlir. Kazarmalarımız özgələr qoşununa yer olur. Evlərimizi özgə qoşunu üçün rekvizit edirlər. Paytaxtımız qoşun keçidi meydanına dönür. Əcəba, biz bu işlərə razılıq vermişikmi?

Verməmişiksə, nə üçün bizə etina etməyib də paytaxtımızda qoşun düzəldirlər? O qoşun ki, qafqazlılar istiqlalına düşmən olduğunu Soçi hadisəsi ilə aşkar etdi.

Əcəba, o qoşuna yazılan ermənilər hansı dövlətin təbəəsidirlər? Əgər Azərbaycan təbəəsi deyildirlərsə, onların burada nə işləri vardır?

Və nədən ötrü biz bu işlərə bu gunə [bu cür] laqeydanə nəzərlə baxırıq? Nəyə ümidvarıq? Nədir bizi sükuta məcbur edir? Əcəba, bu məsələ bez məsələsindən əhəmiyyətsizdirmi ki, Parlamanımız bu xüsusda sükut ixtiyar edib, nəzəri-etinaya almayır? Bu şərəfsizlik, bu heysiyyət[siz]lik, bilaxirə [nəhayət] bu təhlükə biz əhalinin diqqətini cəlb etdiyi halda, Parlaman əzalarının hissiyyatına toxunmayırmı ki, bu xüsusda bir təşəbbüs etməyirlər? Bəs, bizim həyəcanımızı kim sakit edəcəkdir? Bunu ya gərək hökumət etsin, ya Parlaman. Halbuki, nə onun tədbirlərindən xəbərdarıq, nə bunun təşəbbüsünü görürük.

Bu gün biz Azərbaycan türklərinin istədiyi odur ki, Parlamanımız bu xüsusda təcili və fövqəladə bir iclas qurub, bu xüsusda məsələ qalxızıb və bu qeyri-təbii hadisəni rəf ilə [aradan qaldırmaqla] istiqlalımızın şan və şərəfini bərqərar və içimizdəki müdhiş təhlükə əlamətlərini bərtərəf etmək yolunu hökumətə göstərib sərəncamını tələb etsinlər.

*M. H-zadə*

**İdarədən:** Bu xüsusda hökumət tərəfindən lazımi olan tədbirlərə təvəssül [müraciət] edildiyi bizə məlumdur. Hər halda məsələ getdikcə böyük bir şəkil aldığı üçün Parlamanımızın dəxi diqqətini mövcib olarsa [cəlb edərsə], təşviş və əndişələrimiz bizi bir bu qədər iztiraba salmaz, zənn edirik.

**B. T.** Bu məqalə çapa verildikdən sonra həman xüsusda aşağıda yazdığımız mövsuq [etibarlı] xəbəri aldıq:

## YABANÇI ƏSGƏRLƏRİNİN GEDƏCƏKLƏRİ HAQQINDA

Dünkü türkcə "Azərbaycan"da və yeni nəşr olunan "Müsavat" firqəsi naşiri-əfkarı [nəşr orqanı] bulunan rusca "Naş put" qəzetəsində "Bu günün məsələsi" ünvanında yazılan məqalələrdə şəhərimizdə təşəkkül etməkdə olan Dobrovolçeski ordusu qitəatının [Könüllü ordu hissələrinin] əhali üzərində sui-təsir icra eyləməkdə olduğu və ələlümum [ümumiyyətlə] bu kimi Azərbaycanı tanımayan əsgəri qüvvətlərin Azərbaycan Cümhuriyyəti daxilində qalmalarının qeyri-təbii olduğu nəzərə alınaraq tələb olunurdu ki, bir an bu xüsusda tədbirlər görülüb məzkur qitəati-əsgəriyyənin [adı çəkilən hərbi hissələrin] Bakıdan ixracına baxılsın.

Aldığımız məlumata görə, "Naş put" idarəsini təmin eyləmişlərdir ki, hökumətin gördüyü tədbirlər və aldığı qəti təminlərə görə, yaxın günlərin içində paytaxtımız hər növ bizə yabançı olan əsgərlərdən təmizlənəcək, Dobrovolçeski armiyaya könüllü qeydləri mən' [qadağan] olunacaq və bu əsgərlər tərəfindən tutulan dövləti və xüsusi binalar həman [dərhal] boşadılacaqdır.

Bundan sonra dəxi Azərbaycan əsgəri ilə Müttəfiq ordu qitəatı xaricində heç bir əsgəri qüvvətə hökumətin müsaidəsi olmadan Azərbaycan daxilində bulunmaq imkan və müsaidəsi verilməyəcəkdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Ticarət və Sənaye nazirinin əcnəbi dövlətlərlə mal mübadiləsi əlaqəsinə girişməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Nazir tərəfindən əcnəbi məmləkətlərin müəyyən yerləri ilə mal mübadiləsi əlaqəsinə girişmə haqqındakı məruzəsini təsdiq etməli, 20 milyonluq fonddan birinci dəfəliyə 10 min rublə işbu iş üçün buraxmalıdır.

* Maliyyə nazirinin Maliyyat və iqtisadiyyat komisyonu təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə, Ticarət və Sənaye, Ərzaq və Türüq [və] Məabir [Nəqliyyat və Rabitə] nazirlərindən mütəşəkkil [ibarət] bir Maliyyat və iqtisadiyyat komisyonu təşkil edilsin. Bunlardan əlavə, komisyona şəxsi olaraq Maarif naziri və Dövləti Müfəttiş həzrətləri də daxil olacaqlar. Komisyon Şurayi-Vükəlaya idxaldan əvvəl maliyyat və iqtisadiyyat məsələlərini müzakirə edəcəkdir.

* Ərazi nazirinin xidmətçilərə gündəlik muzd verilmək barəsindəki məruzəsindən sonra qət edilmişdir:

İşbu məsələ Beynəddəvair komisyonuna [İdarələrarası komissiyaya] verilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

Tağıyev Məsai [Əmək] Nəzarətindən rica etmişdir ki, fabrikanı bağlamaq üçün ona izin verilsin. Zira fabrikadakı 1215 makinadan fəqət 300-ü işləməkdədir. Başqaları isə xarab olduqlarından işləməyirlər. Tağıyev məlum etmişdir ki, böylə iş davam edərsə bir neçə vaxtdan sonra onlar da xarab olacaqdır.

**Hökumət Müfəttişi Nəzarətində**

Hökumət müfəttişinin təftişatı haqqında 1918-ci sənəsi oktyabrın 23-də hökumət tərəfindən təsdiq edilmiş qanun əsasınca 1919-cu sənəsi yanvarın 1-dən Bakı rayonunda təftişat başlanır. Yanvar ayı ərzində təhqiq olunmaqdan ötrü Hökumət kontroluna 18 milyon 845 min manatlıq 585 təxsisat [ödəniş; pul ayırma] vərəqəsi təqdim edilmişdir. Bunlardan 2 milyon 586 min manatı təsdiq edilib, 15 milyon 834 min manat təftiş olunmaq üçün qaldırılmışdır. 425 min manat təsdiq edilməmişdir. 15 milyon 834 min manatlıq təxsisat vərəqələrinin təsdiq edilməməsi bununla bəyan edilir ki, həman vərəqələrlə kifayət qədəri təhqiqat sənədləri təqdim edilməmişdir. Hətta bir para müəssisələrdə qanuni qədər ştab və maliyyə smetası yoxdur. Bu barədə həman vərəqələri təqdim edən müəssisələrdən lazimi sənədlər tələb edilmişdir. Bununla bərabər, Hökumət müfəttişi tərəfindən tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür] ki, hamı müəssisələr əvvəlcədən təftiş edilməkdən ötrü öz təxsisat vərəqələrini Hökumət müfəttişinə təqdim etsinlər. Əks surətdə sənədsiz təqdim edilən təxsisat vərəqələri ilə pul buraxılmayacaqdır.

## PARLAMAN ƏTRAFINDA

**Parlaman iclası**

Bu gün fevralın 18-də Parlaman iclası təyin edilmişdir. Ruznameyi-müzakirata [müzakirə gündəliyinə] bu məsələlər daxil edilmişdir:

1) Parlaman mühafizəsi haqqındakı qanun layihəsi;
2) Parlaman məxarici smetası;
3) Parlaman nizamnaməsi;
4) Dəmiryol tarifəsinin artırılması layihəsi.

**Torpaq komissiyasının iclası**

Çaharşənbə [çərşənbə] günü fevralın 19-da torpaq komissiyasının iclası təyin edilmişdir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 18 fevral (Çərşənbə axşamı günü) tarixli 116-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

**Məclisi-Müəssisan seçki komissiyası işləri**

Məclisi-Müəssisan [Təsisçilər Məclisi] seçkiləri hazırlayan komissiyanın işləri bu günlərdə bitmək üzrədir. Komissiyanın hər bir işləri müzakirə olunmaqdan ötrü Parlamana daxil ediləcəkdir.

## SÜLH ƏTRAFINDA

**Müsəlmanlar Sülh Konfransında**

Sülh Konfransında müsəlman xalqının nümayəndəsi kim olacağı haqqında general Sulkeviç zənn edir ki, nümayəndəlik Qafqaziya millət xadimləri dəstəsi üzərinə qoyulmuşdur. Rusiya müsəlmanlarının ümumi tələbatı federasyon – Rusiyada müsəlmanların milli, mədəni muxtariyyətindən ibarətdir.

* Londonda müntəşir [nəşr olunan] "Morninq post" qəzetəsinə xəbər verilir ki, Arxangelskdə qubernator Vilson tərəfindən bolşeviklərin Sülh Konfransına dəvət edilməsi məsələsinin intişarına [yayılmasına] mane olur. Böylə xəbərlərin əhaliyə yaman təsir edəcəyini qubernator zənn edir.

* Luqano - "Sokolo" qəzetəsinin müxbiri xəbər verir ki, Müttəfiqlərlə Romaniya arasında ittifaq kəskinləşir. Buna da səbəb odur ki, Müttəfiqlər Banatı Romaniyaya verməyirlər. Romaniya mükafat qəbilindən olaraq Dobriçanı alır, Bolqariya Makedoniyası Serbiyaya keçir. Bu qətnamə Romaniya hökumət məhafilində [dairələrində] böyük narazılığa səbəb olmuşdur.

## TELEQRAF XƏBƏRLƏRİ

- İngiltərənin Fələstin komitəsinin qəzetəsi xəbər verir ki, Fransa Fələstində öz idarəsini yürüdür. Buna hər nə qədər ingilislər protesto edirlərsə də, bununla bərabər fransızlar öz inadlarında davam edirlər. Amerikada dəxi fransızlar bu yolda təbliğatda bulunurlar.
- Müstəqil "F. Q." qəzetəsi xəbər verir ki, marşal Hindenburq qərargahında açıq-açığına monarxizm təbliğatı davam edir.
- Elzasda aclıqdan dolayı üsyan əmələ gəlmişdir. Polis və saldatlar 100 nəfəri həbs eyləmişdir. Elzas qəzetələri fransız hökumətindən tələb edirlər ki, oraya işsizlər üçün ərzaq yetirsin.
- Peştədən xəbər verilir ki, Ali fransız komandanlığı qərar qoymuşdur ki, Səlanikdə bolşevik iğtişaşında iştirak edən şəxslər fransız Sudanına təbid [sürgün] edilsinlər.
- Romaniyada get-gedə bolşevizm intişar edir [yayılır]. Bükreş [Buxarest] qoşunlarının iclasında saldatlar saldat şurası təşkilini tələb edirlər. Brailovda saldatlar öz alaylarının komandanlarını dəyişmişlərdir.
- "Forverts" qəzetəsinin son məlumatına görə, Romaniya ordusunda getdikcə bolşevizm artır.

**Fransada inqilab hərəkatı**

Bu günlərdə Parisdə Fransa əmələlərinin [fəhlələrinin] böyük nümayişi gözlənir. Bunlar fransız hökumətinin qəsbkaranə siyasətinə qarşı protesto edəcəklərdir.

- Hollanda bürosu xəbər verir ki, Belfastda Fransededer əmələləri hökuməti əllərinə alaraq ancaq öz şuralarına itaət edirlər.
- Harbindən xəbər verildiyinə görə, Yaponiya qoşunları Sibiryanı təxliyə edib, Mançuriyadakı əvvəlki qərargahlarına qayıdırlar.
- Amerika komandanlığı nümayəndəsi Straus xəbər verir ki, fransız cəbhəsindən heç bir Amerika qoşunları Rusiyaya göndərilməyəcikdirlər.
- Radomda Polşa bolşevikləri hökuməti əllərinə almışlardır. Bunlarla mübarizədən ötrü qoşun dəstələri göndəril mişdir.
- Köniqsberqdən xəbər verilirdi ki, guya bolşeviklərin milyon qüvvəsi Almaniya üzərinə hücum edir. Bu xəbər həddindən artıq mübaliğəlidir. Riqa-Dvinsk-Vilna xəttindən ancaq 50 min bolşevik qüvvəsi keçmişdir.

**Üsyan**

Ufa - (8 fevral) Novobayazit kəndi dairəsində iki alay "Milli ordu" üsyan qalxızmışlardır. Üsyançıları sakit etmək üçün iki zirehli qatar göndərilmişdir. Yenisey quberniyasında əmələ və kəndçilərin üsyanı artır, Nijni-Odinsk mahal və İrkutsk quberniyasına da keçir.

## QƏZETƏLƏRDƏN

**Klemansonun nitqi**

Fransa mətbuatının verdiyi məlumata görə, Klemanso Parisdə nəşr olunan "A. P." qəzetəsinin müxbirinə xeyli maraqlı bəyanat vermişdir. Klemanso demişdir ki:

*"Mən söylədim ki, müharibə qazanılmışdır. Daha doğrusunu söyləməlidir ki, indi tufan əsnasında sakitlik hesab edirəm. Bu yaxınlardakı kəşfiyyat Prussiyanın əsgəri hökmranlıq amalından yaxşı, düşmənin niyyəti ilə aşina olmaq imkanını verdi. Bu niyyət Fransanı sənaye və ticarət, həmçinin əsgəri nöqteyi-nəzərdən məhv etmək qəsdindən ibarət olub, müfəssəl surətdə hazırlanmış bir sui-qəsddir. Alman bankirləri və sənayekarları bu məqsədə nail olmaq təsəvvüründə idilər. Doktor Muelonun Krupp zavodları haqqında yazdıqları və Kurt Eysnerin Berndə sosialist konfransında söylədikləri bunu isbat etməkdədir. Bu iş almanların bizim üçün indiyə qədər anlaşılmaz olan təxribat hərəkətlərini şərh edir. Almanların bu çalışmaları nəticəsiz qalmamışdır. Belə ki, Fransanın sənaye həyatı o dərəcə xələldar edilmişdir ki, təcdidi [bərpası] xeyli müşküldür. Bununla belə, Almaniya təslim olmuşsa da, öz zavodlarını salamat saxlamışdır ki, tezliklə işə başlamağa hazırdırlar. Fransa ilə Prussiya arasında əsgəri nöqteyi-nəzərdən qalibiyyət Prussiyanın olmuşdur. Almaniyanın Fransadan ötrü təhlükəli olan bir qədər mövcudatı qalmışdır. Doğrudur, Müttəfiqlər alman donanmasına sahib oldular və düşmənin külli miqdarda silahını əlindən aldılar. Lakin bərbad, ancaq məhsuldar Rusiya qalmışdır ki, almanlar ələlxüsus İngiltərə əsgərlərinin tərxisi və Amerika əsgərlərinin vətənə övdətlərinə [qayıtmalarına] görə Rusiyadan bir çox müavinət [yardım] ələ gətirə bilərlər. Deməli, Fransanın tək qalmasından Almaniya tərəfindən müharibə hərəkatının təcdid edilməsi təhlükəsi ola bilərdi. Rəisi-cümhur Vilsonun Məclisi-Məbusanda bizi ruhlandıran vədləri olmasaydı, müşkül bir hala məruz olacaqdıq. Əlbəttə ki, Amerikanın və Fransanın daxil olacağı Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] böyük əhəmiyyəti olacaqdır. Bu cəmiyyətdə iştirak edən millətlər gərək tərəddüdatlarından və ənənəvi xüsusiyyatlarından imtina edib, sülh zamanında və müharibə təzyiqatı altında olduğu kimi öz milli qüvvələrini öz sərhədlərindən kənara qoymağa razı olmalıdırlar."*

Klemanso axırda demişdir ki, [Fransa] bu məsələləri ifa etməyə və qorxusuz, məzəmmətsiz qalmağa hazırdır.

* London - "Deyli nyus" qəzetəsinin Paris müxbiri xəbər verir: İngiltərənin siyasi dairələri bu etiqaddadırlar ki, müharibə zamanında əqd edilən [bağlanan] gizli əhdnamələr [müqavilələr] əsasından təbdil edilməlidir [dəyişdirilməlidir]. Buna da Amerikanın müharibəyə müdaxiləsi səbəb olmuşdur. Qəzetə müxabiri deyir ki, İran dövləti ilə Xita [Çin] dövləti arasında olan əhdnamə ləğv edilir və Yaponiya ilə Müttəfiqlər arasında yeni əhdnamə bağlanmışdır. Bu əhdnamə ilə Karolin və Marşall cəzirələri [adaları] Yaponiyaya verilir. Avstraliya bu etilafa [uzlaşmaya] ciddi surətdə protesto edir.

* Berlin – (3 fevral) "Fossişe çaytunq" qəzetəsi xəbər verir ki, Köniqsberqdə matroslarla spartaklar yenidən hökumət müəssisələrini əllərinə keçirmişlərdir. Hökumət qoşunları tərəfindən bunlara heç bir mümaniət [maneçilik] edilməmişdir. Berlin qəzetələri spartakların yeni çıxışlarından ehtiyat edirlər. Şəhərdə əhval həyəcanlıdır. Bağlanmış olan "Rotofane" adlı spartak qəzetəsi bu gün nəşrə başlamışdır. Qəzetə əvvəlki kimi Şeydeman, Ebert və Noske əleyhinə şiddətli və kəskin məqalələr yazır.

**Almaniya Cümhuriyyətinin Məşrutəsi [Konstitusiyası]**

Berlin - Almaniyanın yeni dövləti təşkilat layihəsi əsasən dörd maddədən ibarətdir. Üsuli-idarə bu surətlə təklif edilir: Almaniya indiki müttəfiq dövlətlərdən və muxtariyyətə layiq olan əyalətlərdən ibarət bir vahid təşkil edir. Yeni ştatlar təşkili barəsində camaata ixtiyar verilməli, yeni təşkil edilən ştatların əhalisi iki milyondan əskik olmamalıdır. Bir ştatın digər ştata mülhəq olmasına [birləşdirilməsinə] müsaidə edilir. Yeni ştat təşkil edildikdə yaxud ştatlar yek-digərinə [bir-birinə] mülhəq olduqda, rəyiamm sormaq [əhalinin rəyini soruşmaq, referendum] lazımdır. Rəisi-cümhur dövlət başçısı olaraq və müharibə zamanında xarici işlər siyasətini də idarə edəcəkdir. Rəisi-cümhur 7 il müddətinə seçilir. Dəfəatla [dəfələrlə] seçilməyə də ixtiyarı olur. Hökumət kansler və nazirlərdən ibarət olaraq Reyxstaqın rizası ilə Rəisi-cümhur tərəfindən təyin edilir. Hər bir nazir öz fəaliyyətində məsuldur.

**İrlandanın İngiltərədən ayrılması**

Amerikanın hamı diplomat, senator məbusları İrlandiya Hökuməti Agentliyindən böylə məlumat almışlardır:

Kamali-ehtiramla zati-alilərinizə məlum ediriz ki, təyini-müqəddərat hüquq[un]a malik olmaları əsası ilə 1918-ci sənə dekabrın 18-dən etibarən İrlanda İngiltərə ilə siyasi münasibatını [əlaqələrini] kəsmişdir. Buna görə irlandalılar ingilis kralını İrlanda Krallığına qəbul etməyirlər. İngiltərə və İrlanda krallıqlarının ittihadı [birliyi] artıq yoxdur. İrlanda Cümhuriyyəti İrlandadan əcnəbi dövlətlərin haqqi-imtiyazlarını qəbul etməyir və bu gündən etibarən İrlanda, İngilis Hökuməti ilə danışığa girir.

**Yapon əsgərləri**

Sibiryada olan Yaponiya qoşunlarının əksəri Yaponiyaya dəvət edilir. Bunun səbəbi hələlik məlum deyildir. Yaponiya qoşunlarının bir hissəsi yenə orada qalmaqdadır. Yalnız burası məlumdur ki, bu saat sülh işləri böhranlıdır və mümkündür nagəhani [gözlənilməz] işlər əmələ gəlsin.

* Nauen – (8 fevral) Spada mütarikə komissiyasında olan Almaniya nümayəndələri fevralın 5-də Baltik səvahili [sahilləri] barəsində Müttəfiqlərin nümayəndələrinə bir nota vermişlərdir. Bolşevizmlə mübarizə xüsusunda notada denilir:

*"Baltikdə olan Könüllü qoşunların halı fənalaşır. Bolşeviklər yenidən bir neçə iskələləri [limanları] əllərinə keçirmişlərdir. Müttəfiqlər müavinət [kömək] edəcəkləri təqdirdə bolşevikləri məğlub etmək mümkün olacaqdır. Bu münasibətlə dəfəatla [dəfələrlə] Almaniya hərbi gəmilərin təslih edilməsini [silahlandırılmasını] Müttəfiqlərə təklif eyləmişsə də, hər dəfə rədd cavabını almışdır. İndi Müttəfiqlər ciddiyyən bu işə müdaxilə edib də müsəlləh [silahlı] surətdə bolşeviklərin qarşısına çıxmalıdırlar."*

**İstanbulda həbslər**

"İttihad və Tərəqqi" komitəsinin məşhur üzvlərinin həbs edildiyi, İstanbuldan xəbər verilir. Bunlar İzzət paşanın mərifəti ilə [sayəsində] fevralın əvvəllərində həbs edilmişlərdir. Həbs edilənlər 25 nəfərdir ki, bunlar polis departamentində saxlanırlar. Bunlardan əlavə, hökumət tərəfindən "İttihad və Tərəqqi" üzvü olan bir neçə zabit həbsə alınmışlardır. Məhbuslar arasında Mahmud Kamil paşa, [Məhməd] Vəhib paşa, Cavad bəy də vardır. Ənvər paşanın dayısı Xəlil paşa, Seyfi bəy, Şərif bəy, Midhət Şükrü bəy dəxi həbsə alınanlar cümləsində vardır.

**Türkiyə demokratları**

İstanbulda yeni təşkil edilmiş olan Türk Sosial-Demokrat Komitəsi bu yaxınlarda komitə tərəfindən sultan həzrətlərinə bir müxtirə [nota] təqdim edəcəkdir.

**Almaniya Rəisi-cümhuru**

Almaniya Cümhuriyyəti rəisliyinə Ebert intixab edilmişdir [seçilmişdir].

## BAKI XƏBƏRLƏRİ

**Türk Araz Hökumətinin Xariciyyə naziri**

Dünən fevralın 17-də Türk Araz Hökumətinin Xariciyyə naziri Bəhram xan Naxçıvanski Bakıya varid olmuşdur [gəlmişdir].

**Bələdiyyə İdarəsində**

* Elektrik işığı qiymətlərini artırmaq üçün verilən tələbatdan sonra bir komisyon intixab edilmişdi [seçilmişdi] əhvalın nə şəkildə olduğunu məlum etsin. Komisyon öz işini bitirmişdir. Ən yaxın zamanda bu barədə məlumat verəcəkdir.

* Bələdiyyə rəisi bütün mərkəzdəki ev sahiblərinə məlum etmişdir ki, ən yaxın zamanda səkiləri təmir etsinlər. Zira axır vaxtlarda səkilər uçub dağıldıqlarından əhali üçün gediş-gəlişə böyük mümaniət [maneçilik] etməkdədir.

* Şubatın 15-nə İkinci Ünas [qızlar] gimnaziyasında edadi məktəbləri valideyn şurasının mərkəzi komitəsinin birinci iclası təyin edilmişdi. İclasda 15 məktəbdən fəqət 8 məktəbin valideyn şurası nümayəndələri isbati-vücut [iştirak] etməkdə idi. Başqaları isə gəlməmişdilər. İclasda qət edilmişdi [qərara alınmışdı] ikinci dəfə olaraq 22 şubatda təyin edilmiş iclasa nümayəndələr göndərilsin.

* Beşinci dairə ev təşkilatları Bələdiyyə İdarəsinə məlum etmişlər ki, şəhərdə hökmfərma olan [hökm sürən] sari [yoluxucu] xəstəliklərə baxmayaraq həman dairədə heç bir xəstəlik qarşısını ala biləcək təşəbbüsat və iqdamatda bulun[ul]mamışdır [təşəbbüs göstərilməmiş və addım atılmamışdır]. Küçələrdə və həyətlərdə şimdi də zibillik qoxusundan dolanmaq mümkün deyildir.

* Sumqayıt mövqifi [stansiyası] müdiri Bələdiyyə İdarəsinə xəbər vermişdir ki, türklər oradan getdikdən sonra bir çox naməlum bədəfkarlar [cinayətkarlar] baş qalxızıb, əhalini və gedib-gələnləri soymağa başlamışlardır. Bələdiyyə İdarəsi həman kağızı qubernator hüzuruna göndərib rica etmişdir ki, oraya mühafizə dəstəsi təyin edilsin. Lazım gələcək mənzil mövqifdə bulunmazsa, mövqif yaxınlığında olan qışlanı [kazarmanı] onlar üçün təmir etməyi Bələdiyyə İdarəsi öz öhdəsinə qəbul edir.

**Sayad Xızı camaatının iclası**

Quba uyezdi Sayad Xızı kəndinin camaatı Bakı qubernatoruna ərizə və öz vəkilləri vasitəsi ilə müraciətən rica edir ki, onların kəndi Quba uyezdi Dəvəçi uçastokundan ayrılıb, Bakı uyezdi 7-nci polis uçastokuna mülhəq edilsin [birləşdirilsin]. Məzkur [adı çəkilən] kənd camaatı öz ərizələrində həmin uçastokun yaxın olduğunu və camaatdan bir çoxunun Bakı şəhərində sükunət etdiyini [yaşadığını] göstərirlər.

**Hadisat**

Fevralın 13-ündə, axşam saat 7-də Balaxanı kəndinin əhli Balahüseyn Məşhədi Hümmət oğlunun evində naməlum səbəbdən patlayış vaqe olub, evin divarları və mətbəxi ilə evin arasında olan divar və üstü dağılmışdır. Balahüseynin oğlu 11 yaşında Qulamhüseyn daşın altında qalıb yaralanmışdır.

**Oğurluq**

- Fevralın 11-ində Bülbülə kəndində Kərəm Kazım oğlunun evində naməlum bədəfkarlar [canilər] qıfılı sındırıb üç min manatlıq ev müxəlləfatı [əşyası] oğurlamışlardır. Müxəlləfatın bir hissəsi tapılıb sahibinə qaytarılmışdır.
- Zabratda Bakı Neft Cəmiyyətinin 49 nömrəli mədənində naməlum şəxslər tərəfindən İran rəiyyəti Məhəmməd Əli oğlu öldürülmüşdür. İran rəiyyəti Qənbər Hüseyn oğlu müttəhim edilərək tövqif [həbs] edilmişdir.
- Fevralın 14-də postda dayanan milis Abdullabəyov gecə saat 12-də Ramanıda Rus Neft Cəmiyyətinin 21-inci nömrə mədənində qızınmaqdan ötrü kantora daxil olub, orada qəflətən tüfəng açılıb, telefon xidmətçisi Aqulin Ankudinovu öldürmüşdür. Abdullabəyov tövqif edilmişdir.

**Bakı quberniyasında**

**Müfəttin** - Quba qəza qaimməqamı [qəza rəisi] Bakı qubernatoruna məlum edir ki, axır vaxtlar Quba şəhərində müfəttinlər [fitnəkarlar] tərəfindən bəzi yalan şayiələr buraxılır. Bu günlərdə böylə müfəttinlərdən Hüseyn Kərbəlayi Məhəmməd oğlu tövqif və həbs edilmişdir. Məzkur [adı çəkilən] müfəttin bolşeviklərin Qubaya gəlməsi barəsində yalan xəbərlər buraxırmış.

**Öldürmək** - Şamaxı uyezd naçalniki Bakı qubernatoruna məlum edir ki, Kür çayının kənarında Cavad kəndinin sakinəsi Aliyə Əjdərova tüfəng gülləsi ilə öldürülmüşdür. Güllə Cavad uyezdi, Petro-pavlovka kəndi tərəfindən atılmışdır.

* Əngilan kəndinin əhli Əmirəli Kəramət oğlu Quba uyezd naçalnikinə məlum etmişdir ki, bir gün bundan əqdəm [qabaq] öz həmkəndliləri Zal Həmdulla oğlu, Cahangir Ağakişi oğlu, Budaq Əziz oğlu müsəlləh [silahlı] olaraq onun evinə hücum edib, 10 kisə buğdasını oğurlamışlardır. Oğruları tövqif etməkdən ötrü lazımi tədbirlər ittixaz edilmişdir.

## KƏNDÇİLƏR İTTİFAQI

31 yanvar 1918 sənədə 32 kəndlərin nümayəndələrinin intixabı [seçkisi] ilə bir Kəndçilər İttifaqı təşkil olunmuşdu. O zaman Bakıda hökmfərma olan [hökm sürən] "demokratik" idarələr demokratiyanın qismi-əzəmi [böyük hissəsi] olan yüz min nüfusa [əhaliyə] malik zavallı Bakı kəndçilərinin halını yaxşılatmaq üçün heç səy və təlaş etməyirdilər. Kəndçilərin halını nəzərə alaraq bir neçə həmiyyətli zat [şəxs] tərəfindən yuxarıda göstərilmiş İttifaq təşkil edilmişdi. İki ay İttifaq ömr edəndən sonra qanlı Mart hadisatı [Mart hadisələri] baş verdi. O zaman Bakıda dövran sürən bolşeviklər tərəfindən İttifaq qapadıldı. Daha doğrusu, İttifaqın idarəsi bütün şeyləri ilə bərabər yaxıldı və üzvlərindən bir neçə fəal kəslər qətl olundu. Bu minval İttifaq məcburən qapandı. Sonradan şəhərimiz Azərbaycan Hökuməti idarəsinə keçdikdə, zavallı kəndçilərin halının yaxşılaşması gözlənirdi. Əfsus olsun ki, kəndçilər əski hallarında qalıb, məktəbsiz, azuqəsiz, həkim və dərmansız, səfalətlə hal keçirirlər.

Bu halı nəzərə alaraq İttifaqın sədri Hacıağa Abbasov yenidən İttifaqın işə başlaması üçün bir neçə möhtərəm şəxslərlə məsləhətləşib və bu barədə rus[ca] "Azərbaycan" qəzetəsində elan verdi. Bir neçə gün elandan keçmiş Ərzaq Nəzarəti tərəfindən Ərzaq İdarəsinə İttifaq sədri dəvət olunub, Ərzaq naziri vəkili Yusifəli Əliyev ilə müsahibədə bulunmuşdur. Ərzaq naziri vəkili sədrə məlum etmişdir ki, qəzetəyə verilən İttifaq barəsindəki elanı oxuyub və nazir cənablarına dəxi bu barədə bəyan etmişdir. Çünki İttifaqın məqsədi İttifaq sədri verdiyi bəyanatdan anlaşılan kəndçilər ərzaq işlərini asanladıb, onları zalım möhtəkirlərin çəngəllərindən [pəncələrindən] qurtarmaqdır, ona görə vəkil özü və Ərzaq naziri ona söz verdilər ki, İttifaqa əllərindən gələn maddi yardımı edəcəklər və Ərzaq [naziri] vəkili Yusifəli cənabları özünün nə dərəcədə fəqir kəndçilər tərəfdarı olduğunu sədrə bəyan edib tezliklə [işə] başlamalarını rica etmişdir. Deməli, bu günlərdə İttifaq idarəsi işə başlayacaqdır.

## GÜRCÜSTANDA

**Qənd şirəsi**

Borjomdan xəbər verirlər ki, Borjom meşələrində külli miqdarda qənd şirəsi cəm edilməyə başlanmışdır. Bu şirədən qənd qayırılacaqdır.

**Poçta-teleqraf münasibatı**

Gürcüstan Daxiliyyə naziri Ermənistan sülh heyətinə xəbər vermişdir ki, fevralın 15-indən etibarən Ermənistanla Gürcüstan arasında poçta-teleqraf münasibatı [əlaqələri] bərpa ediləcəkdir.

**Gürcü-Erməni Konfransı**

Gürcü-Erməni Sülh Konfransı tərəfindən qəbul edilən şəraiti [şərtləri] texnika tərəfindən hazırlamaqdan ötrü hər iki Cümhuriyyət nümayəndələrindən ibarət xüsusi bir komissiya təşkil edilmişdir.

**Tiflis Rus Milli Şurası sədrinin həbsi**

Zaqafqaziya Rus Milli Şurası sədri Lebedev fevralın 11-də Tiflisdə həbs edilmişdir.

## İDARƏYƏ MƏKTUBLAR

- I -

**Doktor Qarabəyova cavab**

Möhtərəm müdir əfəndi!

Mübarək qəzetənizin sütununda bu yazdıqlarıma bir yer versəniz, xeyli minnətdar olaram.

Qəzetənizdə oxuduğuma görə Parlamanımız əzalarından [üzvlərindən] doktor Qara bəy cənabları hökuməti tənqid edərkən, bəndəni də quldur deyə adlandırmışdır. Bu töhməti üzərimdən rədd etmək üçün tərcümeyi-həyatım xüsusunda bir məlumat ərz etmək istərəm.

1913-cü ildə Nikolay hökuməti, düşmənlərimin tərəfindən verilən danoslara istinadən məni Gəncədən beş il müddətlə nəfy [sürgün] etməyə, İrana göndərməyə qərar verdi. İki ay sonra işim təhqiq edildikdə Qafqaz canişini məni günahsız bildiyindən əfv etdi. Həman tarixdən etibarən mən hökumətin Yevlax ilə Tovuz arasında bulunan əsgəri mənzil müfəttişliyinə arpa və ot verirdim. Bu təəhhüddə [öhdəlikdə] mənim yoldaşım Abbas bəy Vəlibəyov idi.

Hürriyyətdən sonra Gəncə və həvalisi [ətrafı] anarxiya tufanı içində ikən millətim mənə müraciət etdi. Öhdəmə şəhərin mühafizəsi kimi ağır bir vəzifəni tövdi etdi [tapşırdı]. Hər kəs ticarətə və maddi mənfəətə məşğul olduqda mən bütün xüsusi mənfəətlərimi buraxıb inqilabın sonuna qədər vəzifəmi hüsn-istemal etdiyimə [yaxşı yerinə yetirdiyimə] minlərcə doğru şahidlərim vardır.

Fəqət doktor cənablarının fəaliyyəti haqqında da "Ədil" kimi millət lisanı olan qəzetələrdə bizə az-çox məlumat verilmişdir.

Millətimiz, həmd olsun, hər şeyi iyi görür və təqdir edir və kimin kim olduğunu da pək əla bilir.

*Sarı İmamqulu oğlu Ələkbər*

- II -

Hörmətli müdir əfəndi!

Mübarək cəridənizin [qəzetinizin] bir sütununda yer vermək üçün bu sətirləri sizə göndərdim. Dərc edərsəniz təşəkkür edərəm.

Bu günlərdə Parlaman əzasından doktor Qarabəyov cənabları iclasda məni quldur deyə qələmə vermişdir. Mən rus hökuməti vaxtında Nikolay qulluqçularının zülmündən qaçmışdım. Ona görə mənə Qaçaq Qənbər deyilir.

Qaçaq olmaqla bərabər, mən heç bir vaxt öz millətimə və dindaşıma fənalıq eyləmədim və hürriyyətdən sonra mən kimsədən qaçmadım. Yenə gəlib millətimlə yaşadım və əlimdən gəldiyi qədər millətimə müavinət [köməklik] eylədim.

Gəncə vilayəti anarxiya tufanı içərisində yandığı vaxt millətim məni şəhərin və dəmiryolun ətrafının mühafizəsinə məmur etdi. O gündən etibarən millətimin sadiq bir qulu olmaqdan başqa bir şey tanımadım. Quldur olsaydım, o vaxtlarda mənim qüvvətli dəstəm heç bir şeydən qorxmadığı günlərdə mən də quldurluğuma məşğul olardım. Zəyəm ilə Yevlax arasında bir çox erməni və müsəlman pambıq fabrikaları vardır. O cümlədən Gəncə ermənilərindən Arzumanovun pambıq zavodu vardır ki, mən onun bir neçə milyona baliğ olan [çatan] malını saxladım, sahibinə təslim etdim. Bunu hamı bilir.

Dəfələrlə öz dəstəmlə bərabər bolşeviklərə qarşı çıxıb cəbhədə bir neçə qurbanlar verdim.

Bunların hamısını mən millətimin səadəti üçün etdim. Amma Qara bəy cənablarının bu işləri nə üçün etmiş olduğuna ağlımız erməyir [dərk etmirik].

Doktor cənabları bilmiş olsunlar ki, mən həqiqətən quldur olsam da, millətimin düşmənlərinə qarşı quldur olmuşam. Heç bir vaxt millətə fənalıq etməmişəm. Biləks [əksinə] vətən və millətimə qarşı dərin bir məhəbbətim vardır.

*Tağı oğlu Qənbər*

## İDARƏDƏN CAVAB

**Mütəəllim [tələbə] M. F. Əlizadə əfəndiyə:** Maarif naziri ilə görüşüb istədiyiniz mətləb barəsində danışmaq sizin arzunuza və nazir həzrətlərinin müsaidəsinə bağlıdır. Lakin qəzetə vasitəsi ilə rəsmən Maarif nazirinə müraciət etmək mütəəllimə [tələbəyə] müsaidə ediləcək şeylərdən deyildir və yaraşmaz. Rəsmiyyətə qalarsa siz genə bilavasitə əlaqədar olan müəllimlərinizə müraciət etməlisiniz.

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor**
**Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor**
**Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca **divar təqvimi** satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəəllimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

"Neft Mədənçiləri Sovet Syezdi": Bakı Neft Sənayeçiləri Qurultayının Şurası.

***Sülh ətrafında***

"Banat": Mərkəzi Avropada tarixi vilayət. Hal-hazırda Serbiya, Rumıniya və Macarıstan arasında bölünmüşdür.

***Teleqraf xəbərləri***

"Hindenburq": qəzetdə "Qindenburq" getmişdir.

***Qəzetələrdən***

"A. P." qəzetəsi: "Assoşieyted press" qəzeti nəzərdə tutulur.

"Bu yaxınlardakı kəşfiyyat Prussiyanın əsgəri hökmranlıq amalından yaxşı, düşmənin niyyəti ilə aşina olmaq imkanını verdi.": Cümlə belə başa düşülməlidir: "Bu yaxınlardakı kəşfiyyat məlumatları, düşmənin niyyəti haqqında daha yaxşı tanış olmaq imkanını bizə verdi; halbuki bu vaxta qədər ancaq Prussiyanın hərbi hökmranlıq xülyasından xəbərdar idik."

"Rotofane": Spartak İttifaqının yayın orqanı olan və 1918-ci ildən etibarən nəşrə başlayan "Di rote fahne" [Die Rote Fahne] qəzeti nəzərdə tutulur. Qəzetin adı "Qırmızı bayraq" mənasını verir. 1919-1945-ci illərdə Almaniya Kommunist Partiyasının əsas yayın orqanı olmuşdur.

"Almaniya indiki müttəfiq dövlətlərdən və muxtariyyətə layiq olan əyalətlərdən ibarət bir vahid təşkil edir.": Qəzetdə bu cümlədə "indiki" yerinə "xarici" (güman ki, xəbər mətninin rus dilindən tərcüməsində "нынешних" sözünün "внешних" kimi anlaşılması səbəbindən), "əyalətlərdən" ye-rinə isə "fəaliyyətlərdən" getmişdir. "Muxtariyyətə layiq olan" sözləri "öz müqəddəratını təyin etmə hüququna malik olan" kimi başa düşülməlidir.

"…Almaniya hərbi gəmilərin təslih edilməsini...": qəzetdə "təslih" [silahlandırma] yerinə səhvən "təslim" getmişdir.

"Cavad bəy": Türkiyənin siyasi və hərbi xadimi İsmayıl Cavad Çobanlı nəzərdə tutulur.

"Ənvər paşanın dayısı Xəlil paşa": Xəlil Qut nəzərdə tutulur. Xəlil paşa Ənvər paşanın əmisi idi.

***Bakı xəbərləri***

"edadi məktəbləri": təhsildə universitetdən əvvəlki mərhələ – indiki lisey yaxud gimnaziyalar kimi başa düşülməlidir.






# Gənclik






**Gələcəyə dəstək**

## Uğurlu işlərdə gənclərimiz ön sıralardadırlar

**Sağlam, vətənpərvər ruhda böyüyən, müəyyən peşəyə yiyələnən, yüksək səviyyədə təhsil alan, cəmiyyətin müxtəlif sahələrində fəal iştirak edən gənclər dövlətin və xalqın ən böyük ümidi, gələcəyinin təminatçısıdır. Ölkənin hərtərəfli inkişafında gənc nəslin düzgün tərbiyə edilməsinin əhəmiyyətli rolu var. Son illər Azərbaycanda baş verən hadisələr, qazandığımız uğurlu işlərdə bu zümrənin nümayəndələrinin ön sıralarda olması xalqımızın və dövlətimizin bu istiqamətdə doğru yolda olduğunu təsdiq etdi.**



Sevindirici haldır ki, Azərbaycanda ailə ənənələri qorunub saxlanılır. Ailənin böyükləri - ağsaqqallar, ağbirçəklər öz məsləhətləri, öyüd-nəsihətləri ilə övladlarının formalaşmasına, özlərinə düzgün yol seçə bilmələrinə müsbət təsir göstərirlər. Onlara böyük-kiçik yeri bilməyi, xalqının, vətəninin təəssübünü çəkməyi, qayğıkeş olmağı, zəhmətsevərliyi aşılayırlar.

Uğurlu gənclərin yetişməsində orta məktəblərin də rolu mühümdür. Təhsil müəssisələrində şagirdlərə yalnız müxtəlif fənlər öyrədilmir, eyni zamanda vətən, dövlət, xalq anlayışlarının fərqinə daha dərindən varmalarına vəsilə olurlar. Dövlətin göstərdiyi qayğı və etimad isə gənclərin qarşısında yeni yollar açır. Arzularını həyata keçirmək, bacarıqlarını nümayiş etdirmək, məqsədlərinə çatmaq, uğurlara nail olmaq üçün onlara imkan və şərait yaradılır. Bu gün Azərbaycan gənclərinin uğur qazanmalarında məhz bu amillərin danılmaz rolu var.

Ölkəmizdə gəncliyin inkişafı ilə bağlı dövlət proqramları qəbul edilir və müvəffəqiyyətlə həyata keçirilir. 2007-ci il "Gənclər ili" elan olundu. 2011-ci ildə Gənclər Fondu yaradıldı, 2013-cü ildə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı" təsis edildi, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiqləndi və həmin istiqamətlər üzrə əhəmiyyətli layihələr reallaşdırıldı.

Milli ruhda tərbiyələndirilən Azərbaycan gənclərinin müxtəlif sahələrdə uğurlu fəaliyyəti, qazandığı nailiyyətlər görülən işlərin parlaq nəticələridir.

Bu gün haqlı olaraq Azərbaycan dövləti və xalqı öz gəncləri ilə qürur duyur, fəxr edir. Ərazilərin iyirmi faizinin otuz ilə yaxın davam edən Ermənistan işğalından azad olunmasında gənclərimizin göstərdikləri qəhrəmanlıqlar əsrlər ötsə də, unudulmayacaq. Həmin torpaqlar - Qarabağ və Şərqi Zəngəzur erməni qəsbkarları tərəfindən işğal ediləndə hələ yaşları az olan uşaqlar və işğal illərində dünyaya gələnlər Vətənə sevgi, yurda bağlılıq, dövlətə sədaqət, xalqa məhəbbətlə misilsiz şücaət, dillərə dastan olan qəhrəmanlıq göstərdilər. Qarabağ və Şərqi Zəngəzur torpaqlarını azadlığına qovuşdurmaq, şəhidlərimizin qisasını almaq arzusu ilə böyümüş vətənpərvər gənclərimiz 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində rəşadətlə döyüşdülər, düşmənin otuz ilə yaxın qurduğu, alınmaz bildikləri istehkamlarını darmadağın etdilər, işğalçı ölkənin silahlı qüvvələrini işğal altında saxladıqları ərazilərimizdə ağır məğlubiyyətə uğratdılar.

Prezident İlham Əliyevin Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirakı zamanı dediyi kimi: "Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə getdilər və şəhid oldular, qazi oldular və müzəffər ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi".

Azərbaycanda yetişən vətənpərvər, milli ruhda tərbiyə almış gənclər İkinci Vətən müharibəsindən sonra da düşmənin məkrli planlarının pozulmasında, təxribatlarının qarşısının alınmasında böyük hünər və qətiyyət göstərdilər. Təəssüf ki, 2020-ci ildə nail olduğumuz zəfərdən sonra da təcavüzkar Ermənistan Azərbaycan torpaqlarında təxribatlar, terrorlar törətməkdə davam etdi, təbii sərvətlərimizi yenə də talamaqdan əl çəkmədi. 2022-ci il dekabrın 12-də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii ehtiyatların qanunsuz istismarına etiraz olaraq Laçın-Şuşa yolunda etiraz aksiyası başladı. Dinc aksiya iştirakçıları Qızılbulaq qızıl yatağında və Dəmirli mis-molibden yatağında monitorinqin keçirilməsinə icazə verilməsini tələb etdilər. Etirazçılar Azərbaycan, rus və ingilis dillərində "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirdilər. Tələbləri yerinə yetirilənədək davam etdirilən dinc aksiya iştirakçıları sırasında gənclər xüsusi fəallıqları ilə seçildilər. Dövlət başçısı İlham Əliyev ötən il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində həmin gənclər haqqında qürurla dedi: "İlk növbədə o gənclərə "Eşq olsun!" demək istəyirəm, onlar bizim fəxrimizdir. Qeyd etdiyiniz kimi, gecə-gündüz şaxtalı-qarlı havada oradadırlar, öz haqlarını tələb edirlər və bir daha Azərbaycan gəncinin nə qədər yüksək keyfiyyətlərə malik olmasını bütün dünyaya göstərirlər.

2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda qalmış Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri və separatçıları məğlub edildi. Neçə-neçə gənc zabit və əsgərimiz ölkəmizin suverenliyinin tam bərpa olunması naminə qəhrəmanlıq göstərdi.

Tarixi zəfərimizdən sonra indi Qarabağda, Şərqi Zəngəzurda həyata keçirilən geniş tikinti-quruculuq işlərində bir çox gənc iştirak edir.

Sevindirici haldır ki, bu gün tərəqqi yolunda addım-addım irəliləyən Azərbaycanın gəncləri bütün sahələrdə parlaq göstəriciləri ilə fərqlənə bilirlər. Onların müxtəlif sahələrdə nailiyyətləri də elə Vətənə və xalqa xidmətin nümunələridir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

**Uğura imza atanlar**

## "Kimya həyatı öyrənən elmdir"

**"Kiçik yaşlarımdan atam həkim olmağımı istəyirdi. Mən isə kimyaçı olmaq arzusunda idim. Hiss edirdim ki, mən bu sahədə uğur qazana bilərəm. Atamla vaxtaşırı dəniz kənarına gedərdik. Mazuta bulaşmış quşları, suyun üzündəki neft tullantılarını görəndə qəribə hisslər keçirirdim. Fikirləşirdim ki, bizi əhatə edən ətraf mühiti, canlı təbiəti "sağlamlaşdırmaq" daha vacibdir. Elə bu, özü də insanların sağlamlığına xidmət deməkdir. Ali məktəbə qəbul zamanı bir daha götür-qoy etdim. Yüksək bal toplamağıma baxmayaraq, həkimlik ixtisasını yox, kimyanı seçdim. Kimya həyatı öyrənən elmdir. Bu sahənin mütəxəssisi olduğum, həyatın bizə məlum olmayan hissələrini öyrəndiyim üçün işimdən çox məmnunam".**



Redaksiyamızın qonağı kimya üzrə fəlsəfə doktoru Xuraman Akif qızı Məmmədova ilə elmin bu sahəsinin sirli-sehrli dünyasına səyahət etdik. Xuraman xanım deyir ki, bizi əhatə edən ətraf mühit, yediyimiz qidadan tutmuş geydiyimiz libasa kimi hər şey kimyadır. Nəzərə alsaq ki, fotosintez zamanı günəş enerjisindən istifadə etməklə bitki kimyəvi çevrilmə yolu ilə qeyri-üzvi maddələrdən (karbon qazı və sudan) mürəkkəb üzvi maddələr (şəkər və oksigen) yaradır, çəkinmədən deyə bilərik ki, həyat kimyadan ibarətdir.

Gənc kimyaçı alim Xuraman Məmmədova Akif qızı 1984-cü il avqustun 3-də Bakı şəhərində anadan olub. 2001-ci ildə Xətai rayonundakı 95 saylı orta məktəbi bitirib. 2006-cı ildə Bakı Dövlət Universitetinin Kimya fakültəsinin bakalavr pilləsini, 2012-ci ildə Sumqayıt Dövlət Universitetinin fiziki kimya ixtisası üzrə magistr pilləsini fərqlənmə diplomu ilə bitirib.

Əmək fəaliyyətinə 2007-ci ildə AMEA-nın Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun "Səthi-aktiv reagentlər və preparatlar" laboratoriyasında kimyaçı vəzifəsində başlyan Xuraman Məmmədova hazırda baş elmi işçi vəzifəsini icra edir.

2019-cu ildə "Alifatik aminlər və C3-epoksidlər əsasında səthi-aktiv maddələrin alınması və tədqiqi" mövzusunda kimya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alan kimyaçı-alim elmin zirvəsinə doğru uğurla addımlayır. 2020-ci ildə AMEA Neft-Kimya Prosesləri İnstitutunun elmlər doktorluğu hazırlığı üzrə dissertanturasına qəbul olub. Hazırda "C8-C18 yağ turşuları və oksialkilləşmiş aminlər əsasında səthi-aktiv maddələrin sintezi və tədqiqi" üzrə intensiv şəkildə elmi araşdırmalarını davam etdirir.

Elmi araşdırmasından danışan Xuraman xanım söhbət zamanı dedi ki, hazırda dünyanın bir çox ölkəsinin yaşadığı əsas ekoloji problemlərdən biri su hövzələrinin neft və neft məhsulları ilə çirklənməsidir. Neftin tankerlər və neft kəmərləri ilə daşınması zamanı qəza nəticəsində xam neftin böyük miqdarı hidrosferə daxil olur. Su səthinə dağılmış qalın neft təbəqəsini mexaniki vasitələrlə aradan qaldırdıqdan sonra burada nazik neft təbəqəsi qalır. Bu isə öz növbəsində su-hava sərhədində həmişə ciddi problemlər yaradır. Belə nazik neft təbəqələrini yalnız neftyığıcı və neftdispersləyici reagentlərin köməyi ilə kolloid-kimyəvi metodlardan istifadə edərək təmizləmək olar. Neftyığıcı reagentlərin köməyi ilə neft bir ləkə şəklinə salındıqdan sonra mexaniki yolla kənarlaşdırıla bilər. Neftdispersləyici reagentlər neft təbəqəsini emulsiya halına salır. Sonradan bu neft kimyəvi və biokimyəvi təsirlərə məruz qalaraq destruksiyaya uğrayır. Son zamanlar belə neftyığıcı və neftdispersləyici reagent kimi səthi-aktiv maddələrdən daha çox istifadə olunur. Bu cür təhlükənin, çirklənmənin qarşısını almaq üçün son zamanlar yeni, daha çox effektivliyə malik neftyığıcı və neftdispersləyici xarakterli səthi-aktiv maddələrin alınması və xassələrinin tədqiqi mühüm əhəmiyyət kəsb edir: "Hazırda elmi işimi yekunlaşdırmaq üzrəyəm. Hesab edirəm ki, tədqiq etdiyim sahə ətraf mühitin, su hövzələrinin neft tullantılarından təmizlənməsi üçün yeni üsul olmaqla Azərbaycan kimya elminin inkişafına yüksək töhfələr verə bilər".

Dosent Xuraman Məmmədova 101 elmi əsərin, o cümlədən 33 məqalənin, 67 konfrans materialının, müxtəlif məruzələrin tezislərinin, eləcə də 1 monoqrafiyanın həmmüəllifidir. Məqalələri bir sıra nüfuzlu nəşirlərdə - "Journal of the Korean Chemical Society" (Cənubi Koreya), "Journal of Surfactants and Detergents" (ABŞ), "Journal of Dispersion Science and Technology" (ABŞ), "Tenside surfactants detergents" (ABŞ), "Journal of Molecular Liquids" (Elsevier), "Colloids and Surfaces" (Elsevier), "Arabian Journal for Science and Engineering" (Səudiyyə Ərəbistanı) jurnallarında dərc olunub.

Xuraman Məmmədova ona elmin çətin yollarında bələdçilik edən elmi uğur qazanmasında zəhməti keçən alimlərdən də danışaraq deyir: "Xoşbəxtəm ki, özümü qürurla qəlbimizdə əbədiyaşarlıq qazanmış elmi rəhbərim, görkəmli alim AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, mərhum professor Ziyafəddin Əsədovun yetirməsi haqqına sahibəm. Fürsətdən istifadə edib elmi nailiyyətlər qazanmağımda mənə hər zaman dəstək olan məsləhətçim kimya elmləri doktoru, dosent Rəvan Rəhimova, laboratoriya müdiri kimya elmləri doktoru, dosent Gülnara Əhmədovaya dərin minnətdarlığımı bildirirəm".

Xuraman Məmmədova 2019-cu ildə AMEA-nın ayrı-ayrı elm və təhsil müəssisələrində çalışan gənc kimyaçıların elmin müxtəlif sahələrində apardıqları tədqiqatları, əldə etdikləri nailiyyətləri, aktual və müasir elmi problemlərin Azərbaycan üçün prioritet olan istiqamətlərində keçirilən "Gənc kimyaçılar elmdə" adlı müsabiqədə birinci yer tutub.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

**Yurdu yaşadan qəhrəmanlar**

## Vətənpərvər oğul



**İkinci Qarabağ müharibəsində yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olan oğullarımızdan biri də Ədilov Səid Həsən oğludur. O, 5 noyabr 1994-cü ildə Bərdə rayonunun Cəyirli kəndində anadan olub. Orta məktəbi bitirdikdən bir il sonra Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirmək üçün hərbi xidmətə gedib. Elə ilk günlərdən hərbi sirləri dərindən öyrənib. Keçirilən təlim-məşqlərdə silahların sirlərinə dərindən yiyələnib. Hərbi xidmətini başa vurduqdan sonra özəl şirkətlərdən birində əmək fəaliyyətinə başlayıb.**

2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda Səid Ədilov könüllü olaraq döyüşlərə yollanıb. Onun ilk döyüşü Tərtər rayonunun Suqovuşan kəndi uğrunda olub. Erməni işğalçıları bu istiqamətdə ciddi müqavimət göstərir, geri çəkilmək istəmirdilər. Düşmənin müqavimətinə baxmayaraq, Azərbaycan Ordusu da əks-hücumlarını dayandırmırdı. Əsgər Ədilov ön sıralarda vuruşur, sərrast atəşi ilə erməni qəsbkarlarını məhv edirdi.

Təəssüflər olsun ki, Səidin döyüş yolu uzun çəkmədi. Yurdunun müdafiəsinə atılmış bu cəsur əsgər Vətən müharibəsinin ilk günlərində - 2 oktyabr 2020-ci ildə Suqovuşan kəndi istiqamətində gedən əməliyyatda döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucaldı. Ürəyində qaynayıb-daşan arzu və istəkləri yarıda qırıldı. İlk günlər döyüş şəraitinin çətinliyinə görə onun nəşini döyüş gedən ərazidən çıxarmaq mümkün olmadı. Düşmən daim həmin ərazini atəş altında saxlayırdı. Vətən sevdalısı olan igidin nəşi 61 gündən sonra, 2020-ci il dekabrın 3-də Bərdə şəhərinə gətirildi. Elə həmin gün də doğmaları, yaxınları göz yaşları içində onu rayondakı Şəhidlər xiyabanında torpağa tapşırdılar.

Əsgər Səid Ədilov doğulduğu dünyada 26 il yaşadı. Cəsarəti, hünəri ilə gələcək nəsillərə nümunə oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə Ədilov Səid Həsən oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid atası Həsən Ədilov övladı haqqında qısa danışdı. Dedi ki, Səid çox vətənpərvər oğul idi. Bacısı ilə söhbət edəndə həmişə deyərdi ki, böyüyüb əsgər olacam, düşmənlərdən şəhidlərimizin qisasını alacağam. Səid verdiyi sözə əməl etdi. Vətənə əsgər oldu, erməni işğalçılarından şəhidlərimizin qisasını aldı. Ata kimi ona görə təskinlik tapıram ki, oğlum Vətən uğrunda, torpaqlarımızın azadlığı uğrunda şəhid olub. Döyüşlərdə göstərdiyi igidliyi ilə adını qəhrəmanlıq tariximizə yazıb.

Bərdə rayonunun Cəyirli kəndinin mərkəzində Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş Mehman Cəfərovun şəxsi təşəbbüsü və vəsaiti ilə "Şəhidlər bulağı" inşa edilib. İndi kənd sakinlərinin əksəriyyəti bu bulaqdan istifadə edir. İnanırıq ki, "Şəhidlər bulağı"ndan su içən gənclərimiz gələcəkdə Vətən sevdalısı Səid kimi igid və cəsur olacaqlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcək

**Mayın 1-dən 3-dək Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcək. "Bakı Prosesi"nin tərkib hissəsi olan bu forum İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) tərəfindən BMT-nin Sivilizasiyalar Alyansı (UNAOC), UNESCO və BMT-nin Ümumdünya Turizm Təşkilatı ilə birgə təşkil olunacaq.**




ISESCO-nun saytı xəbər verir ki, forumda yüksəksəviyyəli rəsmilər, beynəlxalq nümayəndə heyətləri, beynəlxalq təşkilatların nümayəndələri, ictimai xadimlərin və dünya miqyasında tanınmış ziyalıların iştirakı gözlənilir.

Forum nifrətlə üzləşmək, birgəyaşayış və sülh dəyərlərini aşılamaq məqsədilə öz plenar sessiyalarında və panel müzakirələrində sivilizasiyalararası dialoq və əməkdaşlıqla bağlı bir sıra aktual qlobal çağırışları müzakirə edəcək.

Tədbir çərçivəsində mədəniyyətlərin müxtəlifliyini vurğulamaq, əməkdaşlıq və anlaşma ruhunu təşviq etmək üçün konsertlər, festivallar və yaradıcı tamaşalar da daxil olmaqla bir sıra mədəni tədbirlərin keçirilməsi gözlənilir.

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əsas məqsədi mədəniyyətlərarası əməkdaşlıq və dialoqun təşviqi üçün mühüm beynəlxalq platforma kimi "Bakı Prosesi"nin rolunu möhkəmləndirməkdir.

## Dördüncü "Yüksəliş" müsabiqəsinə 14 min nəfərdən çox iştirakçı qeydiyyatdan keçib




**Martın 1-dən etibarən start götürən dördüncü "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsinin tamamlanmasına sayılı günlər qalıb.**

"Yüksəliş" müsabiqəsinin işçi qrupundan bildirilib ki, bu müddət ərzində müsabiqəyə ötən illərlə müqayisədə rekord sayda müraciət qeydə alınıb. Belə ki, 14 min nəfərdən çox iştirakçı qeydiyyat mərhələsini uğurla tamamlayaraq mentorlardan 1 illik fərdi inkişaf planı əldə etmək, adını kadr ehtiyatı bankına yazdırmaq və 20 000 AZN məbləğində pul mükafatı qazanmaq üçün müsabiqəyə qoşulub. Müsabiqə üçün qeydiyyat yukselish.az saytı vasitəsilə həyata keçirilir və martın 31-i saat 18:00-dək davam edəcək.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında intellektual səviyyəsi və ikiillik idarəçilik təcrübəsi olan perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

Növbəti - dördüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı ölkə rəhbəri tərəfindən 2023-cü il dekabrın 25-də sərəncam imzalanıb.

## Azərbaycan gimnastları Dünya Kubokunda iştirak edəcəklər




**Azərbaycanın kişi və qadın idman gimnastları Türkiyənin Antalya şəhərində keçiriləcək "Challenge" seriyasına aid Dünya Kubokunda iştirak edəcəklər.**

Azərbaycan Gimnastika Federasiyasından bildiriblər ki, milli komandanın məşqçiləri Eldar Səfərov və Olqa Barkalavanın rəhbərliyi altında Mənsum Səfərov, Rəsul Əhmədzadə, Murad Ağarzayev və Nazənin Teymurova qüvvəsini sınayacaq.

Beynəlxalq dərəcəli hakimlər Nihad Şirinli və Anjella Abdullayeva da yarışda ölkəmizi təmsil edəcəklər.

# Milli Qəhrəman Anatoli Davidoviçin xatirəsi anılıb

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Belarus Respublikasındakı hərbi attaşelik aparatının nümayəndələri Azərbaycanın Milli Qəhrəmanı, belarusəsilli Davidoviç Anatoli Nikolayeviçin anadan olmasının ildönümü ilə əlaqədar onun məzarını ziyarət edib, önünə Müdafiə Nazirliyi adından gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.**




Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, attaşelik aparatının nümayəndələri Milli Qəhrəmanın anası Kima Davidoviçin səhhəti və qayğıları ilə yaxından maraqlanıblar.

Milli Qəhrəmanın anası övladının xatirəsinə olan ehtirama, eləcə də göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Qeyd edək ki, A.Davidoviç Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə ağır yaralanaraq hospitala təxliyə olunub, lakin həkimlərin səyinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb, o 1992-ci il iyun ayının 13-də şəhid olub. Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 3 iyul tarixli Fərmanı ilə mayor Davidoviç Anatoli Nikolayeviçə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin struktur idarələri üçün mismar, bolt, qayka, sancaq, şrup, şayba, dəmir kələpçə, pərçim və vintlərin satınalınması məqsədi ilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 4 aprel 2024-cü il saat 15:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, M.Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin ZIĞ GTT Zavodu üçün abraziv qumun satınalınması məqsədi ilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 4 aprel 2024-cü il saat 15:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, M.Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin balansında olan struktur idarələri üçün əlvan metalların satın alınması məqsədi ilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 5 aprel 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, M.Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin struktur idarələr və gəmiləri üçün polad təbəqələrin satın alınması məqsədi ilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 8 aprel 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, M.Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047**

***Tender komissiyası***

## "Səba" ASC-nin səhmdarlarının nəzərinə!

**30 aprel 2024-cü il tarixdə saat 15:00-da** Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

1. Kənar auditorun seçilməsi haqqında;
2. Təsisçilərindən biri "Səba" ASC olan "Səba Orqanik Gübrə" MMC-nin ləğv edilməsi haqqında;

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidirlər.

**Əlaqə telefonu: +994124044441;**
**Ünvan: AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1**

***"Səba"ASC-nin İdarə Heyəti***

## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə*
### *2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 02.04.2024-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


# *Rusiya XİN:* "Ermənistan quru yerdə qala bilər"

**Avropa İttifaqının Ermənistanı özü üçün müstəsna olaraq resurs və gəlir mənbəyi kimi gördüyü heç bir şübhə doğurmur. Eyni zamanda onlar ölkənin maraqları və prioritetlərinin Brüsseldə müəyyən edilməsini normal hal hesab edirlər.**



AZƏRTAC xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyi "Ermənistanın dostları şəbəkəsi" hesabatının NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussenin rəhbərliyi ilə hazırlanan "Aİ ilə Ermənistan arasında münasibətlərin dərinləşməsi: Ermənistanda daha çox Avropa; Avropada daha çox Ermənistan" adlı məqaləsini belə şərh edib.

Rusiya Xarici İşlər Nazirliyi qeyd edib ki, hesabata görə, İrəvan Ermənistanın əsas benefisiar olduğu Avrasiya İqtisadi Birliyindən çıxmalıdır. Eyni zamanda ermənilərin nə vaxt və hansı şəraitdə Aİ-nin ümumi bazarına çıxış əldə edə biləcəkləri məlum deyil. "Ola bilər ki, Avropa İttifaqının boş vədlərinə əməl edərək, respublika sakinləri quru yerdə qalsınlar", - deyə nazirlik hesab edir.

Rusiya Xarici İşlər Nazirliyi vurğulayıb: "Müəlliflər Aİ ilə vizasız rejimin tətbiqinə söz verməyə çalışırlar ki, bu da gənc və iqtisadi fəal əhalinin Avropaya əhəmiyyətli axınına səbəb olacaq, Ermənistanın iqtisadiyyatına və təhlükəsizliyinə mənfi təsir göstərəcək".

RF XİN əlavə edib ki, Avropa İttifaqı və NATO Ermənistanın və onun vətəndaşlarının real ehtiyaclarına əhəmiyyət vermir. Bu, respublikanın Qərbə üz tutmasının Cənubi Qafqazın onun ehtiyaclarına uyğun olaraq yenidən formatlaşdırılması üçün "az xərcli" bir müəssisə olduğu qeyd edilən nəticədən aydın görünür. "Bu strukturda Ermənistana müstəsna olaraq Brüssel və Vaşinqtondan gələn sifarişləri yerinə yetirmək rolu həvalə edilib", - deyə Rusiya Xarici İşlər Nazirliyi qeyd edib.


## Holcim (Azərbaycan) ASC-nin səhmdarlarının nəzərinə

**Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının İllik Ümumi Yığıncağı 30.05.2024-cü il tarixdə saat 10.00-da Azərbycan Respublikası, Bakı şəhəri, AZ1065, İzmir küçəsi, 6 ünvanında yerləşən Hyatt Regency otelinin Quba zalında keçiriləcəkdir. Səhmdarların qeydiyyatı zalın foyesində saat 09.00-dan 09.45-dək aparılacaqdır.**

**Səhmdarların İllik Ümumi Yığıncağının gündəliyi:**

1. Holcim (Azərbaycan) ASC-nin Səhmdarlarının İllik Ümumi Yığıncağının sədrinin seçilməsi.
2. Holcim (Azərbaycan) ASC-nin 2023-cü il üzrə audit olunmuş maliyyə hesabatlarının təsdiqlənməsi.
3. 2023-cü ilin nəticələri üzrə xalis mənfəətin bölüşdürülməsi.
4. Müşahidə Şurasına üzvlərin və Müşahidə Şurasının sədrinin təyin edilməsi.
5. Təftiş Komissiyasına üzvlərin təyin edilməsi.
6. Holcim (Azərbaycan) ASC və "Holcim" LTD arasında imzalanan Brend Müqaviləsinə dəyişikliyin təsdiq edilməsi.
7. Holcim (Azərbaycan) ASC ilə "Holcim Technology" LTD arasında imzalanan Sənaye Əqli Mülkiyyət müqaviləsinə dəyişikliyin təsdiq edilməsi.

***Holcim (Azərbaycan) ASC***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


## ALLAH RƏHMƏT ELƏSİN!

Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin (MAKA) baş direktoru, professor Natiq Cavadov, Həmkarlar İttifaqı Təşkilatı və kollektivi MAKA-nın Elmi-tədqiqat işlərinin koordinasiyası və yaradılma şöbəsinin Texnoloji araşdırmalar və innovativ layihələr bölməsinin rəisi İsbəndiyar Müseyib oğlu Əliyevaya bacısı

**SEVDA MÜSEYİB QIZI ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4300**
**Sifariş 647**

**Qiyməti 60 qəpik**